Xalqın qəzeti!

# Xalq qəzeti

№ 267 (30961) 19 dekabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

**Əlahəzrət!**

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ortaq dini-mədəni dəyərlərə, qardaşlığa, İslam həmrəyliyinə əsaslanan Azərbaycan-Qətər münasibətlərinin səviyyəsi bizi sevindirir.

Əminəm ki, qarşılıqlı etimad və dəstək üzərində qurulmuş dövlətlərarası münasibətlərimizi möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 dekabr 2025-ci il**

# Bakıda əl açanlar Brüsseldə yumruq göstərirlər





**Avropa İttifaqının (Aİ) iqtisadi Cənubi Qafqaz strategiyası ikili standartlar ritorikası ilə müşahidə olunur. Xüsusilə Avropa Parlamentində anti-Azərbaycan dalğası son zamanlar cəfəngliyi ilə seçilir. Avropa Parlamenti mütəmadi olaraq Azərbaycanla bağlı qərəzə və ədalətsizliyə yol verir, mənasız müzakirələr açır, saxta qətnamələr qəbul edir.**

Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etdiyini bəyan etsə də, bu sanksiyaların icrasında ziddiyyətli məqamlar diqqət çəkir. Bir tərəfdən Aİ Rusiyanın enerji ticarətinə yardım edən Azərbaycan tankerlərini qara siyahıya salır, digər tərəfdən isə aparıcı Aİ ölkələri hələ də Moskvanın enerji daşıyıcılarından faydalanmağa davam edirlər. Eyni zamanda, Rusiya ilə sanksiya altında olan ticarəti dolayısı yolla genişləndirən Ermənistan kimi müttəfiqlərə qarşı Brüsseldən ciddi reaksiya görünmür.

*(ardı 8-ci səhifədə)*

## Jurnalist təşkilatları və “söz azadlığı”nın qələm qardaşlığı

*...koordinasiya nəyə görə lazımdır?*



**Azərbaycanda jurnalist təşkilatlarının koordinasiya mərkəzi adlanan qurum formalaşdırılır. Məlumata görə, təsisat Mətbuat Şurasının tərkibində fəaliyyət göstərəcək. Şuranın İdarə Heyətinin dünən keçirilmiş iclasında bununla bağlı təqdimat da oldu, mərkəzə rəhbərlik edəcək şəxs də müəyyənləşdi. İclasda “Azərbaycan Jurnalistləri Şəbəkəsi”nin sədri, tanınmış telejurnalist Ayaz Mirzəyevin namizədliyi dəstəkləndi. Heç şübhəsiz, yeni mərkəz nəzərdə tutulan fəaliyyətin gerçəkləşməsi istiqamətində fəal iş aparacaq.**

*(ardı 6-cı səhifədə)*

## BƏƏ ölkəmizin strateji tərəfdaşıdır



Səhifə ⇨ 5

## Belarus Qarabağın dirçəlişinə dostluq əli uzadır



Səhifə ⇨ 5

## “Bahar” və “Qum-dəniz” yataqlarında qazma işləri sürətlənir



Səhifə ⇨ 7

## Ermənistanda əhali azalır, münaqişələr isə artır

*Demoqrafik böhranın səbəbi uzun illərin millətçilik siyasətidir*



**Ermənistan maliyyə nazirinin müavini (2016-2018) və Dövlət Gəlirləri Komitəsinin sədri (2018-2020) vəzifələrində çalışmış, hazırda “Birlik qanadları” siyasi təşəbbüsünün üzvü olan iqtisadçı David Ananyan ölkədəki demoqrafik durumla bağlı real göstəriciləri açıqlayıb. “Facebook” sosial şəbəkəsindəki səhifəsində yerləşdirdiyi “Səssiz demoqrafik çöküş: “Böyüyən” iqtisadiyyatın fonunda doğum səviyyəsinin azalması” sərlövhəli şərhində Ananyan bildirib ki, 2025-ci il oktyabrın 1-i tarixinə Ermənistanın daimi əhalisi 3 milyon 90 min 500 nəfər təşkil edib.**

Onun sözlərinə görə, rəqəmlər cüzi artım göstərir, lakin bu artımın mənbəyi aydındır: “Bu, təbii çoxalma ilə deyil, “Artsax”dan gəlmiş soydaşlarımızın qeydiyyatı ilə bağlıdır. Və real demoqrafik mənzərə pisləşməyə davam edir. 2025-ci ilin yanvar-oktyabr aylarında ölkədə 26768 uşaq doğulub, 2024-cü ilin eyni dövründə isə bu rəqəm 28109 olub. Bu, o deməkdir ki, doğum nisbəti 4,8 faiz azalıb. Doğum əmsalı (doğum/ölüm nisbəti) də azalıb: 133,3 faiz → 127 faiz. Bu o deməkdir ki, təbii artımın “ehtiyatı” tükənir”.

*(ardı 4-cü səhifədə)*

## Aİ növbəti ikili standart oyunu ilə Cənubi Qafqazda suyu bulandırır



Səhifə ⇨ 3

## Bakı Limanı Orta Dəhlizin ötürücü meydanına çevrilib





Səhifə ⇨ 7

## Gürcüstan–Avropa İttifaqı: etimadsızlıq davam edir



Səhifə ⇨ 3

## Azərbaycandan Ermənistana neft məhsulları yola salındı



Səhifə ⇨ 8

# Azərbaycan Memarlıq və İnşaat Universiteti əməkdaşlarının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Memarlıq və İnşaat Universitetinin 50 illiyi münasibətilə **qərara alıram:**

**1** Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Azərbaycan Memarlıq və İnşaat Universitetinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**

Məmmədova Gülçöhrə Hüseyn qızı

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ağayev Asəf Mirzə oğlu
Babayev Nəbi Miri oğlu
Əliyev Fəqan Qənbər oğlu
Hacıyev Müxlis Əhməd oğlu
Haqverdiyeva Tahirə Axi qızı
Mehtiyev Əlixan Qafar oğlu
Məmmədov Nurməmməd Yaşar oğlu
Şirinzadə İradə Nüsrət qızı

**"Tərəqqi" medalı ilə**

Abdullayeva Nərgiz Cavad qızı
Aslanov Telman İmran oğlu
Aslanova Nigar Məhər qızı
Danyalov Şəfi Danyal oğlu
Əhmədova Salatın Alı qızı
Əkbərova Samirə Misirxan qızı
Əliyev Ramiz Dadaş oğlu
Əliyeva Səlmi Saleh qızı
Fərzəliyev Sahib Abdulәli oğlu
Həsənov Fərzəli Həsən oğlu
Hüseynov Hüseynağa İbrahim oğlu
Hüseynova Rəna Ömər qızı
İskəndərov Ramiz Əziz oğlu
Qasımov Akif Fazil oğlu
Quliyeva Əzizə Mürsəl qızı
Məmmədov Sabir Baladin oğlu
Musayeva Nailə Fuad qızı
Naqdiyev Əcəm Özübəy oğlu
Nəbiyev Aydın Xalıq oğlu
Sazairov Əmirxan Bəhsət oğlu
Yusifzadə Elçin Nazim oğlu.

**2.** Azərbaycanda təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Nağıyev Nizami Həsən oğluna Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 18 dekabr 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri"ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 1983 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqlarının təsviri"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1** Aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

"5.7-1. Çevik Hərəkət Qüvvələri hərbi hissəsinin döyüş bayrağında – "Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələri 0000 (hərbi hissənin nömrəsi) saylı hərbi hissə";".

**2.** 8-1 nömrəli şəkil əlavə edilsin *(əlavə olunur).*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 18 dekabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 18 dekabr tarixli Fərmanına əlavə*




**Şəkil 8-1.** Çevik Hərəkət Qüvvələri hərbi hissəsinin döyüş bayrağı (arxa tərəf)

# Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Cavad-zadə Mir-Riad Mir-Məmməd oğlu
Eyvazov Təyyar Haşım oğlu
Əfəndiyev Akif Zahid oğlu
Meybəliyev Məmmədəli Tələt oğlu
Məmmədova Nailə Yusif qızı
Mirzə-zadə Valeh Ağasafa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 18 dekabr 2025-ci il**

# "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində aşağıdakıları müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1. su obyektlərindən xüsusi məqsədlər üçün istifadə ilə bağlı ödənişlərin məbləğlərini;

2.1.2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə fiziki və hüquqi şəxslər arasında su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair müqavilənin formasını;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 18 dekabr 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 302-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794 (Cild I); 2024, № 5 (I kitab), maddələr 516, 529, № 6, maddə 550) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın 8.1-ci bəndinə "il" sözündən sonra "martın 31-dək" sözləri əlavə olunsun və həmin bənddə "sessiyasının beşinci iclasında" sözləri "sessiyasında" sözü ilə əvəz edilsin.

**2.** Bu Fərman 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 18 dekabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 18 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda Azərbaycan Respublikası Su Məcəlləsinin 34-cü maddəsinin birinci hissəsinin ikinci cümləsinə uyğun olaraq su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin (bundan sonra – icazə) verilməsi ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Bu Qaydanın müddəaları su servitutlarından və su obyektlərindən fiziki şəxslərin öz ehtiyaclarını təmin etmək üçün istifadəsinə şamil edilmir.

1.3. Torpaq sahibləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan birinci təzyiqsiz sulu horizontda quyuların qazılmasını və istismarını həyata keçirə bilərlər. Bu zaman torpaq sahiblərinin icazə alması tələb olunmur.

1.4. Su obyektləri xüsusi məqsədlər üçün istifadəyə icazə və sudan istifadə müqaviləsi əsasında verilir. İcazənin verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət rüsumu tutulur.

1.5. İcazə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra – Agentlik) tərəfindən verilir.

**2. İcazənin alınması üçün müraciət**

2.1. İcazənin alınması üçün hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (bundan sonra – ərizəçi) "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinə uyğun olaraq Agentliyə ərizə ilə müraciət edirlər.

2.2. Ərizəyə aşağıdakı sənədlər və məlumatlar əlavə edilir:

2.2.1. ərizəçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və ya nümayəndəliyi olduqda hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;

2.2.2. ərizəçi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda şəxsiyyət vəsiqəsinin surəti;

2.2.3. ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

2.2.4. xüsusi məqsədlər üçün su götürülən və ya tullantı suların axıdılacağı su obyektinin adı, yerləşdiyi ərazi və coğrafi koordinatları (şimal en dairəsi və şərq uzunluq dairəsi) barədə məlumatlar;

2.2.5. ərizəçinin su obyektindən istifadəsinin xüsusi məqsədi barədə aşağıdakı sənədlər:

2.2.5.1. ərizəçi su obyektlərindən faydalı qazıntıların hasil edilməsi, geoloji kəşfiyyat və qazma işlərinin aparılması, yeraltı qurğuların tikintisi və dövlət ekoloji ekspertizasına aid olan fəaliyyət növləri ilə məşğul olmaq məqsədilə istifadə üçün müraciət etdikdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi (razılığı);

2.2.5.2. ərizəçi su obyektlərindən balıqçılıq, o cümlədən akvakultura məqsədilə istifadə üçün müraciət etdikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin rəyi (razılığı);

2.2.5.3. ərizəçi su obyektlərindən müalicə, kurort və sağlamlaşdırma məqsədilə istifadə üçün müraciət etdikdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəyi (razılığı);

2.2.5.4. ərizəçi su obyektlərindən kiçikhəcmli gəmilərin hərəkəti məqsədilə istifadə üçün müraciət etdikdə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin rəyi (razılığı);

2.2.5.5. ərizəçi su obyektlərindən energetika məqsədilə istifadə üçün müraciət etdikdə Azərbaycan Respublikası Energetika Nazirliyinin rəyi (razılığı);

2.2.6. ərizəçinin su obyektindən xüsusi məqsədlər üçün su götürülməsində tətbiq edəcəyi texniki qurğu və avadanlığın texniki xüsusiyyətləri (o cümlədən sugötürmə və suburaxma qabiliyyəti, kubmetr/saniyə) barədə məlumat;

2.2.7. ərizəçinin suya tələbatı (min kubmetr/il, min kubmetr/ay, kubmetr/saniyə) və ya istifadə edəcəyi su akvatoriyasının sahəsi ($m^2$, ha) barədə proqnoz məlumatı;

2.2.8. xüsusi məqsədlər üçün istifadənin növündən asılı olaraq sutəmizləyici qurğuların gücü və təmizləmə parametrləri;

2.2.9. xüsusi məqsədlər üçün istifadənin növündən asılı olaraq buraxıla bilən axıntı həddi barədə məlumat;

2.2.10. ərizəçinin adından onun etibarnamə üzrə nümayəndəsi müraciət etdikdə həmin şəxsə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs tərəfindən verilən notariat qaydasında təsdiq edilmiş etibarnamə və ya hüquqi şəxsin verdiyi etibarnamə (hansı səlahiyyətlərlə bağlı verildiyi dəqiq göstərilməklə);

2.2.11. sudan istifadəyə dair sonuncu dəfə təqdim olunmuş statistika hesabatının surəti (ilk dəfə müraciət edənlər istisna olmaqla).

2.3. Bu Qaydanın 2.2-ci bəndində qeyd olunan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

**3. İcazənin verilməsi**

3.1. Ərizə Agentlik tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq qəbul edilir və qeydiyyata alınır.

3.2. Agentlik ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin və məlumatların bu Qaydanın 2-ci və 3-cü hissələrinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə və məlumatlarda aradan qaldırılması mümkün olan və icazənin verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq, Agentlik onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərərək, formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir.

3.3. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman icazənin verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət icazənin verilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.4. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 3.3-cü bəndində qeyd olunan müddətdə aradan qaldırmadıqda Agentlik ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə məlumatı 3 (üç) iş günü müddətində ərizəçiyə təqdim edir.

3.5. Agentlik su obyektinin təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərdə və məlumatlarda göstərilənlərə uyğunluğunu yerində qiymətləndirir.

3.6. Agentlik təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə və məlumatlara baxılmanın nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq bu Qaydanın əlavəsində müəyyən edilmiş formaya uyğun olaraq icazəni verir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş formaya uyğun olaraq müqavilə bağlayır və ya icazənin verilməsindən imtina haqqında qərar qəbul edir.

3.7. Agentlik icazənin verilməsi üçün "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 18.70-ci maddəsi ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 (iki) iş günü müddətində ərizəçiyə yazılı formada məlumat verir. Ərizəçi tərəfindən məlumat alındığı tarixdən 5 (beş) iş günü müddətində icazənin verilməsi üçün dövlət rüsumu ödənilir və ödənişi təsdiq edən sənəd Agentliyə təqdim edilir.

3.8. Ərizəçi tərəfindən dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd təqdim edildikdən sonra icazə 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydanın 3.7-ci bəndində nəzərdə tutulan müddətdə təqdim edilmədikdə Agentlik tərəfindən icazə ləğv edilir və bu barədə məlumat 2 (iki) iş günü müddətində ərizəçiyə göndərilir.

3.9. İcazənin verilməsindən aşağıdakı hallarda imtina edilir:

3.9.1. bu Qaydanın 2.2-ci bəndində qeyd olunan sənədlər və məlumatlar təqdim edilmədikdə (bu Qaydanın 2.3-cü bəndinin tələbləri nəzərə alınmaqla);

3.9.2. su obyektinin növü və ehtiyat potensialı onun ərizədə göstərilən xüsusi məqsədlər üçün istifadəsinə imkan vermədikdə;

3.9.3. su obyektindən istifadənin məqsədi su qanunvericiliyi ilə müəyyən edilmiş sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji, metroloji standartlara, normalara və qaydalara zidd olduqda;

3.9.4. tullantı suların su obyektlərinə axıdılmasına görə həmin suların zərərli təsirinin qarşısını alan qurğular və avadanlıq mövcud olmadıqda.

3.10. İcazənin verilməsindən imtina edilməsi haqqında qərar imtinanın səbəbləri göstərilməklə əsaslandırılmalıdır.

3.11. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra icazənin alınması üçün təkrar ərizə ilə Agentliyə müraciət edə bilər.

3.12. İcazə, su obyektlərindən xüsusi istifadənin məqsədindən, su obyektlərinin ehtiyat potensialından və ekoloji vəziyyətindən asılı olaraq, Azərbaycan Respublikası Su Məcəlləsinin 32-ci maddəsi ilə müəyyən edilmiş müddətlərdə verilir.

3.13. İcazə Agentliyin rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

3.14. İcazənin, onun dublikatının verilməsi, icazənin yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ləğvi ilə bağlı inzibati icraat "İnzibati icraat haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarına və bu Qaydaya uyğun olaraq həyata keçirilir.

3.15. İcazə ərizəçini "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və həmin Qanunun 4.1-ci maddəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş müvafiq icazələrin alınması öhdəliyindən azad etmir.

**4. İcazənin qüvvədəolma qaydaları və ona nəzarət**

4.1. İcazənin sahibi Azərbaycan Respublikası Su Məcəlləsinin və digər normativ hüquqi aktların tələblərinə riayət etməlidir.

4.2. İcazənin və sudan xüsusi məqsədlər üçün istifadə müqaviləsinin şərtlərinə riayət olunmasına nəzarəti Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti (bundan sonra – Xidmət) həyata keçirir.

4.3. Xidmət aşağıdakılara nəzarət edir:

4.3.1. icazədə göstərilən hərəkətin həyata keçirilməsini tənzimləyən normativ hüquqi aktların tələblərinin, icazə qaydalarının və müqavilə şərtlərinin icazə sahibi tərəfindən yerinə yetirilməsinə nəzarət etmək;

4.3.2. yoxlama zamanı ortaya çıxan suallara dair icazə sahibindən məlumatlar və sənədlər, o cümlədən arayışlar almaq;

4.3.3. yoxlamanın nəticələrinə dair pozuntuları və onların aradan qaldırılması müddətini göstərməklə akt tərtib etmək;

4.3.4. müəyyən edilmiş pozuntuların aradan qaldırılması barədə icazənin sahibinə xəbərdarlıq etmək və ya yazılı bildiriş təqdim etmək;

4.3.5. icazənin dayandırılması və ya ləğv edilməsi barədə Agentliyə təklif vermək.

4.4. İcazənin sahibi aparılan yoxlama zamanı Xidmətin nümayəndələrinə yoxlanılacaq obyektlərə daxil olmağa mane olmamalı, yoxlama aparılması üçün şərait yaratmalı və tələb olunan sənədləri və məlumatları təqdim etməlidir. Xidmətin nümayəndəsi xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlama aparılması haqqında qərarın surətini və yoxlamanın yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı, yoxlamanın hüquqi əsasları, predmeti, müddəti, yoxlama zamanı tərəflərin hüquq və vəzifələri haqqında məlumat təqdim etmədikdə, icazə sahibi onu yoxlamaya buraxmaqdan imtina edə bilər.

4.5. Yoxlamanın təşkili, aparılması, nəticəsinin rəsmiləşdirilməsi və bununla bağlı digər məsələlər "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tənzimlənir.

"Su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazənin verilməsi Qaydası"na
**Əlavə**

**SU OBYEKTLƏRİNDƏN XÜSUSİ MƏQSƏDLƏR ÜÇÜN İSTİFADƏYƏ İCAZƏNİN FORMASI**

"_____" ________ 20______ il          № ___________

_______________________________________________
(icazə verən orqanın adı)

_______________________________________________
(icazə verən orqanın ünvanı)

_______________________________________________
(su obyektinin adı, yerləşdiyi ərazi və koordinatları)

_______________________________________________
_____________________________istifadəyə icazə verir.
(istifadənin növü göstərilir)

İcazə verilmişdir _______________________________
_______________________________________________
_______________________________________________
(hüquqi şəxsin adı və ünvanı, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi)

İcazənin
müddəti _______________          _______________
(başlama tarixi – gün, ay, il)  (bitmə tarixi – gün, ay, il)

İcazəni verən orqanın rəhbəri
və ya onun həvalə etdiyi vəzifəli şəxs

_________________________________
(vəzifəsi, soyadı və adı)

_________________________
(imzası)

**M.Y.**

# Aİ növbəti ikili standart oyunu ilə Cənubi Qafqazda suyu bulandırır

## *Avropa Parlamentində anti-Azərbaycan dinləmələri sülh prosesinə təhdiddir*

**İkili standart, qərəz və hay təəssübkeşliyi yenə Avropanın aparıcı siyasi institutlarının gündəliynə daxil olub. Əlbəttə, bunu təsadüf hesab etmək sadəlövhlükdür. Uzun illər erməni lobbisinin maraqlarının təmsilçisi rolunu oynayan Avropa İttifaqı (Aİ) və onun nəzarətində olan Avropa Parlamentində anti-Azərbaycan təbliğatının yeni dalğası müşahidə olunmaqdadır. Birinci dəfə deyil ki, bu qurumlar Cənubi Qafqazı sülh və əmin-amanlığa aparan yola kötük diyirlədir, kimlərinsə sifarişi ilə, korporativ maraqları naminə bölgədə eskalasiya atmosferi yaratmağa çalışırlar. Son günlər Avroparlamentdə keçirilən Azərbaycan dinləmələri də məhz bu məkrli niyyətin təzahürü sayılmalıdır.**



Avropa Parlamentinin mütəmadi olaraq Azərbaycana münasibətdə açıq qərəzli, ikili standartlı yanaşmalara yol verməsi, ölkəmizin əleyhinə müxtəlif xarakterli qərar və qətnamələr qəbul etməsi təzə söhbət deyil. Fəaliyyətində hay təəssübkeşliyini ön plana çıxaran Aİ-nin qanunverici orqanının hədəf və məqsədləri bizə yaxşı məlumdur. Makron Fransasının hegemonluq etdiyi qitənin hüquq təsisatlarının əsas məqsədi Cənubi Qafqazda Azərbaycanla Ermənistan arasında sülh və təhlükəsizlik mühitinin yaranmasına hər vəchlə mane olmaqdır. Onlarda qıcıq yaradan digər amil isə bölgənin şəriksiz liderinə çevrilmiş Azərbaycanın dünyada söz sahibi olması və getdikcə artan nüfuzudur. Məhz bu amil ermənipərəst Qərbi əməlli-başlı əndişələndirir.

Dekabrın əvvəlində Brüsseldə Avropa İttifaqı ilə Ermənistan arasında imzalanmış "Avropa İttifaqı–Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədini bu narahatlığın təzahürü saymaq olar. Azərbaycan Xarici İşlər Nazirliyi bu müqaviləni Azərbaycan–Ermənistan sülh gündəliyinə zərər vuran zidd addım adlandırıb. Həqiqətən də bu sənəd postmünaqişə dövrünün reallıqlarını təhrif etməklə yanaşı, bütövlükdə Azərbaycanla Ermənistan arasında finişə doğru gedən sülh gündəliyini şübhə altına alır.

*

Qeyd etdiyimiz sənəddə Aİ ilə Ermənistan arasında növbəti 7 il müddətində strateji prioritetlər müəyyənləşdirilir, rəsmi İrəvanın reallıqdan və regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsü dəstəklənir. Amma nədənsə çoxsaylı müddəaların yer aldığı həmin müqavilədə 8 avqust Vaşinqton sammitində qəbul edilən Birgə Bəyannamə, iki ölkə arasında normallaşma prosesinin detalları ilə bağlı əldə olunan razılaşma, eləcə də tərəflər üçün müstəsna əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin adı çəkilmir. Bu, nədən xəbər verir? Ağıla gələn ilk sual-ehtimal budur: bəlkə Ermənistan Vaşinqtonda imzaladığı TRIPP sazişi çərçivəsində boynuna götürdüyü öhdəlikləri icra etmək niyyətində deyil? Bu kontekstdən yanaşanda Aİ-nin həmin layihəni dəstəklədiyi ilə bağlı verdiyi bəyanat da göydən asılı vəziyyətdə qalır və ciddi suallar yaradır.

Azərbaycanın yalnız Aİ-nin və Ermənistanın qərəzli mövqelərinin əks olunduğu məlum sənədə öz etirazını bildirməyə tam haqqı çatır. Axı, sözügedən sənəddə regiondakı mövcud reallıqla yanaşı, ölkəmizin mövqeyi də nəzərə alınmalı idi. Ən azı, ona görə ki, rəsmi Bakı Ermənistana taxıl daşınması üçün özünün dəniz və dəmir yolu tranzitini açıq elan edib. Maraq doğuran digər məsələ Avropa İttifaqının öz daxilində TRIPP ilə bağlı yekdil fikir mövcud deyil. Bu layihənin tərəfdarları kimi, əleyhdarları da var. Məsələn, Aİ-nin Ermənistandakı səfiri Vasilis Maraqos ötən günlərdə erməni mediasına verdiyi müsahibəsində "Beynəlxalq Sülh və Rifah naminə "Tramp Marşrutu" toxunaraq, onunla bağlı təqdiredici nikbin fikirlər söyləyib. "Tramp Marşrutu" layihəsi çərçivəsində vəsait yatırmağa hazır olduqlarını dilə gətirən səfir Aİ-nin regionda istənilən infrastruktur layihəsini dəstəkləyəcəyini birmənalı şəkildə vurğulayıb. İntəhası, qurum daxilindəki sorosçu, sağ radikal, eləcə də liberal qüvvələr Cənubi Qafqazda yaranmaqda olan sülh və sabitlik mühitinə hər vəchlə ziyan vurmağa çalışır, TRIPP layihəsinin Avropanın deyil, Birləşmiş Ştatların maraqlarına xidmət edəcəyi kimi ikibaşlı və zərərli tezislər irəli sürülər. Aydın görünən odur ki, Avropa İttifaqı Ermənistanla birlikdə Ağ Evin sahibi Donald Trampın şəxsən iştirakı və vasitəçiliyi ilə əldə edilmiş sülh gündəliyinin əleyhinə çıxır. Brüsseldə imzalanmış Aİ–Ermənistan sənədində ABŞ prezidentinin təşəbbüsü ilə yaradılan TRİPP layihəsinə istinadın olmaması faktı məhz bu qərəzli yanaşmanın bariz nümunəsi sayılmalıdır. Onu da nəzərə çatdıraq ki, Aİ-nin əsas qurumlarından hesab edilən Avropa Parlamentində dəfələrlə "Tramp marşrutu"-na ikili yanaşmanı əks etdirən müzakirələr keçirilib. Qətiyyətlə deyə bilərik ki, Aİ-nin Azərbaycana qarşı qısqanc və qərəzli yanaşması bu günün yox, uzun illərin "xroniki xəstəliyidir" və biz onun "qalxma və enmə" dövrlərinin sistematik xarakter daşıdığının şahidiyik.

Fransanın formalaşdırdığı və idarə etdiyi Aİ-nin daxilindəki anti-Azərbaycan qüvvələr zəfərimizlə başa çatan Vətən müharibəsinə qədər bir çox hallarda ölkəmizin ərazi bütövlüyünə, İrəvanla sülh danışıqlarında haqqa və ədalətə dəstək vemirdilər. Onlar Azərbaycan kimi separatizmdən əziyyət çəkən Gürcüstan, Ukrayna və Moldovaya qarşı da eyni yanaşmanı sərgiləyirdilər. Bu gün Avropa Parlamentində haypərəstlərin düzənlədiyi dinləmələrin əsas məqsədi Cənubi Qafqazda yaranmaqda olan sülh, sabitlik və əməkdaşlıq mühitinə zərbə vurmaq, bölgəni yenidən münaqişə ocağına çevirməkdir.

*

Avropanın nüfuzdan düşmüş bu təsisatı son illər gah Azərbaycana müxtəlif böhtanlar atır, gah da Bakıdan Aİ üzvü olan ölkələrin enerji daşıyıcıları ilə təminatına yardım göstərməyi xahiş edirdi. Bu isə Aİ-nin hətta ikili standartların sərhədlərini aşan ikiüzlü siyasətdir.

Bu əsnada Aİ-nin Ermənistanda qeyri-legitim fəaliyyət göstərən mülki missiyasının fəallaşması da gözdən yayınmayıb. "Binokllu diplomatlar" adlandırdığımız, əslində isə fransız və alman kəşfiyyatçılarının toplaşdığı bu üzdəniraq missiya Aİ-nin bölgədə sülhə qarşı yürütdüyü siyasətin tərkib hissəsidir. Həm də Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunan mülki müşahidə missiyasının fəaliyyətinə xitam vermək əvəzinə, Brüssel onun mövcudluğunun qorunması, missiyanın tam operativliyinin təmin olunması qeydinə qalmaqla məşğuldur. Bu missiyanın yarandığı ilk gündən bölgədə sülhə qarşı çıxdığı, təxribatçı bəyanat və hesabatlar yaydığı barədə dəfələrlə yazmışıq. Artıq sirr deyikl ki, Aİ-nin Ermənistanla bütün cəbhələrdə birgə fəaliyyətinin əsas məqsədi Vaşinqton razılaşmalarının pozulması, onların Paris və Brüsselin müəyyən etdiyi gündəliklə əvəzlənməsidir.

Bütün bunlar onu deməyə əsas verir ki, Bakı və İrəvan arasında vasitəçisiz dialoq, Cənubi Qafqazda gedən sülh prosesi, Azərbaycan və Ermənistanın üçüncü tərəfin iştirakı olmadan danışıqlar aparması, eləcə də sərhəddə insidentlərin baş verməməsi, atəşin açılmaması Aİ-ni bərk narahat edir. Bölgədə ayırıcı xətlər çəkməyə çalışan "kollektiv Qərb"i həm də Azərbaycanın artan nüfuzu narahat edir. Fəqət artıq hamıya məlumdur ki, Avropanın korrupsiyaya uğramış təsisatları daxili didişmələr, parçalanma və ziddiyyətlər içində çabalayır.

Böyük siyasətdə subyektliyini itirən Aİ-nin bu gün diqqəti "qoca qitə"nin qorxulu yuxuna çevrilmiş Ukraynadakı qanlı müharibəyə deyil, sülhün bir addımlığında olan Azərbaycan və Ermənistana yönəltməyinin bir adı var: sülh prosesinə mane olmaq, bölgədə bayrağını qaldırmaq. Avroparlament beynəlxalq ictimaiyyətin eşitməyəcəyi qərəzli dinləmələri ilə, guya, bölgədə itirdiyi mövqeyini İrəvan üzərindən bərpa etməyə çalışır. Onun bu çirkli planının əvvəlkilər kimi iflasa uğrayacağı birmənalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Brüssel "qoca qitə"ni hara yönəldir?

## *"Dəyərlər" pərdəsi arxasında gizlənən qərəz və korafəhmlik*



**Qərb yarımkürəsində formalaşmış siyasi institutların, xüsusilə Avropa İttifaqının (Aİ) və onun qanunverici orqanı olan Avropa Parlamentinin fəaliyyəti getdikcə daha çox suallar doğurmağa başlayıb. Fəaliyyəti beynəlxalq hüququn norma və prinsipləri ilə daban-dabana ziddiyyət təşkil edən Avroparlamentdə Azərbaycanla bağlı keçirilən dinləmələr, qəbul edilən qərəzli qətnamələr, səsləndirilən əsassız ittihamlar, sadəcə, ikitərəfli münasibətlərdə gərginlik yaradan fakt kimi qiymətləndirilə bilməz. Mövcud vəziyyət daha dərin, sistemli böhranın, Avropanın siyasi təfəkküründəki deqradasiyanın və "qoca qitə"nin qlobal siyasətdəki obyektliyini itirməsinin bariz təzahürüdür.**

Brüssel Cənubi Qafqaz regionunda süni ayırıcı xətlər çəkməyə cəhd göstərərək, şəxsi zəifliyini, strateji korafəhmliyini və keçmiş müstəmləkəçilik təfəkküründən xilas ola bilməməsini nümayiş etdirir. Azərbaycanın artan nüfuzu, müstəqil siyasəti və regional liderliyi Avropa paytaxtlarında narahatlıq yaratmaqla yanaşı, həm də həmin dairələrin geosiyasi acizliyini ifşa edir. Aİ-nin qlobal rolunun zəiflədiyi və iştirakçı statusunu itirdiyi bütün böyük dövlətlər, o cümlədən ABŞ tərəfindən dərk edilir. Vaşinqtonun yeni qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyası Avropada vüsət almış sistemli böhranı, dəyərlər sisteminin aşınmasını və strateji hədəflərin itirilməsini detalları ilə ortaya qoyur.

Okeanın o tayında formalaşan rəy ondan ibarətdir ki, Aİ qlobal çağırışlara cavab vermək iqtidarında olmayan, bürokratik aparatın əsirinə çevrilmiş qurumdur. Ukrayna cəbhəsində baş verən hadisələr Avropanın taleyinin məhz orada həll olunduğunu göstərir. Bütün dünya, o cümlədən Qlobal Cənub ölkələri diqqətini Ukraynadakı müharibənin gedişatına, qlobal ərzaq və enerji təhlükəsizliyi məsələlərinə yönəltmişkən Avroparlamentin Azərbaycanla bağlı əhəmiyyətsiz və qərəzli müzakirələrə vaxt ayırması qurumun reallıq hissini itirdiyini sübut edir. Aİ-nin Cənubi Qafqaz regionuna yanaşması təəssüf ki, sülh, sabitlik və əməkdaşlıq prinsiplərinə söykənmir. Əksinə, Brüssel regionda yeni ayırıcı xətlər çəkməyə, dövlətləri qarşı-qarşıya qoymağa və geosiyasi maraqlarını təmin etmək üçün manipulyasiya alətlərindən istifadəyə çalışır. Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfər, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi regionda yeni reallıqlar yaradıb. Müstəqil və güclü Azərbaycan faktoru Avropadakı bəzi dairələrin yuxusunu qaçırır. Çünki onlar Cənubi Qafqazı özlərinin "arxa bağça"sı kimi görmək istəyir və burada söz sahibi olan suveren dövlətin varlığını həzm edə bilmirlər. Aİ-nin bölgədə sülh gündəliyinə zidd fəaliyyəti rəsmi Bakını seçdiyi yoldan döndərmək gücündə deyil. Azərbaycanın xarici və daxili siyasətinin təməlində heç bir xarici qüvvənin təsirinə məruz qalmayan, yalnız xalqın mənafeyinə xidmət edən milli maraqlar dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs ölkənin suverenliyinin, ərazi bütövlüyünün və təhlükəsizliyinin bərpa olunmasını ən ali məqsəd kimi qarşıya qoyur. Avropa Parlamentinin kağız parçası dəyərində olan qətnamələri Bakının qərarlarına zərrə qədər də təsir etmək imkanına malik deyil.

***

Aİ, xüsusilə Avropa Parlamenti uzun illərdir ki, özünü dünyaya demokratiya, insan hüquqları və şəffaflıq carçısı kimi təqdim etməyə çalışır. Amma son dövrlər ard-arda patlayan korrupsiya qalmaqalları qurumun mənəvi simasını darmadağın edib, onun ali dəyərlər pərdəsi arxasında gizlənən çirkin mahiyyətini üzə çıxarıb. Qatargate qalmaqalı, Avroparlamentinin vitse-prezidenti Eva Kailinin və digər deputatların rüşvət müqabilində lobbiçilik fəaliyyətinin üzə çıxması sistemin nə qədər çürük olduğunu bütün dünyaya nümayiş etdirdi. Roberta Metsola, Josef Borrell və digər yüksək rütbəli məmurların adlarının müxtəlif şübhəli maliyyə əməliyyatlarında, qeyri-şəffaf sövdələşmələrdə və ya etik davranış qaydalarının pozulmasında hallanması Aİ rəhbərliyinin mənəvi haqqını itirdiyini göstərir. Korrupsiyada batan, lobbi qruplarının əlində oyuncağa çevrilən və şəxsi maraqlarını ümumbəşəri dəyərlərdən üstün tutan məmurların Azərbaycana demokratiya dərsi keçməyə cəhd etməsi, yumşaq desək, ikrah hissi doğurur. Şəxsi problemləri ilə məşğul olmaq, daxili çürüməni dayandırmaq və itirilmiş etimadı bərpa etmək əvəzinə başqa ölkələrə qara yaxmaqla məşğul olmaq riyakarlıq nümunəsidir. Avropa ictimaiyyəti özü də həmin qurumlara inamını itirib və seçkilərdə ifrat sağçı, avroskeptik qüvvələrin yüksəlişi narazılığın nəticəsidir. Avroparlamentinin Azərbaycana qarşı sərgilədiyi düşmənçilik münasibətinin kökündə təkcə geosiyasi maraqlar yox, həm də dərin köklərə malik ideoloji nifrət – islamofobiya və turkofobiya dayanır. "Xristian klubu" təfəkküründən xilas ola, müsəlman və türk dövlətinin güclənməsini, müstəqil siyasət yürütməsini həzm edə bilməyən dairələr parlament tribunasından istifadə edərək şəxsi nifrətlərini sərgiləyirlər. Azərbaycanın dünyəvi, tolerant, multikultural modelə malik olması, İslam dünyasında və Türk Dövlətləri Təşkilatında aparıcı rol oynaması Qərbdəki bəzi neokolonialist qüvvələri narahat edir. Fransanın başçılıq etdiyi anti-Azərbaycan kampaniyası məhz bu ideoloji zəmində qurulmuşdur. Səlib yürüşü zehniyyəti ilə hərəkət edən, islamofobiyanı dövlət siyasəti səviyyəsinə qaldıran siyasətçilər Avroparlamenti çirkin məqsədləri üçün platformaya çeviriblər. Onların qəbul etdikləri sənədlərdə, səsləndirdikləri bəyanatlarda obyektivlikdən əsər-əlamət yoxdur.

***

Azərbaycan münaqişəni öz gücü ilə həll etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirdi, regionda yeni reallıqlar yaratdı. İttifaq bölgə ilə bağlı köhnə stereotiplərə əsaslanan və ermənipərəst yanaşmasından imtina etməyənədək regionda heç bir nüfuz qazana bilməyəcək. Vasitəçi olmaq iddiasında olan tərəf bitərəf, ədalətli və obyektiv mövqe tutmalıdır. Lakin Aİ-nin son dövrlərdəki fəaliyyəti, o cümlədən Ermənistana birtərəfli dəstək göstərilməsi, sərhəddə müşahidəçi adı altında kəşfiyyat missiyasının yerləşdirilməsi və Azərbaycan əleyhinə bəyanatlar verilməsi onun vasitəçilik missiyasını tamamilə itirməsinə səbəb olub. Belə bir şizofrenik siyasət İttifaqın vahid strategiyasının olmadığını və daxili ziddiyyətlər içində çabaladığını göstərir. Azərbaycan qazı Avropanın evlərini isitmək və sənayesini işlətmək üçün yaxşıdır, amma Azərbaycanın öz suverenliyini qoruması pisdir? Bu məntiq müstəmləkəçi təfəkkürün qalığıdır, çünki onlar resurslarımızı istəyir, lakin müstəqil iradəmizi qəbul etmək istəmirlər. Azərbaycan Afrika və ya Latın Amerikası ölkəsi deyil ki, resurslarını ucuz qiymətə satıb qarşılığında siyasi diktə qəbul etsin. Bizimlə enerji sahəsində əməkdaşlıq etmək istəyənlər siyasi sahədə də hörmət nümayiş etdirməlidirlər.

Proseslərin təhlili göstərir ki, Avropa İttifaqının aqressiv ritorikasının arxasında, əslində, qorxu dayanır. Müstəqil qərar verən, şəxsi resurslarına sahib çıxan və regional ittifaqlar quran güc mərkəzinin yaranması Avropanın ənənəvi "böl və idarə et" siyasətini iflasa uğradır. Avroparlamentdəki dinləmələr acizliyin hayqırtısından başqa bir şey deyil və Ukrayna bataqlığında strateji məğlubiyyətə uğrayan Avropa Cənubi Qafqazda əzələ nümayiş etdirməyə çalışsa da, bu cəhdlər gülünc görünür. Çünki burada qarşılarında forpost Ermənistan yox, qalib Azərbaycan dayanır. Tarix hər zaman qaliblərin tərəfində olub və bu gün o ünvan Azərbaycandır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Gürcüstan–Avropa İttifaqı: etimadsızlıq davam edir



**Son dövrlər Gürcüstanla Avropa İttifaqı (Aİ) arasında gərginlik müşahidə olunur. Bu, təkcə diplomatik ritorika səviyyəsində qalmır, artıq siyasi, iqtisadi və institusional müstəvilərdə də özünü göstərir. Mövcud vəziyyət bir tərəfdən Aİ-nin genişlənmə siyasətində yaşanan daxili ziddiyyətləri, digər tərəfdən isə Gürcüstanın dövlət suverenliyi və daxili siyasi seçimini qorumaq istiqamətində getdikcə daha prinsipial mövqe sərgilədiyini aydın şəkildə nümayiş etdirir. Görünən odur ki, Gürcüstan–Aİ münasibətləri qarşılıqlı gözləntilər dövründən fərqli, yeni mərhələyə qədəm qoyub.**

Şübhəsiz, bu gərginlik təsadüfi və epizodik xarakter daşımır. Əksinə, uzun müddət Gürcüstan–Aİ münasibətlərinin əsasını təşkil etmiş "normativ inteqrasiya" modeli artıq effektivliyini itirməyə başlayıb. Aİ-nin demokratik dəyərlərin ixracı və siyasi şərtlər üzərindən təsir mexanizmi Gürcüstan cəmiyyətində və siyasi elitada əvvəlki kimi konsensus yaratmır. Bu isə Brüsselin normativ güc kimi etibarlılığına ciddi suallar doğurur.

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin açıqlamaları rəsmi Tbilisinin mövqeyini açıq şəkildə ifadə edir. Onun fikrincə, Brüssel ilə yaranmış gərginlik birtərəfli problem deyil, Aİ-nin Gürcüstan demokratiyasına yanaşmasında yol verdiyi sistemli səhvlərin nəticəsidir. Baş nazir vurğulayıb ki, əsas problem Avropa bürokratiyasının gürcü xalqının demokratik seçimini tanımaması və seçilmiş hakimiyyətə qarşı qərəzli və hörmətsiz münasibət sərgiləməsidir. Bu yanaşma Aİ-nin tez-tez bəyan etdiyi "demokratik legitimliyə hörmət" prinsipinə ziddir.

"Gürcüstan daxili siyasi seçimini kənar mərkəzlərin diktəsi ilə dəyişmək niyyətində deyil" fikri isə rəsmi Tbilisinin Aİ ilə münasibətləri bərabərhüquqlu tərəfdaşlıq əsasında qurmaq istədiyini göstərir. Bu mövqe Gürcüstanın xarici siyasətində suverenlik vurğusunun gücləndiyini və qərarvermə prosesində milli maraqların ön plana çəkildiyini təsdiqləyir. Postsovet məkanında bu yanaşma Qərblə əməkdaşlığı davam etdirməklə yanaşı, siyasi manevr imkanlarını qorumaq cəhdinin tərkib hissəsi sayılır.

Bu kontekstdə viza liberallaşdırılması məsələsi xüsusi əhəmiyyət kəsb edir. İrakli Kobaxidzenin sözlərinə görə, Avropa bürokratiyası bu alətdən uzun müddət məqsədsiz və siyasi təzyiq mexanizmi kimi istifadə edib, nəticədə onun təsir gücü xeyli zəifləyib. Əvvəllər Gürcüstan cəmiyyətində güclü motivasiya yaradan viza rejimi məsələsi artıq siyasi şantaj vasitəsi kimi əvvəlki effekti vermir. Mümkün qadağanın Gürcüstanda ciddi siyasi nəticələr doğurmayacağına dair mövqenin səsləndirilməsi Brüsselin yumşaq güc strategiyasında aşınmanın açıq göstəricisidir: "Ümid edirəm ki, heç olmasa bunu anlayırlar ki, şantajın bu son aləti ilə də ölkəmizdə süni şəkildə inqilab yarada bilməyəcəklər. Çünki cəmiyyət sağlam düşünür və Avropa bürokratiyasının ədalətsiz şəkildə qəbul etdiyi bütün qərarlara praqmatik yanaşır. Bütün bunları nəzərə alaraq, düşünürəm ki, onlar qeyri-praqmatik qərar qəbul etməyəcəklər. Nəzəri cəhətdən belə bir qərar qəbul etsələr belə, yenə də inqilab yarada bilməyəcəklər və nəticə etibarilə gürcü xalqına qarşı şantaj üçün əlində qalan son aləti də itirmiş olacaqlar", – İrakli Kobaxidze bildirib.

Hökumət başçısı Aİ-nin genişlənmə məsələləri üzrə komissarı Marta Kosun açıqlamasını da tənqid edib. Yada salaq ki, o, Gürcüstanda digər ölkələrlə müqayisədə "misilsiz demokratik geriləmə" yaşandığını iddia edərək, hökumətin "fərqli davranmalı" olduğunu vurğulayıb. Eyni zamanda, Aİ-nin vətəndaş cəmiyyətinə və müstəqil mediaya dəstəyi davam etdirəcəyini bəyan edib: "Biz, əlbəttə ki, vətəndaş cəmiyyətinə və müstəqil mediaya dəstəyi davam etdirəcəyik, çünki bu, təkcə insanlara ümid vermək üçün deyil, həm də hökumətə xalqın iradəsini nəzərə almadıqda haqlı olmadıqlarını demək üçün çox vacibdir. Həqiqətən, doğrudan da ümid edirəm ki, Gürcüstan hakimiyyəti, hökumət, xalqınızın dəstəyi ilə Avropa yoluna qayıdacaq".

Bu arada diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, bütün siyasi gərginliklər maliyyə müstəvisində də konkret nəticələr doğurub. Aİ-nin Gürcüstana ayırmalı olduğu 120 milyon avro həcmində dövlət səviyyəli maliyyə yardımının əvvəlcə 2024-cü il üçün, daha sonra isə 2025-ci ildə də dondurulması münasibətlərdəki böhranın açıq praktik təzahürlərindəndir. Avropa Komissiyası 2026-cı ildə də maliyyələşmənin bərpasının çətin olacağını bildirir. Brüssel bu qərarları demokratik meyarlarla əsaslandırsa da, Gürcüstan hakimiyyəti onları siyasi təzyiq və şantaj aləti kimi dəyərləndirir, maliyyə yardımlarının siyasi şərtlərlə bağlanmasının tərəfdaşlıq ruhuna zidd olduğunu vurğulayır.

**(ardı 4-cü səhifədə)**

# Eçmiədzində dini qiyam

## *Yepiskoplar II Qareginin "qara gün"ünə start verdilər*

**Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin patriarxı II Qareginin xüsusilə son dövrlərdə apardığı revanşist, dağıdıcı, kilsənin kanonik qaydaları ilə bir araya sığmayan idarəçiliyinə qarşı çıxan, konstruktiv mövqe nümayiş etdirən 10 yepiskop dekabrın 17-də birgə bəyanat yayıb. Yepiskoplar "Haykakan Jamanak" qəzetində dərc olunan bəyanatda inanclı insanları dekabrın 18-də, saat 17:00-da Eçmiədzin ana taxtında II Qareginin istefasını tələb etməyə çağırıblar.**



Bəyanatda kilsə ətrafında cərəyan edən hadisələrin kilsəyə, dövlətə və inanclı xalqa bərpası mümkün olmayan zərər vura biləcəyi bildirilib. Din xadimləri vurğulayıblar ki, bu narahatlıqlarını həm bütün ermənilərin katolikosu ilə şəxsi görüşlərdə, həm də ictimai müstəvidə dəfələrlə ifadə ediblər: "Bu məsələlərə həsr olunmuş görüşlərə, faktiki olaraq, bütün ermənilərin katolikosu rəhbərlik etdi və problemləri həll edə bilmədi. Bu da II Qareginin təkbaşına, özbaşına və qeyri-kafi hakimiyyətini daha da nümayiş etdirdi. Bizlərin – ruhani və inanclı şəxslərin son illər səslərimizin kilsədə nəinki eşidilmədiyini, həm də kilsənin missiyasının yerinə yetirilməsinə əhəmiyyətli, həlledici təsir göstərə bilmədiyini etiraf etməyimizin vaxtı yetişib. İndi hamımızın kilsəmizin üzləşdiyi problemlərlə bağlı aydın və qətiyyətli mövqe bildirməsinin vaxtıdır. Kilsənin hazırkı acınacaqlı vəziyyəti milli və dövlət təhlükəsizlik maraqlarımıza da təhlükə yaradır".

Sənəddə daha sonra deyilir: "Ermənistandakı və diaspordakı inanclı şəxslərə müraciət edərək vahid iradə nümayiş etdirməyə, bizə qoşulmağa və kilsənin nüfuzunun və reputasiyasının qəsdən məhv edilməsinə səbəb olan, erməni kilsəsini xarici maraqlar üçün istismar etmək cəhdlərini və səylərini tamamilə rədd edən bu dağıdıcı, antikanonik prosesə qarşı ədalətli etiraz səslərini ucaltmağa çağırırıq. Dekabrın 18-də saat 17:00-da bütün ermənilərin ruhani mərkəzi olan Eçmiədzin ana taxtında bütün ermənilərin katolikosu II Qareginin istefa verməsi üçün haqlı bir tələblə bizə qoşulun. Çünki bu, artıq təcili zərurətə çevrilib".

Eçmiədzin ana taxtı dünən səhər bəyanat yayaraq 10 yepiskopun son açıqlaması ilə bağlı dərin narahatlığını bildirib: "Ana taxt təhlükəli toplantının təşəbbüsünü öz üzərinə götürən müqəddəs ataları sayıq olmağa çağırır. Onlar xalqı fəlakətli emosiyalardan qorumaq üçün məsuliyyət nümayiş etdirməli və yalnız kilsənin kanonik prosedurlarına uyğun hərəkət etməlidirlər. Xalqın əziz hisslərindən sui-istifadə etməyə və məlum yalançı gündəmlə kilsənin dindar övladları arasında nifaq salmağa, erməni mənəvi mərkəzinin sülhünü və dua mühitini pozmağa ehtiyac yoxdur. Ana taxt dindarları sakit qalmağa və bu cür "təxribatçı ifadələrin" (?) təsirinə düşməməyə çağırır".

*

Məsələyə Ermənistanın Baş naziri Nikol Paşinyan da münasibət bildirib. O, jurnalistlərlə söhbətində Eçmiədzində hər hansı bir toqquşma ehtimalını istisna etdiyini bildirib. Paşinyan hüquq-mühafizə orqanları əməkdaşlarının "müəyyən edilmiş prosedura uyğun olaraq təxribatçı hərəkətlərdə iştirak edən şəxsləri zərərsizləşdirmək" üçün bütün vasitələrə və imkanlara malik olduğuna əminliyini ifadə edib. Onun sözlərinə görə, Erməni Apostol Kilsəsi və ana taxt Ktriç Nersisyandan (katolikos II Qareginin dünyəvi adı–müəll.) və məzhəbçi qrupun digər üzvlərindən qorunmalıdır. Paşinyan qeyd edib ki, K.Nersisyan və onun yaxın ətrafı Erməni Apostol Kilsəsinin inancını ələ keçirən və korlayan təriqətçilərdir.

Nikol katolikosun istefa tələbi ilə bağlı Eçmiədzində keçiriləcək toplantıda iştirak etməyə ehtiyac görmədiyini vurğulayıb. Paşinyan 10 yepiskopun hərəkətlərinə rəhbərlik etmədiyini, lakin onları alqışladığını və dəstəklədiyini əlavə edib. O, Eçmiədzin taxt-tacının yeposkoplara, yepiskopların isə Eçmiədzin taxt-tacına məxsus olduqlarını bildirib: "Buna görə də onların toplantı çağırışı qanunidir. Mən 10 yepiskopla yalnız kilsənin bərpası gündəliyi ilə bağlıyam və bizdə belə bir fikir birliyi var ki, bu gündəm Ktriç Nersisyanın ana taxtdan uzaqlaşdırılması olmadan həyata keçirilə bilməz".

Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan isə katolikosun xristian qaydalarına uyğun gedəcəyini bildirib. O, jurnalistlərlə söhbətində deyib: "Katolikosun (Ktriç Nersisyan nəzərdə tutulur – red.) ilin sonuna qədər vəzifəsindən uzaqlaşdırılacağını kim və harada elan etdi? Mən düşünürəm ki, bu vəzifə artıq boşdur". Rubinyandan katolikosun istefa verəcəcəyini mümkün hesab edib-etmədiyi soruşulduqda, o, müsbət cavab verib: "Bəli, düşünürəm ki, mümkündür. O, katolikos olaraq qala bilməz".

*

Nəzərdə tutulan vaxtda Eçmiədzinin həyətinə yüzlərlə insan toplaşıb. Onların bir qismi katolikosun istefasını tələb edənlər, digər qismi isə onu dəstəkləyənlər olub. Demək olar ki, bütün müxalifət qüvvələrinin nümayəndələri əvvəldən katolikosu dəstəkləmək üçün bu mitinqdə iştirak edəcəklərini açıqlamışdılar. Onların arasında həbsdə olan rusiyalı oliqarx Samvel Karapetyanın təşəbbüsü ilə yaradılmış "Öz yolumuzla" hərəkatının üzvləri də olub.

Eçmiədzinə böyük polis qüvvəsi də yerləşdirilib. "Müqəddəs atalar heç bir təhlükə yaratmır; biz yolu zərurətdən iki hissəyə bölmüşük". Bunu daxili işlər nazirinin müavini və polis rəisi Aram Qazaryan patriarxlığın həyətində jurnalistlərlə söhbətində bildirib.

"Armlur.am" saytı ölkə daxilində ciddi rezonans doğuran yeni iddia ilə çıxış edib. Sayt yazır ki, N.Paşinyan kilsədə yenilənmə adı altında, faktiki olaraq, dövlət nəzarətini gücləndirməyə yönəlmiş siyasi ssenari həyata keçirməyə hazırlaşır: "Məsələ Paşinyanın ictimaiyyətə təqdim etdiyi və "yol xəritəsi" adlandırılan konsepsiya ilə bağlıdır. Rəsmi təqdimatda bu sənəd kilsənin daxili islahatları kimi qələmə verilsə də, siyasi və kilsə çevrələrində onu hakimiyyətin kilsəyə müdaxiləsinin açıq planı kimi qiymətləndirənlər az deyil. Ssenari mərhələli şəkildə qurulub. İlk addım yeni katolikosun əvəzedicisinin seçilməsidir. Ardınca kilsə üçün yeni qaydalar toplusunun qəbul edilməsi nəzərdə tutulur. Bu qaydalara əxlaqi uyğunluq, maliyyə şəffaflığı, siyasətdən uzaqlıq və vergi öhdəliklərinə uyğunluq kimi tələblər daxildir. Son mərhələdə isə bütün ermənilərin katolikosunun yeni seçkilərlə müəyyənləşdirilməsi planlaşdırılır. Formal baxımdan bu proses kilsənin özünü yeniləməsi kimi təqdim olunsa da, Paşinyan hökumətinin məsləhətçi dəstəyi faktiki olaraq dövlətin kilsənin daxili idarəçiliyinə birbaşa cəlb olunması deməkdir".



Məqalədə qeyd olunur ki, siyasi dairələrdə müzakirə edilən əsas ssenariyə görə, hazırkı katolikos II Qaregin vəzifəsindən kənarlaşdırılarsa, mövcud prosedura uyğun olaraq onun əvəzedicisi postuna Ararat yeparxiyasının rəhbəri Navasard Kçoyan gətirilə bilər. Diqqətçəkən məqam ondan ibarətdir ki, Kçoyanla bağlı uzun müddət gündəmdə olan qanunsuz əmlak məsələləri üzrə məhkəmə çəkişmələri dayandırılıb, prokurorluq isə bu qərarlarla bağlı ictimaiyyətə hər hansı aydın izahat verməkdən yayınır.

"Joxovurd" qəzetinin yazdığına görə, hakimiyyət üçün daha arzuolunan namizəd ABŞ-ın qərb ştatlarını əhatə edən Qərb Sahil yeparxiyasının rəhbəri Ovnan Terteryandır. Onun yeni qaydalar əsasında kotolikos seçilməsi planlaşdırılır. Həmin mərhələyə qədər isə Kçoyanı katolikosluğun müvəqqəti nümayəndəsi təyin olunur.

Beləliklə, Paşinyanın kilsə ilə bağlı təşəbbüsü təkcə dini islahat müzakirəsi deyil, eyni zamanda, Ermənistan daxilində hakimiyyət–kilsə münasibətlərinin köklü şəkildə yenidən qurulması cəhdi kimi qiymətləndirilir. Bu prosesin ölkədə yeni siyasi və ictimai gərginlik yaradacağı istisna edilmir.

***Səxavət HƏMİD***
***XQ***

# Gürcüstan–Avropa İttifaqı: etimadsızlıq davam edir



**(əvvəli 3-cü səhifədə)**

Gürcüstan hazırda Avropa qitəsində və regionda ən yüksək iqtisadi artım tempinə malik ölkələrdən biridir. Ölkə iqtisadiyyatının həcminin ilk dəfə 100 milyard larini keçməsi və iri investisiya layihələrinin gündəmdə olması rəsmi Tbilisinin iqtisadi özünəinamını nümayiş etdirir. Hökumət hesab edir ki, məhz bu iqtisadi uğurlar müəyyən daxili və xarici dairələri narahat edir. O ki qaldı Aİ-nin yardımlarına, bu dəstək, əsasən, QHT-lərə yönəldilirdi: "Gürcüstanda qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin fəaliyyəti süni şəkildə qurulmuş bir sistem təşkil edir və bu sistem altında xarici dövlətlər tərəfindən maliyyələşdirilən strukturlar, faktiki olaraq, fəaliyyət göstərir və Qərbin maraqlarına xidmət edirlər".

Bunlar onu deməyə əsas verir ki, Gürcüstan hakimiyyəti xarici təzyiqlər fonunda siyasi kursunu dəyişmək niyyətində deyil və daxili konsolidasiyanı prioritet sayır. Ümumilikdə, mövcud gərginlik Gürcüstan–Aİ münasibətlərinin ideoloji yaxınlıq mərhələsindən daha çox maraqların uzlaşdırılması mərhələsinə keçdiyini göstərir. Əgər Aİ Gürcüstanı geosiyasi və ya daxili siyasi seçim qarşısında qoymaqda israr edərsə, bu, münasibətlərin daha da soyumasına deyil, eyni zamanda, Aİ-nin Cənubi Qafqazdakı nüfuzunun zəifləməsinə gətirib çıxaracaq. Digər tərəfdən, Gürcüstan üçün əsas çağırış suverenlik ritorikasını institusional sabitlik və demokratik legitimliklə balanslaşdırmaq olacaq.

Bununla bağlı **Gürcüstan parlamentinin sabiq deputatı İsak Novruzov** XQ-yə bildirdi ki, Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin açıqlamaları rəsmi Tbilisinin mövqeyini aydın şəkildə ifadə edir: "Gürcüstan–Aİ münasibətlərində formalaşmış dərin etimadsızlıq artıq sistemli xarakter alıb. Rəsmi Tbilisinin mövqeyi ondan ibarətdir ki, Avropa inteqrasiyası prosesində əsas şərt yalnız normativ tələblər deyil, həm də qarşılıqlı hörmət və suverenliyə yanaşmadır. Gürcüstan rəhbərliyi Aİ-nin istifadə etdiyi siyasi və maliyyə alətlərini təzyiq mexanizmi kimi qiymətləndirərək, bu vasitələrin ölkə daxilində gözlənilən nəticə vermədiyini açıq şəkildə bildirir.



Aİ-nin Gürcüstanla bağlı ritorikası daha çox dəyərlər və demokratik standartlar üzərində qurulub. Brüssel hesab edir ki, hökumətin atdığı addımlar Avropa yolundan uzaqlaşma deməkdir və buna reaksiya vermək zəruridir. Lakin bu yanaşma Gürcüstan cəmiyyətinin bir hissəsi tərəfindən daxili işlərə müdaxilə kimi qəbul olunur və Aİ-yə inamın azalmasına səbəb olur".

Beləliklə, hazırkı vəziyyət tərəflər arasında münasibətlərin yenidən formatlanmasını zəruri edən dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Bu prosesin gələcək istiqaməti Aİ-nin genişlənmə siyasətini nə dərəcədə çevik şəkildə yenidən nəzərdən keçirəcəyindən və Gürcüstanın daxili siyasi konsolidasiyanı hansı səviyyədə təmin edə biləcəyindən asılı olacaq.

Əgər dialoq mexanizmləri bərpa olunmazsa, gərginlik uzunmüddətli siyasi ayrılığa çevrilə bilər. Gürcüstan üçün əsas çağırış Avropa kursunu qoruyaraq suveren qərarvermə imkanlarını itirməməkdirsə, Avropa İttifaqı üçün əsas məsələ regionda təsirini təzyiqsiz və etibarlı tərəfdaşlıq modeli ilə saxlamaqdır.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Ermənistanda əhali azalır, münaqişələr isə artır

**(əvvəli 1-ci səhifədə)**

D.Ananyan qeyd edib ki, bu müddətdə təbii artımda kəskin pisləşmə qeydə alınıb: "Təbii artım azalıb: 7022 → 5688, azalma 19 faiz. Bu, normal bir dalğalanma deyil. Bu, ölkənin bioloji çoxalmasında azalmadır və elan edilmiş iqtisadi artım fonunda baş verir".

Keçmiş dövlət məmuru bildirib ki, nikah nisbətində də azalma müşahidə olunur: "2025-ci ilin yanvar-oktyabr aylarında 11574 nikah qeydə alınıb, 2024-cü ilin eyni dövründə isə bu rəqəm 13175 olub. Nikahların təxminən 12,2 faiz azalmasının əsas səbəbi insanların gələcəyə daha az inamlı olması, ailə qurulmasını gecikdirməsi və övlad sahibi olmaq istəklərini getdikcə daha çox təxirə salmasıdır".

Ekspert boşanma nisbətində isə artım qeydə alındığını vurğulayıb: "2024-cü ilin yanvar-oktyabr aylarında boşanma səviyyəsi hər 1000 nikahda 294 olduğu halda, 2025-ci ilin eyni 10 ayında hər 1000 nikahda 348-ə çatıb. Bu, sadəcə bir rəqəm deyil, ailə sabitliyinin pozulmasının göstəricisidir. Boşanmaların sayı artdıqda və doğum halları azaldıqda, ölkə uzunmüddətli demoqrafik risk zonasına daxil olur".

Bundan əlavə, D.Ananyan 0-1 və 0-4 yaşlı uşaqlar arasında ölüm hallarının artdığını bildirib: "2025-ci il üçün ilkin məlumatlara görə, 0-1 yaşlı uşaqlar arasında ölüm halları 11,5 faiz, 0-4 yaşlı uşaqlar arasında isə 13 faiz artıb. Bu rəqəmlər səhiyyə sistemimizin uşaqlar üçün riskləri idarə etmək tələbinə cavab vermədiyini göstərir. Digər tərəfdən, bu, artıq sosial problem deyil; milli təhlükəsizlik məsələsidir. Təriflənən iqtisadi artım fonunda doğum nisbəti aşağı düşdükdə, ailələrin sayı azaldıqda, boşanmaların sayı artdıqda və təbii artım azaldıqda, bu, artıq statistika deyil, milli dayanıqlılığın itirilməsinin real prosesidir. İqtisadi artım həyata fayda gətirmədikdə, dəyərsizdir. Əgər bir ölkə əhalisini çoxaltmırsa, əgər ailə cəmiyyətin təməli deyil, sosial yükün daşıyıcısı olursa, o zaman istənilən iqtisadi göstərici mənasısını itirir. Özümüzə verməli olduğumuz əsas sual budur: iqtisadi artım yeni həyat, yeni ailələr, yeni nəsillər gətirmədikcə onun dəyəri nədir?"

*

Qeyd etmək lazımdır ki, Ermənistanda demoqrafik göstəricilərlə bağlı səsləndirilən rəqəmlər uzun illərdir müxtəlif səbəblərdən ya ört-basdır edilir, ya da müvəqqəti amillərlə izah olunmağa çalışılırdı. D.Ananyanın açıqlamaları isə bu, necə deyərlər, hazır izahların artıq işləmədiyini göstərir. Vurğulamaq vacibdir ki, Ananyan bir vaxtlar Nikol Paşinyan komandasının, indi isə müxalif siyasi təşəbbüsün üzvü olsa da, onun təqdim etdiyi statistika emosional yox, mənbələrə əsaslanan reallığı əks etdirir.

Əhalinin sayında qeydə alınan cüzi artımın təbii çoxalma hesabına deyil, Qarabağdan köç etmiş ermənilərin qeydiyyatı nəticəsində formalaşması demoqrafik mənzərənin dərin qatlarda nə qədər problemli olduğunu üzə çıxarır. Doğum sayının azalması, təbii artımın sürətlə zəifləməsi, nikahların azalması və boşanmaların artması artıq ayrı-ayrı sosial hadisələr deyil, bir-birini tamamlayan sistem böhranıdır.

Bu prosesləri yalnız mövcud hökumətin fəaliyyəti ilə izah etmək düzgün olmazdı. Ermənistanın bugünkü demoqrafik böhranının kökləri daha dərində, onilliklər boyu yürüdülmüş yanlış siyasi kursda gizlənir. Keçmiş rejimlərin Qarabağ məsələsini avantürist xətt üzrə alovlandırması on minlərlə insanın həyatına son qoymaqla yanaşı, ölkənin insan kapitalını da tükəndirdi. Müharibələr, səfərbərliklər, miqrasiya dalğaları və sosial travmalar demoqrafik tarazlığı bərpaolunmaz şəkildə sarsıtdı.



Ermənistanda əhalinin sayının azalmasının digər mühüm amili ölkənin regional blokadada qalmasıdır. Bu gün ölkə, faktiki olaraq, iki tərəfdən qonşuları ilə sərhədləri bağlı vəziyyətdə yaşayır. Nəqliyyat kommunikasiyalarının məhdudluğu, böyük bazarlara çıxışın olmaması iqtisadi inkişafı ləngidir, sosial rifahı zəiflədir və ən əsası, gənclərin ölkəyə bağlılığını azaldır. Gələcəyə inam olmadıqda ailə qurmaq, övlad sahibi olmaq təbii olaraq təxirə salınır.

Paşinyan hökumətinin bu problemlərin hamısını qısa müddətdə həll etməsi real deyil, lakin məsuliyyət yalnız indiki hakimiyyətin üzərinə də atıla bilməz. Mövcud vəziyyət daha çox keçmiş siyasi elitanın yaratdığı struktur fəsadların nəticəsidir. İqtisadi artım rəqəmlərlə ölçülə bilər, amma əgər bu artım yeni ailələr, yeni doğulan uşaqlar və sabaha inam yaratmırsa, onun cəmiyyət üçün dəyəri sual altına düşür. Ananyanın əsas mesajı da məhz budur: statistika sadəcə rəqəmlər toplusu deyil, cəmiyyətin gələcəyi haqqında xəbərdarlıqdır. Ermənistan üçün bu xəbərdarlıq artıq gecikmiş siqnaldır və demoqrafik enişi dayandırmaq təkcə iqtisadi deyil, həm də siyasi və tarixi səhvlərlə üzləşməyi tələb edir.

*

Ölkənin yüksək vəzifəli sabiq məmurunun paylaşımı Ermənistan mediasında müzakirələrə yol açıb. "ArmenianReport" saytında yerləşdirilmiş "Ermənistanda əhali artımı: niyə bu qədər vacibdir?" sərlövhəli maarifləndirici məqalədə müəllif Samvel Ohanesyan yazır: "Bu gün mən bizim "obıvatel"lərimizi tənqid etmək istərdim. Bəli, adi, orta statistik ermənini. Cəsarətlə deyirəm ki, xalqının taleyinə qarşı məsuliyyətsiz münasibətinə görə. Tənbəlliyinə görə. Daha dəqiq desək, uşaqsızlığına və aşağı doğum qabiliyyətinə, insanlıq və vətəndaşlıq borcu arasındakı sərhədi aşan məsuliyyət yükündən yayındığına görə".

Məqalədə qeyd edilib ki, D.Ananyanın həyəcan təbili çalmasına ciddi yanaşmaq lazımdır: "Burada nə deyə bilərik? Doğum nisbətlərinin azalması bütün mədəni xalqlar, xüsusən də yerli avropalılar və xristian xalqları arasında qeydə alınır. Ermənilər bu baxımdan unikal xalq deyillər. Mürəkkəb texnoloji inkişaf yolunu seçən xalqlar arasında, məsələn, yaponlar və cənubi koreyalıların doğum nisbəti olduqca aşağıdır. Bizim standartlarımıza görə yüksək maaşlarına, rahat həyatlarına baxmayaraq, həmin millətlər yox olmaq üzrədir. Türklər də artıq həyəcan təbili çalırlar. Mən rusiyalı müstəqil ekspert və demoqraf Aleksey Rakşadan eşitmişəm ki, Türkiyədə doğum nisbəti Rusiyadakı ilə, demək olar ki, eynidir. Təəccübləndim, amma sonra Avropanın demoqrafik xəritəsini gördüm, bu xəritədə Türkiyə vətəndaşlarının iki-üç nəsil əvvəlki qədər məhsuldar olmadığı göstərilir. Türkiyə Statistika İnstitutunun (TÜİK) sədr müavini Furkan Metin hətta öz millətini 45 yaşlı kişi ilə müqayisə etdi, halbuki əvvəllər türklər 20 yaşlılarla müqayisə edilə bilərdi".

Yazıda azərbaycanlılarının sayının artımına həsəd aparılıb: "Amma Şərq qonşularımıza baxsanız, onlar olduqca yaxşı yaşayırlar. 2025-ci ilin yanvar-oktyabr ayları arasında Azərbaycan əhalisi 32 109 nəfər və ya 0,3 faiz artıb. Hazırda 10,26 milyon nəfərdir".

Əlbəttə, müəllifin bu yanaşması erməni cəmiyyətində demoqrafik böhranın səbəblərini yanlış ünvana yönəltmək cəhdidir. Əhalinin azalmasını "obıvatel"in guya məsuliyyətsizliyi ilə izah etmək sosial-iqtisadi və siyasi amilləri kölgədə qoyur. Halbuki onilliklər boyu aparılmış münaqişə siyasəti, itkilər, miqrasiya və blokada şəraiti insanların ailə qurmaq və övlad sahibi olmaq imkanlarını məhdudlaşdırıb. Azərbaycan nümunəsi göstərir ki, sabitlik, inkişaf və gələcəyə inam olduqda əhali artımı da mümkün olur. Buna görə də demoqrafik geriləmənin məsuliyyətini sadə vətəndaşın üzərinə atmaq yox, problemin köklərini yanlış dövlət siyasətlərində axtarmaq daha obyektiv yanaşmadır.

***S.NAZİMOĞLU***
***XQ***

*Köşə*

# Humanizm mənəvi anlayışdan idarəçilik fəlsəfəsinə çevrilib

**Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiyanın elan edilməsi təşəbbüsü Azərbaycan dövlətçiliyinin humanizm, mərhəmət və sosial ədalət prinsiplərinə sadiqliyinin növbəti mühüm təzahürüdür. Bu addım təkcə hüquqi akt olmaqla kifayətlənmir, eyni zamanda, dövlətin insan amilinə verdiyi ali dəyəri, vətəndaş rifahını və ictimai sabitliyi prioritet kimi müəyyənləşdirən siyasi iradəni aydın şəkildə ortaya qoyur. Amnistiya təşəbbüsü müasir Azərbaycan dövlətinin gücünü həm də humanist və məsuliyyətli yanaşmadan aldığının göstəricisidir.**



Yusif BAĞIRZADƏ
*yusif_@hotmail.com*

Məlumdur ki, müstəqil Azərbaycan dövlətinin ideoloji və hüquqi əsasları ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində formalaşıb. 1995-ci ildə qəbul edilən ilk Konstitusiya ölkənin suverenliyini, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu təmin edən möhkəm təməl rolunu oynayıb. Bu təməl üzərində inşa edilən dövlətçilik xəttinin ardıcıl və uğurlu davamı bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə təmin olunur. "Konstitusiya və Suverenlik İli" çərçivəsində amnistiya təşəbbüsünün irəli sürülməsi də məhz bu siyasi və hüquqi varisliyin məntiqi davamıdır.

Amnistiya aktı dövlət siyasətində humanizm və sosial ədalətin mərkəzi yer tutduğunu nümayiş etdirir. Prezident İlham Əliyevin fəaliyyətində insan amili əsas ideoloji dayaqlardan biri kimi çıxış edir. Bu yanaşma hüquq sistemində cəzalandırma siyasətinin yalnız repressiv deyil, həm də tərbiyəvi və islahedici xarakter daşımasını ön plana çıxarır. Dövlət açıq mesaj verir ki, məqsəd cəmiyyət üzvlərini cəzalandırmaq əvəzinə onları yenidən ictimai həyata inteqrasiya etmək, səhvlərdən nəticə çıxarmağa imkan yaratmaqdır. Bu isə sosial harmoniyanın qorunması və vətəndaşların dövlətə olan etimadının möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Yeni amnistiya aktı sosial baxımdan həssas kateqoriyalara aid şəxsləri əhatə etməsi ilə də seçilir. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin yaxın qohumları, Ermənistanın hərbi təxribatları nəticəsində sağlamlığını itirmiş mülki şəxslər, qadınlar, 60 yaşına çatmış şəxslər və yetkinlik yaşına çatmamış dövrdə cinayət törətmiş şəxslər bu humanist yanaşmadan faydalanacaqlar. Eyni zamanda, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin cəzadan azad edilməsi və ya cəzalarının yüngülləşdirilməsi nəzərdə tutulur. Bu yanaşma ədalət və tərbiyəvi məqsədləri uzlaşdıran balanslı dövlət siyasətini əks etdirir.

İlkin hesablamalara görə, amnistiya 20 mindən çox şəxsi əhatə edəcək ki, bu da müstəqil Azərbaycan tarixində ən genişmiqyaslı humanitar-hüquqi təşəbbüslərdən biri olacaq. Onlardan 5 mindən çoxunun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox şəxsin alternativ cəzalarla azad olunacağı, mindən artıq şəxsin isə cinayət məsuliyyətindən tam azad ediləcəyi gözlənilir. Qeyd olunan statistika dövlətin humanizm prinsiplərinə formal deyil, real və praktiki səviyyədə sadiqliyini nümayiş etdirir.

Amnistiya aktının "Konstitusiya və Suverenlik İli" çərçivəsində irəli sürülməsi heç də təsadüfi deyil. Bu fakt hüquqi və siyasi simvolizm baxımından xüsusi əhəmiyyət daşıyır. Çünki Konstitusiya dövlətlə vətəndaş arasında qarşılıqlı məsuliyyət müqaviləsidir. Amnistiya isə bu müqavilənin humanist tərəfinin işlək olduğunu nümayiş etdirir. Dövlət öz vətəndaşına yalnız tələb irəli sürmür, eyni zamanda ona ikinci şans verir. Bu yanaşma Azərbaycan cəmiyyətində hüquqa münasibətin sağlamlaşmasına təsir göstərir. Hüquq etimad üzərində qurulduqda daha dayanıqlı olur. Amnistiya aktı hüququn cəzalandırıcı mexanizmlə yanaşı, sosial nizamı qoruyan sistem kimi qəbul edilməsinə şərait yaradır. Bu isə uzunmüddətli perspektivdə hüquqi mədəniyyətin yüksəlməsinə və cinayətkarlığın azalmasına xidmət edən amillərdən biridir.

Eyni zamanda, amnistiya təşəbbüsü sosial inteqrasiya baxımından da əhəmiyyətlidir. Cəmiyyətdən kənarlaşdırılmış fərdlərin yenidən sosial həyata qaytarılması ümumi ictimai mühitin sağlamlaşdırılması deməkdir. Dövlət bu addımla göstərir ki, sosial marginallaşma probleminin həlli sosial reabilitasiya və məsuliyyət paylaşımı ilə mümkündür. Beynəlxalq kontekstdə də bu təşəbbüs Azərbaycanın hüquqi və siyasi imicinə müsbət təsir göstərir. Müasir beynəlxalq münasibətlər sistemində humanizm və hüquqi balans dövlətlərin reputasiya kapitalının mühüm hissəsinə çevrilib. Azərbaycan bu cür təşəbbüslərlə təsdiqləyir ki, həm regional güc, həm də məsuliyyətli və hüquqa əsaslanan idarəçilik modeli təqdim edən dövlətdir. Bu isə ölkənin beynəlxalq hüquq müstəvisində mövqelərinin möhkəmlənməsinə də töhfə verir. Amnistiya təşəbbüsü eyni zamanda dövlət institutlarının özünəinamının göstəricisidir. Güclü dövlət cəmiyyətində risklərdən qorxmur, əksinə, onları idarə edə bildiyini nümayiş etdirir. Yəni Azərbaycan dövləti ictimai sabitliyini təhlükə altında görmür, əksinə, humanist siyasətin bu sabitliyi daha da möhkəmləndirdiyinə inanır. Bu inam institusional gücün əsas şərtlərindən biridir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin irəli sürdüyü amnistiya təşəbbüsü dərin siyasi və hüquqi məzmun daşıyan strateji qərardır. Bu qərar Azərbaycan dövlətçiliyinin mahiyyətində duran humanizm, sosial ədalət və hüquqi məsuliyyət prinsiplərinin real idarəçilik praktikasına çevrilməsinin təzahürüdür. Güclü dövlət anlayışı bu kontekstdə vətəndaşa verilən dəyər və onun taleyinə göstərilən diqqətlə ölçülür.

# BƏƏ ölkəmizin strateji tərəfdaşıdır



**Beynəlxalq münasibətlərdə tərəfdaşlıqların real çəkisi onların nə qədər qədim olmasında deyil, hansı mərhələlərdən keçərək formalaşmasında və hansı geosiyasi məntiq üzərində qurulmasındadır. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlər məhz bu baxımdan diqqətəlayiq nümunədir. İki dövlət arasındakı əlaqələr klassik "ikili diplomatik münasibət" çərçivəsindən çıxaraq, zamanla qarşılıqlı etimad, siyasi uyğunluq və strateji maraqların kəsişdiyi çoxşaxəli əməkdaşlıq modelinə çevrilib.**

1992-ci ildə diplomatik münasibətlərin qurulması Azərbaycan üçün yeni müstəqil dövlət olaraq beynəlxalq tanınma prosesinin bir hissəsi idi. Həmin mərhələdə Bakı üçün əsas prioritetlər siyasi legitimliyin möhkəmləndirilməsi, regional təhlükəsizliyin təmin edilməsi və xarici tərəfdaş şəbəkəsinin genişləndirilməsi idi. BƏƏ ilə əlaqələr də bu kontekstdə formalaşır və uzun müddət daha çox protokol xarakteri daşıyırdı. Tərəflər bir-birini tanıyır, lakin hələ bir-birini strateji aktor kimi oxumurdu.

Münasibətlərin mahiyyət etibarilə dəyişməsi isə təsadüfi deyildi. 2000-ci illərin ortalarına doğru həm Azərbaycan, həm də BƏƏ regional siyasətdə daha iddialı və müstəqil oyunçu kimi çıxış etməyə başladı. Azərbaycan enerji siyasəti vasitəsilə Avrasiya məkanında etibarlı tərəfdaş imicini formalaşdırır, BƏƏ isə Körfəz regionunun çərçivəsindən çıxaraq qlobal investisiya və diplomatik aktora çevrilirdi. Məhz bu mərhələdə tərəflərin maraqları kəsişməyə başladı.

2006-cı ildə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı oldu. Əlaqələr artıq uzunmüddətli planlama və qarşılıqlı fayda məntiqi üzərində qurulmağa başladı. Vacib məqam ondan ibarətdir ki, bu iki dövlətin yaxınlaşması heç vaxt emosional və ya situativ xarakter daşımadı. Azərbaycan və BƏƏ münasibətləri ideoloji bloklaşma üzərində deyil, praqmatik suverenlik yanaşması üzərində inkişaf etdirdi. Hər iki tərəf üçün əsas prinsip daxili işlərə qarışmamaq, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı maraqların balanslaşdırılmaq idi.

Zaman keçdikcə bu tərəfdaşlıq daha geniş regional kontekst qazanmağa başladı. Xüsusilə Cənubi Qafqazda münaqişə sonrası reallıqların formalaşdığı dövrdə BƏƏ-nin Azərbaycanın mövqelərinə açıq və ardıcıl dəstək verməsi münasibətlərin sırf iqtisadi əməkdaşlıqdan strateji həmrəyliyə keçdiyini göstərdi. Məhz bu baxımdan 2025-ci ildə baş verən proseslər əvvəlki illərdə qurulan siyasi etimadın məntiqi nəticəsi kimi çıxış edir. Şuşada keçirilən görüşlər, imzalanan sənədlər və seçilən siyasi platformalar onu göstərir ki, Azərbaycan–BƏƏ münasibətləri regional və qlobal proseslərə təsir edə bilən yetkin strateji xəttə çevrilib. 2025-ci ilin iyulunda Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında baş tutan birbaşa görüş regional diplomatiyada keyfiyyətcə yeni mərhələnin başlanğıc oldu. Görüşün ən mühüm xüsusiyyəti vasitəçilərsiz formatda keçirilməsi idi.

Əmirliklərin bu prosesdə rolu klassik vasitəçilik anlayışından fərqlənirdi. Burada diktə edən, istiqamət göstərən və ya tərəfləri müəyyən çərçivəyə salan aktor yox idi. Əbu-Dabi, sadəcə siyasi dialoq üçün təhlükəsiz və neytral mühit yaratdı. Eyni zamanda, prosesin Qərb–Rusiya rəqabətindən kənar müstəvidə aparılması danışıqlara əlavə elastiklik gətirdi.

*

Beynəlxalq siyasətdə məkan heç vaxt neytral olmur. Xüsusilə postmünaqişə reallıqlarında danışıqların harada aparılması bəzən imzalanan sənədlərin məzmunundan daha güclü siyasi mesaj daşıyır. BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın 2025-ci ilin sentyabrında Azərbaycana səfəri çərçivəsində əsas danışıqların Şuşada keçirilməsi məhz bu kontekstdə oxunmalıdır.

Şuşa bu gün Azərbaycan üçün müharibədən sonrakı siyasi legitimliyin, suverenliyin bərpasının və yeni regional status-kvonun simvoludur. Xarici dövlət rəhbərinin bu məkanda rəsmi danışıqlar aparması, faktiki olaraq, münaqişənin nəticələrini tanımaq, postmünaqişə reallıqlarını qəbul etmək deməkdir. BƏƏ rəhbərliyinin bu addımı atması isə Əbu-Dabinin Cənubi Qafqazda balanslı, lakin prinsipial mövqe tutduğunu göstərdi. Elə bu nöqtədə vacib bir məqam üzərində dayanmaq istərdik: BƏƏ region dövlətləri üçün xarakterik olan ehtiyatlı diplomatiya modelini qoruyaraq, eyni zamanda, siyasi jestlərdən çəkinməyən nadir aktorlardandır. Şuşa səfəri nə Ermənistan əleyhinə ritorika, nə də açıq qarşıdurma xətti idi. BƏƏ-nin bu addımı, əksinə, beynəlxalq hüququn əsas prinsiplərinə – dövlətlərin ərazi bütövlüyünə hörmət yanaşmasına söykənən sakit, lakin qəti mövqenin ifadəsi idi.

Şuşada aparılan danışıqların mahiyyəti də məkanın verdiyi siyasi mesajla uzlaşırdı. Burada imzalanan sənədlər regionun gələcək iqtisadi və siyasi arxitekturasına dair baxışı da ehtiva edirdi. Enerji marşrutları, nəqliyyat-logistika xətləri, sənaye və rəqəmsal layihələr kimi sahələrin məhz Şuşada müzakirə edilməsi Azərbaycanın Qarabağı gələcək regional inkişafın mərkəzlərindən biri kimi təqdim etdiyini göstərdi. Şuşa danışıqları ilə Azərbaycan bir daha nümayiş etdirdi ki, Qarabağ məsələsi onun üçün bağlanmış mövzudur və artıq bu ərazi beynəlxalq əməkdaşlığın, investisiyanın və diplomatik fəaliyyətin legitim platformasına çevrilib. Xarici tərəfdaşın bu platformanı qəbul etməsi isə Azərbaycanın narrativini gücləndirən əsas faktorlardan biri oldu.

*

Beynəlxalq münasibətlərdə "strateji tərəfdaşlıq" anlayışı tez-tez ritorikaya çevrilir və bəzən real məzmundan daha çox diplomatik etiketi xatırladır. Lakin Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında Şuşada imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə bu anlayışın formal çərçivədən kənara çıxdığı nadir nümunələrdəndir. Burada söhbət tərəflərin bir-birini uzunmüddətli geosiyasi planlamada etibarlı aktor kimi qəbul etməsindən gedir. Siyasi baxımdan Bəyannamənin ən mühüm mesajı tərəflərin suverenlik və daxili işlərə qarışmamaq prinsipini açıq şəkildə önə çəkməsidir. Azərbaycan üçün bu addım müstəqil xarici siyasət kursunun beynəlxalq tərəfdaş tərəfindən qəbul edilməsi deməkdir. BƏƏ üçün isə mövcud durum ideoloji şərtlər irəli sürmədən əməkdaşlıq edə bilən etibarlı tərəfdaş imicini möhkəmləndirir.

Bəyannamənin diqqətdən kənarda qalan, lakin mühüm aspektlərindən biri də regional sabitliyə dolayı təsir potensialıdır. Sənəddə təhlükəsizlik məsələləri birbaşa hərbi müstə-



vidə qoyulmasa da, iqtisadi inteqrasiya və humanitar əməkdaşlıq vasitəsilə sabitliyin təşviqi xətti açıq şəkildə hiss olunur.

İnvestisiya əməkdaşlığı Azərbaycan–BƏƏ münasibətlərində siyasi etimadın ölçü vahididir. Xarici kapital yalnız stabil hüquqi mühitə və proqnozlaşdırılan siyasi kursa yönəlir. Məhz bu baxımdan Əmirliklərin Azərbaycan iqtisadiyyatında artan iştirakı Bakının regionda etibarlı və uzunmüddətli tərəfdaş kimi qəbul edildiyini göstərir.

420-dən artıq BƏƏ kapitalı ilə fəaliyyət göstərən şirkətin Azərbaycanda müxtəlif sahələri əhatə etməsi investisiyaların dar bir sektorda cəmləşmədiyini, əksinə, struktur iqtisadi maraqlara əsaslandığını nümayiş etdirir. Sənaye, kənd təsərrüfatı, logistika, tikinti və xidmət sahələrinə yönələn sərmayələr Azərbaycanın iqtisadi modelinin transformasiyasına uyğun gəlir. Xüsusilə postmünaqişə dövründə azad edilmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması fonunda bu investisiyalar strateji əhəmiyyət qazanır. Əvəzində Azərbaycan kapitalının BƏƏ iqtisadiyyatına daxil olması münasibətlərin birtərəfli xarakter daşımadığını göstərir. Bakı bu əməkdaşlıqda qlobal bazarlarda aktiv iştirak edən iqtisadi aktor kimi çıxış edir. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, tərəflər sürətli qazanc modelindən çox, uzunmüddətli layihələrə üstünlük verir. Bütün bunlar isə siyasi etimad olmadan mümkün deyil. İnvestisiya münasibətləri beləliklə, diplomatik yaxınlığın nəticəsi olmaqla yanaşı, onu möhkəmləndirən faktora çevrilir.

Son olaraq qeyd edək ki, Azərbaycan–BƏƏ münasibətləri regional və qlobal proseslərə təsir göstərə bilən yetkin tərəfdaşlıq modelinə çevrilib və bu model hesablanmış maraqlardan və institusional etimaddan doğan əlaqələrin dayanıqlı ola biləcəyini göstərən nümunə kimi çıxış edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Belarus Qarabağın dirçəlişinə dostluq əli uzadır

**Türk Dövlətləri Təşkilatına üzv ölkələr Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinə yaxından dəstək verirlər. Qardaş ölkələrin bu təşəbbüsü həm həmrəyliyin, həm də ortaq tarixi və mədəni bağlara əsaslanan əməkdaşlığın bariz nümunəsidir.**

Dost ölkə olan Belarusun Qarabağda aparılan bərpa-quruculuq işlərinə qoşulmaq təşəbbüsü məmnunluq doğurur. Bu ölkənin Azərbaycandakı səfiri Dmitri Pineviç 2025-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında bildirib ki, rəsmi Minsk Qarabağın bərpasına müxtəlif layihələrlə, o cümlədən "Böyük Qayıdış" Dövlət Proqramının icrasına töhfə verməyə hazırdır. O qeyd edib ki, Bakıdakı fəaliyyəti dövründə Azərbaycanın işğaldan azad olunan ərazilərində 7 dəfə olub və regionun sürətlə inkişaf etdiyini şəxsən müşahidə edib. Səfirin sözlərinə görə, tərəflər xalq təsərrüfatının bütün sahələri – sənaye, mədəni və digər layihələr üzrə əməkdaşlıq etməyi planlaşdırır.

Səfirin açıqlaması göstərir ki, Belarus Qarabağın və Şərqi Zəngəzurun bərpa-quruculuq işlərində fəal iştiraka hazırdır. Dost ölkə şəhərsalma, kənd təsərrüfatı, texnika və avadanlıq təminatı sahələrində zəngin təcrübəyə malikdir ki, bu da Qarabağda aparılan bərpa işlərinə əhəmiyyətli töhfə verə bilər. Məsələn, kənd təsərrüfatının bərpası Qarabağın sosial-iqtisadi reinteqrasiyasının əsas sütunlarından biridir. Belarusun aqrar sahədəki təcrübəsi, kooperativ modelləri və müasir texnologiyaları bölgədə məhsuldarlığın artmasına və yeni iş yerlərinin yaradılmasına şərait yaradacaq. Xüsusilə Ağdam rayonunda salınacaq kənd təsərrüfatı şəhərciyi layihəsi diqqət çəkir. Belarus bu layihə üçün xüsusi konsepsiya hazırlayıb və aqrar və tikinti sahəsindəki təcrübəsini Qarabağda tətbiq etməyi nəzərdə tutur. Burada kənd təsərrüfatı məhsullarının istehsalı və emalı da daxil olmaqla inteqrasiya olunmuş müasir şəhərciyin yaradılması, işçilər və onların ailə üzvləri üçün yaşayış və sosial obyektlərin tikintisi nəzərdə tutulur. Layihəyə Ağdam rayonunda 420 ailə üçün nəzərdə tutulmuş qəsəbənin salınması da daxildir. Xatırladaq ki, bu təşəbbüs Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana son səfəri zamanı irəli sürülüb.

Bundan başqa, Belarus şirkətləri "ağıllı kənd", "ağıllı şəhər", "yaşıl ererji" layihələri



və müasir infrastrukturun qurulmasında da iştirak etmək istəyir. Bu əməkdaşlıq yalnız iqtisadi deyil, həm də sosial sabitlik baxımından böyük əhəmiyyət daşıyır. Aqrar layihələr yerli əhalinin məşğulluğunu təmin etməklə yanaşı, Qarabağın Azərbaycanın əsas kənd təsərrüfatı regionlarından birinə çevrilməsini təmin edir.

Rəsmi Minsk sənaye sahəsində əməkdaşlığa da önəm verir. Gəncə Avtomobil Zavodu çərçivəsində həyata keçirilən Azərbaycan–Belarus əməkdaşlığı Qarabağın bərpasında texnika və avadanlıqla təminatda mühüm rol oynayır. Yada salaq ki, Azərbaycanda traktor parkının 80 faizədək hissəsini Belarus istehsalı olan texnikalar təşkil edir. Onun da bir hissəsi Gəncə Avtomobil Zavodunda istehsal olunub. Yarandığı vaxtdan bugünədək zavodda 14 min "Belarus" traktoru yığılıb.

Yol tikintisi, kənd təsərrüfatı və kommunal xidmətlər üçün nəzərdə tutulan texnikanın bir hissəsinin yerli istehsalı həm iqtisadi səmərəliliyi artırır, həm də bərpa prosesini sürətləndirir. Bu yanaşma Qarabağın bərpasını idxaldan asılı olmayan, dayanıqlı bir model üzrə həyata keçirməyə imkan verir.



Belaruslu sahibkarlar üçün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoymaq da səmərəlidir. Hazırda bu iqtisadi rayonlarda infrastruktur quruculuğu, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və logistika sahələri Belarus şirkətləri üçün cəlbedicidir. Burada sahibkarlıq mühitinin canlanması üçün güclü iqtisadi stimul mövcuddur. 2022-ci il dekabrın 9-da Vergi Məcəlləsinə əlavə edilmiş "İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri" həmin ərazilərdə sahibkarlıq fəaliyyəti üçün güzəştləri əhatə edir. Bundan başqa, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Belarus sahibkarlarına Azərbaycanda etibarlı tərəfdaşlar tapmaqda dəstək göstərməyə hazır olduğunu bildirib.

Qeyd edək ki, tezliklə Belarusun Azərbaycanla kiçik və orta biznes sahəsində əməkdaşlığının daha yüksək səviyyəyə çatacağı gözlənilir. Eyni zamanda, Belarus şirkətləri üçün bu əməkdaşlıq yeni bazarlara çıxış, uzunmüddətli tərəfdaşlıq və investisiya imkanları yaradır.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun bərpası Belarus–Azərbaycan iqtisadi əməkdaşlığının əsas hərəkətverici qüvvəsinə çevrilir. İki ölkə arasında ticarət dövriyyəsinin artması, sənaye və kənd təsərrüfatı sahələrində birgə layihələrin genişlənməsinə xidmət edəcək ki, bu da iqtisadi əsasları möhkəmləndirəcək. Yada salaq ki, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin 42 faiz artaraq 506 milyon ABŞ dollarına çatması qarşılıqlı marağın və etimadın göstəricisidir. Qarabağda həyata keçirilən bərpa layihələri bu rəqəmlərin gələcəkdə daha da artıracaq.

Qarabağın bərpası ətrafında formalaşan Belarus–Azərbaycan əməkdaşlığı siyasi müstəvidə də mühüm mesajlar verir. Belarusun bu prosesdə iştirakı Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi bərpa və inkişaf strategiyasına beynəlxalq dəstəyin göstəricisidir, həm də regionda davamlı sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, Belarusun Cənubi Qafqazda sülh prosesinə töhfə verməyə hazır olduğunu bəyan etməsi Qarabağın bərpasının təkcə iqtisadi deyil, strateji və geosiyasi əhəmiyyətini də ön plana çıxarır.

**Mövzu ilə bağlı Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun şöbə müdiri Mahir Zeynalov** XQ-yə bildirdi



ki, Qarabağın bərpası Azərbaycanın dövlət siyasətində müstəsna yer tutur: "Bölgədə infrastrukturun yenidən qurulması, yolların, enerji və su xətlərinin çəkilməsi, müasir yaşayış məntəqələrinin salınması, kənd təsərrüfatı və sənaye potensialının formalaşdırılması paralel və sistemli şəkildə həyata keçirilir. "Böyük Qayıdış" proqramı çərçivəsində məqsəd təkcə fiziki dağıntıların aradan qaldırılması deyil, həm də bu ərazilərin iqtisadi, sosial və ekoloji baxımdan dayanıqlı inkişaf modelinə uyğun şəkildə yenidən qurulmasıdır. Bu genişmiqyaslı prosesdə dost və tərəfdaş ölkələrin, xüsusilə Belarusun iştirakı xüsusi əhəmiyyət kəsb edir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işləri iki ölkə arasında siyasi etimadı iqtisadi və praktiki addımlarla tamamlayır. Belarusun bu tarixi prosesdə iştirakı strateji tərəfdaşlığın real məzmun aldığını göstərir. Qarabağın bərpası ətrafında qurulan bu əməkdaşlıq modeli təkcə Azərbaycan və Belarus üçün deyil, bütövlükdə region üçün davamlı inkişaf, qarşılıqlı fayda və etibarlı tərəfdaşlıq nümunəsi kimi çıxış edir".

***Ə.PÜNHAN***
***XQ***

# Prezident İlham Əliyevin “Xəzərin geosiyasəti” konsepti



## I MƏQALƏ

### “Konsept” anlayışı

“Konsept” latınca “conceptus” sözündəndir və “anlayış” deməkdir. Ancaq onun fəlsəfədə, linqvistikada və bütövlükdə elmdə fərqli anlamları vardır. Biz onların sırasından əsas olaraq fəlsəfədə işlənən “konsept” anlayışına üstünlük veririk. Fəlsəfədə konsept anlayışı daha ümumi məzmuna malik olan və müəyyən qədər bir neçə anlayışı özündə ehtiva edən məfhum olaraq dərk edilir. Yəni konsept semantik aspektdə anlayışla konsepsiya arasındadır.

Lakin konsept obyektin predmet aspektində (yəni ideologiyasız, real necə varsa elə) əsas mahiyyətini ifadə edirsə, konsepsiya daha çox ideoloji tərəfə meyil edir. Bu baxımdan konsept tədqiqat predmetinin başlıca mahiyyət və məzmununu daha konkret və dolğun ifadə edir. Konsepsiya geniş miqyasda anlayışlar arasında münasibtləri nəzərə almaqla formalaşır və konseptə nisəbətən bu mənada genişdir. Lakin söhbət araşdırılan obyektin “özmahiyyəti”ndən, “real mövcudluq” koordinatlarından və bu mənada anlayış olaraq əsas ideyasından, məzmunundan gedirsə, daha uyğun termin “konsept”dir.

Bütün bunları nəzərə alaraq biz “geosiyasi konsept” və “geosiyasətin konsepti” ifadələrinə özəl anlam veririk. Onun bazasında adətən ensiklopedik ədəbiyyatda istifadə olunan ümumi yanaşmanı görürük. Onu da vurğulayaq ki, məşhur “Oksford lüğəti”ndə konseptin çoxlu sayda və fərqli izahları verilir və hətta onların anlamdakı fərqli çalarları tarixi dövrüləşdirilir. Lakin bu cür yanaşma ciddi elmi ümumiləşdirmə üçün yetərli deyildir, çünki bizə yığcam mənası olan tərif gərəkdir. Onun əsasında konsepti də izah etmək olar.

Beləliklə, konsept bizim üçün, birincisi, “şüurun struktur-məzmun vahididir”, ikincisi, o, “fikir obyekti haqqında biliklərin, təsəvvürlərin, rəylərin cəmini əks etdirir” (Böyük Rusiya ensiklopediyası). Bu cür yanaşma “konsept”in müxtəlif elmlərdə fərqli məna çalarları ilə tərifinin və tədqiqat metodologiyasının mövcudluğunu istisna etmir. Eyni zamanda, konsept strukturla məzmunun vəhdətidirsə, özündə anlayışları birləşdirir və bu baxımdan sistem təsəvvür kimi mövcud olur, əyaniləşir. Çünki həm strukturda, həm də məzmunda anlayışlar kompleksinin varlığı mütləq şərtdir. Başqa halda obyekt haqqında tamamlanmış fikir, ideya və ya ideyalar, anlayışlar sistemi yaratmaq mümkün deyildir.

Abstrakt fəlsəfi-nəzəri təhlili dərinləşdirmədən və genişləndirmədən məqalənin əsas elmi məqsədinə keçək.

### “Geosiyasi konsept” anlayışı

Elmi ədəbiyyatda daha çox “geosiyasi konsepsiya” ifadəsinə rast gəlinir. Görünür, bunun əsas səbəbi konsepsiyanın məhz ideoloji məna yükünün çox olması ilə bağlıdır. Xüsusilə böyük dövlətləri öz maraqlarına uyğun ideoloji yönü olan geosiyasi yanaşmalar maraqlandırır. Hakimiyyətlər üçün əsas olanı təmsil etdikləri dövlətlərin geosiyasi maraqlarına xidmət edən nəzəri konstruksiyalardır. Eyni zamanda, hər bir konsepsiyanın nəzəri və bilik bazasında müəyyən konsept dayanmalıdır. Bu da dolayısı ilə geosiyasi konsepsiyaların özünəməxsus konseptlərinin mövcudluğu anlamına gəlir. Bir nümunəyə baxaq:

İndi “Avrasiyaçılıq” geosiyasi konsepsiya kimi intensiv tədqiq edilir. Əslində bu konsepsiya uzun müddətdir ki, mövcuddur. Ancaq son illər Qərb, Rusiya və Ukrayna politoloqları ona Rusiya-Ukrayna münaqişəsi kontekstində baxmağa üstünlük verirlər. Onlar hesab edirlər ki, bu münaqişə bütövlükdə Avrasiyaçılıqda fundamental dəyişikliklər edə bilər. Lakin cəmi bir neçə il əvvəl, məsələn, 2003-2007-ci illərdə Avrasiyaçılığa konsepsiya səviyyəsində fərqli kriteriyalarla yanaşılma mövcud idi. Məsələn, həmin konsepsiya çərçivəsində türk-slavyan birliyi məsələsinə diqqət daha çox idi (məsələn, A.Duqin).

İndi isə tədqiqatçılar Rusiya-Ukrayna münaqişəsi fonunda ümumiyyətlə rus geosiyasi təlimlərinə baş vurmağa çalışır və orada “tapdıqları konseptlərin” üzərində Avrasiyaçılıq konsepsiyası yaratmağa çalışırlar (məsələn, Janna Pançenko).

Bu qısa nümunə göstərir ki, geosiyasi konseptdən konsepsiyaya keçid doğrudan da ciddi ideoloji xarakter ala bilər və bu mənada “obyektiv təlim” anlayışı xeyli qeyri-müəyyənliyə düşə bilər.

Buradan fərqli nəticələr çıxarmaq olar. Bizcə, onların sırasında “geosiyasi konsept” anlayışının ciddi fəlsəfi və elmi tədqiqi aktualdır” qənaəti də yer almalıdır. Çünki ideologiyadan kənar konseptlərin öyrənilməsi çox mürəkkəb olan müasir geosiyasətdə baza mənzərəni yaratmağa yol açır. Həmin bağlılıqda Azərbaycan Prezidenti İlham Əliyevin Xəzərin geosiyasətinə aid konsepti müstəsna rol oynayır. Bunun səbəblərini irəlidə izah edəcəyik. İndi “geosiyasi konsept” anlayışının məzmununa daxil olan bir yeni faktora nəzər salaq.

### Regionlaşma və geosiyasi “konseptləşmə”

Bir qədər qəribə müqayisə təsiri bağışlaya bilər. Lakin XXI əsrin geosiyasi dinamikasının özəlliyi prizmasında araşdırılması aktual olan məsələdir. Təbii ki, burada “konseptləşmə” metafordur (məcazdır). Bu termin müasir dünyada regionlaşmanın təsirinin qlobal miqyasda artması fonunda adekvat geosiyasi ideya, konsept və konsepsiyanı müəyyən etməyi nəzərdə tutur. Həmin anlamda “koseptləşmə”, faktiki olaraq, ideyadan konseptə elmi əsaslarla keçid baxımından maraqlıdır. XXI əsrdə adekvat geosiyasi konseptin hazırlanmasında regional faktor nə dərəcədə təsirli ola bilər? Suala cavab üçün XX əsrin ikinci yarısından bu yana bütövlükdə dünyada regionlaşma prosesinə qısa nəzər salaq.

II Dünya müharibəsindən sonra, xüsusilə Avropa üçün regionlara zərərsiz bölünmə məsələsi daha da aktuallaşdı. Avropalılar bu zaman regionlara bölünmənin əməkdaşlıq və təhlükəsizliyə zərər verməməsi üzərində daha çox düşünməyə başladılar. Lakin qərblilər bir ciddi təhlükəni və ya riski göz önünə alırdılar. Əsas olaraq ABŞ hesab edirdi ki, onun liderliyinin davam etməsi üçün dünyanın “geosiyasi fraqmentləşməsi”nin qarşısı alınmalıdır. Ona görə də neoliberal model əsasında dünyanın regionlara bölünməsi və onun nəzəri dərki həyata keçməlidir.

Məsələ ondan ibarətdir ki, indi də “köhnə regionlaşma” modeli üzrə regional təşkilatların yaradılması prosesi üstünlük təşkil edir. Qəribə də olsa, faktlar bunu göstərir. Məsələn, K.J.Hancock (2009-cu ilə qədərki dönəmlə bağlı) yazır ki, 50 mövcud regional təşkilatlardan cəmi 16-sı 1990-cı ildən sonra yaranmışdır və onun 1/3-i postsovet məkanına aiddir. Bu o deməkdir ki, XXI əsrin ikinci onilliyi ərəfəsində belə regional təşkilatların əksəriyyəti köhnə regionlaşma modeli əsasında formalaşmışdır.

“Köhnə regionaliz”də əsas geosiyasi aktorlar kimi ancaq dövlətlər götürülür, regional münasibətlərə bu prizmada baxılırdı. Dövlətlər arasındakı münaqişələrin, müxtəlif ixtilafların aradan qaldırılması üçün bu yanaşma yetərli olmadı. Onun başlıca səbəbini “köhnə regionalizm”də hər hansı regionun “endogen proseslərini” lazımi dərəcədə nəzərə almamaqla bağlıdır. Endogen, yəni daxili regional proseslər hər bir regiona özəllik verir və universal qaydaların tətbiqində müəyyən məhdudiyyətləri regionun tarixi, siyasi, mədəni, coğrafi xüsusiyyətləri kontekstində yanaşmağı tələb edir. Buna görə də “yeni regionalizm”də regiona yalnız dövlətlərin toplusu kimi deyil, həm də konkret regionun daxili özəllikləri prizmasında baxılır.

Bu əsasda “müqayisəli regionalizm”, “Asiya regionallaşması” və digər anlayışlar artıq geosiyasi təlimlərdə geniş işlədilir.

Onu vurğulayaq ki, Qərb Cənubi Qafqaza çox uzun müddət regionun məhz daxili (endogen) xüsusiyyətlərini, reallığı nəzərə almadan baxmışdır. Buna görədir ki, Ermənistanın Azərbaycan təcavüzünü nəzərə almadan regionun bütün dövlətlərinə “eyni qəlibdə” yanaşırdı. Bu yanaşmanın acılarını hər birimiz xatırlayırıq.

Beləliklə, müasir geosiyasətin əsas xüsusiyyətlərindən biri dünyanın regionlara bölünməsi ilə bağlıdır. Bu, faktiki olaraq, keçən əsrin 70-80-ci illərində regionlaşmaya aid “yeni regionalizm” nəzəriyyəsinin meydana gəlməsini stimullaşdırmışdır (onun baniləri İsveç alimləri B.Hettne və F.Soderbaumdur). Xeyli sayda digər tədqiqatçılar da regionlaşma prosesinin müxtəlif aspektlərdə (iqtisadi, mədəni, siyasi, geosiyasi, təhlükəsizlik və s.) dünyanın qlobal miqyasda əsas treklərindən biri olduğunu vurğulayır və onu nəzərə alaraq nəzəri təhlillər aparırlar.

### Xəzərin “geosiyasi taleyi”: aktual məsələ

Bu cür ümumi nəzəri tendensiyanın fonunda Xəzər regionunun adekvat geosiyasi konseptinin yaradılması çox aktual təsir bağışlayır. Bunun real səbəbləri vardır.

Birincisi, Xəzər regionu müasir mərhələdə böyük geosiyasi aktorların amansız və güzəştsiz mübarizə meydanına çevrilmişdir. Onlar sözdə humanizmdən, əməkdaşlıqdan və təhlükəsizlikdən danışsalar da, gerçək olaraq nə qədər risklərin və təhdidlərin mövcud olduğunu hər kəs bilir.

İkincisi, Xəzər Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra dünya üçün xüsusi geosiyasi anlam almaqdadır. Çünki həmin qələbə faktiki olaraq regional miqyasda (Cənubi Qafqazda) geosiyasi proseslərin məntiqinə, məzmununa, strateji hədəflərinə köklü dəyişikliklərin əsasını qoydu. O cümlədən Xəzərin geosiyasi statusu və funksiyalarına yeni məzmun vermək zərurəti yarandı.

Üçüncüsü, Xəzər məsələsi həm qlobal geosiyasi düzənin yeniləşməsi, həm də beynəlxalq layihələrin reallaşması (məsələn, Çinin “Bir kəmər, bir yol” layihəsi) kontekstində daha çox aktuallıq kəsb etməyə başladı.

Dördüncüsü, Xəzər geniş geosiyasi məkandakı böyük güclər arasında kommunikativ əlaqələrin yaradılması baxımından yeni səviyyədə önəmli faktora çevrilmişdir. Burada Şərq-Qərb, Şimal-Cənub və başqa vacib marşrutlar kəsişir və onların bir-birinə uyğunlaşdırılması əhəmiyyətli məsələ kimi ön sıraya çıxır.

Beşincisi, Xəzər həm dəniz, həm də region kimi enerji istehsalı, istismarı və nəqli aspektlərində bütün dünyanın, xüsusilə Avropanın enerji təhlükəsizliyində prinsipial rol oynayır. Bunun tarixdən gələn səbəbləri ilə yanaşı, müasir mərhələdə regional və qlobal təhlükəsizliyin təminində xüsusi rol oynayan faktorları mövcuddur.

Bütün bunlar kompleks halında Xəzərin adekvat geosiyasi konseptinin hazırlanması məsələsinin ciddi önəmini ifadə edirlər. Artıq buna xeyli cəhdlər olmuşdur. Ancaq onların heç də hər biri real vəziyyətə uyğun deyil. Açıq hiss edilir ki, Xəzər məsələsinə hansısa böyük dövlətin və ya dövlətlər qrupunun eqoist maraqları prizmasında yanaşmalar vardır.

Azərbaycan Prezidenti İlham Əliyevin Xəzərin geosiyasətinə yanaşması tamamilə fərqlidir. Dövlət başçısı həmin aspektdə “Azərbaycan nefti dünya siyasətində” (2 kitabdan ibarətdir) və “Azərbaycanın Xəzər nefti” adlı əsərlərində əsas ideyalarını ifadə etmişdir. Xəzərin tarixində ilk dəfə olaraq regionda yerləşən dövlətin lideri Xəzərlə bağlı sistemli geosiyasi konsept irəli sürmüşdür.

Həmin əsərlərdə Xəzər, onun siyasi tarixi, təbii resursları, enerji aspektində geosiyasətdə oynadığı rol və tutduğu yer, müasir mərhələdə qlobal geosiyasət miqyasında statusu və digər məsələlər haqqında irəli sürdüyü ideyalara vahid konsept çərçivəsində baxmaq zəruridir. Çünki onlar sistem xarakterli çox maraqlı siyasi və geosiyasi təsəvvürlər formalaşdırırlar. Aydın görünür ki, Azərbaycan Prezidenti, sözün tam anlamında, Xəzərlə bağlı fərqli geosiyasi konsept ortaya qoymuşdur.

Onun bir neçə əsas tərkib hissəsini müəyyən etmək olar.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Jurnalist təşkilatları və “söz azadlığı”nın qələm qardaşlığı

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, dünyada jurnalist təşkilatlarının formalaşması XIX əsrin ortalarına təsadüf edir. Həmin dövrdə kütləvi mətbuatın sürətli inkişafı jurnalistlərin birliklər şəklində təmərküzləşmələrini zərurətə çevirdi. Belə qurumlar peşə hüquqlarının müdafiəsi, sosial təminat və senzura ilə mübarizə zəminində təşəkkül tapdı. Konkret olaraq, 1857-ci ildə Fransada ilk jurnalist təşkilatlarından biri yarandı.

İlkin jurnalist birlikləri əsasən peşəkar klublar xarakteri daşıyırdı. 1900-cü illərdən etibarən isə onların beynəlxalq əməkdaşlığı gücləndi. Bunun nəticəsi kimi, 1926-cı ildə Beynəlxalq Jurnalistlər Federasiyası (IFJ) yarandı. Qurumun məqsədi jurnalistlərin hüquqlarının beynəlxalq səviyyədə qorunmasından, müharibə və münaqişələr zamanı jurnalist təhlükəsizliyinin təminatına dəstək göstərməkdən və peşə etikası normalarının müəyyənləşdirilməsindən ibarət oldu.



1930-1950-ci illəri jurnalist təşkilatlarının tarixində ideoloji bölünmə mərhələsi kimi dəyərləndirmək olar. Nəzərə alaq ki, II Dünya müharibəsi onların fəaliyyətinə ciddi təsir göstərmişdi. Müharibədən dərhal sonra – 1946-cı ildə Beynəlxalq Jurnalistlər Təşkilatı (OIJ) yaransa da, “soyuq müharibə” dövrü ümumən jurnalist birliklərinin ideoloji əsasda parçalanması reallığını doğurdu. Yəni bu təsisatlar siyasi təsirlərə məruz qaldılar.

1960-1980-ci illər jurnalist təşkilatları üçün peşə hüquqları və söz azadlığı mərhələsi kimi xarakterizə olunur. Bu dövrdəki başlıca fəaliyyət mətbuat azadlığının müdafiəsinə, senzura və siyasi təzyiqlərə qarşı mübarizəyə yönəldi. Bir çox ölkələrdə milli jurnalist birlikləri, mətbuat şuraları yaradıldı, həmçinin etik kodekslərin və peşə standartlarının sistemləşdirilməsinə başlanıldı.

Əlbəttə, “soyuq müharibə”nin başa çatması jurnalist təşkilatları üçün yeni imkanlar açdı. Həmin dövrdə jurnalistikanın sərhədləri genişləndi ki, bu amil özü ilə birlikdə problemlər də gətirdi. Məsələn, dezinformasiyanı götürək. Məlum olduğu kimi, dezinformasiya məqsədli şəkildə həyata keçirilən informasiya manipulyasiyasıdır və media onun yaranmasında bilavasitə iştirakçıdır. Əlbəttə, sözügedən mərhələdə bu problem indiki qədər aktual olmasa da, onun ilkin rüşeymləri nəzərə çarpırdı. Jurnalist təşkilatları buna qarşı mübarizə aparır, peşə standartlarının aliliyini təbliğ edirdilər. Amma...

Əlbəttə, hazırkı mərhələ, belə demək mümkünsə, daha “əmma”lıdır. Belə ki, XXI əsrdə jurnalist təşkilatları rəqəmsal hüquqların müdafiəsi, süni intellekt və media etikası, jurnalistlərin onlayn təhlükəsizliyi məsələləri ilə məşğul olur, beynəlxalq reytinqlər və monitorinq hesabatları tərtib edirlər ki, bütün bunlar qlobal siyasətə də təsirini göstərir. “Əmma” da elə bundadır və onun ölkəmizlə bağlı tərəflərini az görməmişik. Amma Azərbaycan dünyanın tərkib hissədir. Problemlər varsa, onun üzərinə gedilməlidir. Gedilməlidir ki, onların mənfi təsirlərindən sığortalanaq.

Haşiyə çıxaq ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bir çox ictimai institutlarla yanaşı, jurnalist təşkilatları da formalaşmağa başladı. Bu qurumlar ölkədə söz və ifadə azadlığı prinsiplərinin dərinləşməsində, jurnalist peşəkarlığının artırılmasında, beynəlxalq media təcrübəsinin öyrənilib çatdırılmasında fəal rol oynadılar. Hərçənd, xaricdəki anti-Azərbaycançı qüvvələrin, ermənipərəst dairələrin bu təsisatlar üçün xüsusi gündəm formalaşdırmağa girişdikləri mərhələni də gördük. Nəticə etibarilə jurnalist təşkilatları bir çox hallarda həmin qüvvə və dairələrin ruporu rolunda çıxış etməyə başladılar, söz və ifadə azadlıqları, plüralizm kimi prinsipləri ikinci plana keçirdilər. Uduzan isə jurnalistika oldu.

Bəli, hazırda ölkəmizdə jurnalist təşkilatlarının fəaliyyət intensivliyi sahəsində ürəkaçan mənzərənin olduğunu söyləyə bilmərik. Bunun obyektiv və subyektiv səbəbləri var. Konkret məqamlara diqqət yetirmək niyyətindən həm uzağıq, həm də hesab edirik ki, bu, ayrıca yazının mövzusudur. Amma onu deməliyik ki, Azərbaycanda Prezident İlham Əliyevin şəxsində dövlət səviyyəsində medianın cəmiyyətdəki missiyasına müstəsna dəyər verilir. Bu dəyərin institusional siyasət mexanizmindən tutmuş, jurnalistlərin sosial-məişət səviyyəsinin yaxşılaşdırılmasınadək müxtəlif təzahürləri var. Son illər Şuşa Qlobal Media forumlarının təşkilinin artıq xoş ənənəyə çevrildiyini, eyni zamanda, Medianın İnkişafı Agentliyinin fəaliyyətindəki fundamentallığı ayrıca vurğulamalıyıq. Lakin təəssüf ki, bir çox hallarda beynəlxalq miqyasda ölkəmizin müsbət media referansına əhəmiyyət verilmir, ənənəvi anti-təbliğat metodlarına əl atılır, müxtəlif reytinq və hesabatlarda Azərbaycanın adı mənfi yöndə çəkilir.

Deyim var ki, məqsəd vasitəyə bəraət qazandırır. Məsələyə bu prizmadan yanaşsaq, anti-Azərbaycan qüvvələr də ölkəmizə qarşı mübarizədə söz və ifadə azadlığı prinsiplərini özlərinin xoşagəlməz niyyətlərinin gerçəkləşdirilməsi üçün vasitə qismində görürlər. Yəni ilk baxışdan belə təəssürat var ki, Azərbaycanda söz və ifadə azadlığı sahəsində ən ideal durum formalaşsa belə, həmin qüvvələr neqativ mənada deməyə, qabartmağa və qondarmağa nə isə tapacaqlar.

Əlbəttə, bu tendensiyanın varlığı o demək deyil ki, sakit dayanmalıyıq. Hər halda, problemlərin üzərinə getməyin lazım olduğunu vurğuladıq. Başqa sözlə desək, kimlərsə bizi dünyadan təcrid etmək barədə düşünürsə, mövcud meyilin aradan qalxmasına çalışmalıyıq. Bu səbəbdən jurnalist təşkilatlarının aktivliyinə də ehtiyac var. Bəs onların aktivliklərinin parametrləri nədən ibarət olmalıdır?

Məlumdur ki, beynəlxalq miqyaslı jurnalist təşkilatlarının hazırkı fəaliyyətində media azadlığı indekslərinin tərtibatı, ölkələr üzrə illik hesabatların dərci, hökumətlərin media siyasətinin beynəlxalq standartlarla müqayisəsi kimi vacib elemetlər var. Onlar həmçinin, jurnalist etikası və peşə kodekslərini yayır, dezinformasiya ilə mübarizə aparır, müharibə, böhran və seçkilər zamanı məsuliyyətli jurnalistikanı təşviq edir, müxtəlif tematik mövzularda beynəlxalq seminarlar, treninqlər və konfranslar düzənləyir, gənc jurnalistlərin hazırlanmasına dəstək verir, habelə rəqəmsal media, təhlükəsizlik və araşdırma jurnalistikası sahəsində təcrübə paylaşırlar. Müxtəlif ölkələrdən olan jurnalistlərin vahid şəbəkədə birləşdirilməsi, jurnalistlərin təhlükəsizliyinə diqqət çəkilməsi, beynəlxalq humanitar hüququn mediaya tətbiqinin gündəmə gətirilməsi, informasiya manipulyasiyasına qarşı xəbərdarlıqların ünvanlanması da başlıca fəaliyyət sahələrinə daxildir.

Hesab edirik ki, bütün bunların içərisində olmaq şərtdir. Nəzərə alaq ki, bir prosesin içərisində olmaq həm də ona təsir elementlərini əldə cəmləşdirmək deməkdir. Bu mənada, jurnalist təşkilatlarının aktivliyi Azərbaycanla bağlı söz və ifadə azadlığı kontekstində yaradılan mənfi rəylərin aradan qalxmasına ciddi dəstək göstərə, habelə, bu sayaq neqativ təmayüllərin zamanında qarşısını ala bilər. Ümid edək ki, Mətbuat Şurasının tərkibindəki jurnalist təşkilatlarının koordinasiya mərkəzi sadaladığımız istiqamətdə fəaliyyət göstərəcək, beynəlxalq trendləri izləyəcək, həmçinin nüfuzlu beynəlxalq media toplantılarında iştirakçılığı təmin etməklə səmərəli nəticələrin əldə olunmasına mühüm töhfə verəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “IDDA Awards” müsabiqəsi başa çatıb

*Bu aksiya Azərbaycanın innovasiya ekosisteminə mühüm töhfə verib*




**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) təşəbbüsü ilə Azərbaycanın innovasiya ekosistemi üçün əlamətdar hadisə baş verib. “IDDA Awards” müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib. Qısa müddətdə ekosistemin əsas platformalarından birinə çevrilən bu müsabiqə innovasiya mühitinin aparıcı oyunçularını bir araya gətirərək ölkədə rəqəmsal transformasiya prosesinə verilən önəmi bir daha nümayiş etdirib.**

Mərasimdə innovasiya ekosisteminin, təxminən, 200-ə yaxın nümayəndəsi, o cümlədən startaplar, iri şirkətlərin təmsilçiləri və müxtəlif dövlət qurumlarının nümayəndələri iştirak ediblər. Bu faktın özü “IDDA Awards”ın artıq təkcə bir müsabiqə deyil, innovativ ideyaların, yeni texnoloji həllərin və strateji tərəfdaşlıqların formalaşdığı mühüm platformaya çevrildiyini göstərir.

Bu il müsabiqəyə 8 fərqli nominasiya üzrə ümumilikdə 162 müraciət daxil olub. İlkin mərhələdə 119 layihə ictimai səsverməyə buraxılıb, yekun mərhələdə isə hər nominasiya üzrə 5 finalçı münsiflər heyəti tərəfindən qiymətləndirilib. Bu yanaşma həm ictimai rəyin, həm də peşəkar ekspertizasının nəzərə alınması baxımından müsabiqənin şəffaf və obyektiv mexanizmlə keçirildiyini ortaya qoyur.

Tədbirin rəsmi hissəsində çıxış edən İRİA-nın İdarə Heyətinin sədri Fərid Osmanov, İnnovasiya ekosistemi departamentinin müdiri Taleh Kərimli, İnvestisiya və miqyaslaşma şöbəsinin müdiri Ağahüseyn Əhmədov ölkədə innovasiya və rəqəmsal inkişaf sahəsində həyata keçirilən islahatlar, formalaşmaqda olan startap ekosistemi və “IDDA Awards”ın bu prosesdə oynadığı rola diqqət çəkiblər. Çıxışlarda vurğulanıb ki, innovativ təşəbbüslərin təşviqi və texnoloji layihələrin miqyaslanması Azərbaycanın dayanıqlı iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir.

“IDDA Awards 2025” çərçivəsində müxtəlif kateqoriyalar üzrə qaliblər müəyyənləşdirilib. Belə ki, “İlin Startapı” nominasiyasında IMED, “İlin Rezidenti” nominasiyasında Era Soft Digital Solutions, “İlin Ekosistem Lokomotivi” və “İlin İKT-də Qadını” nominasiyalarında Emiliya Əhmədova, “İlin Ekosistem Oyunçusu” nominasiyasında Yaradıcı Mərkəz, “İlin Bacarıq Gücü” nominasiyasında STEP IT, “İlin Texnologiya Tədbiri” nominasiyasında Baku ID, “İlin Rəqəmsal Layihəsi” nominasiyasında isə e-AHİK qalib elan olunub.

Qeyd etmək lazımdır ki, “IDDA Awards” Azərbaycanda innovasiyaların təşviqi, startapların yaratdığı qabaqcıl texnoloji həllərin tanıdılması və innovativ layihələrin həm dövlət, həm də özəl sektorda tətbiqinin stimullaşdırılması baxımından mühüm rol oynayır. Bu platforma iştirakçılar üçün təkcə mükafat qazanmaq deyil, eyni zamanda, ekosistemdə tanınmaq, şəbəkələşmək və yeni tərəfdaşlıqlar qurmaq baxımından da geniş imkanlar yaradır. “IDDA Awards” artıq ölkənin innovasiya gündəmində mühüm yer tutan və gələcəkdə də bu sahənin inkişafına töhfə verməyə davam edəcək nüfuzlu təşəbbüslərdən biri kimi qiymətləndirilir.

**Azərbaycanın startap ekosistemi və bu çərçivədə görülən işlərlə bağlı İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti Bəhruz Əliyev XQ-yə bildirdi ki, Müsabiqə innovasiya sektorunun inkişafını stimullaşdırmaq, fəaliyyətləri geniş ictimaiyyətə tanıtmaq və sahədə marağı artırmaq məqsədi daşıyır:**

– “IDDA Awards” innovasiyanın dəyər gördüyü bir platforma kimi ekosistemin inkişafına mühüm töhfə verir. Bu mükafatlandırma təşəbbüsü yaradıcı ideyaların real nəticələrə çevrilməsini təşviq edir. Startaplar üçün etibar qazanmaq baxımından “IDDA Awards” mühüm rol oynayır. Tədbir innovasiya sahəsində fəaliyyət göstərən insanları və komandaları bir araya gətirir. “IDDA Awards” ideya mərhələsindən məhsula gedən yolun qiymətləndirildiyi platformalardandır. Mükafatlandırma prosesi sağlam rəqabət mühitinin formalaşmasına xidmət edir. Bu platforma startap ekosisteminin sistemli şəkildə formalaşdığını göstərir. Tədbir innovativ düşüncənin cəmiyyətdə yayılmasına töhfə verir. Startaplar üçün bu cür tanınma yeni imkanların qapısını açır.



Ekspert bildirdi ki, bu platforma innovasiya sahəsində çalışanların zəhmətinə verilən dəyərin göstəricisidir:

– GovTech, FinTech, EdTech kimi sahələrdə pilot layihələr üçün zəmin yaranır. Bir çox startap üçün bu tip mükafatlar ilk reputasiya kapitalıdır. Dövlət səviyyəsində innovasiyaya verilən önəmi açıq şəkildə nümayiş etdirir.

***Nurlan ABDALOV***
***XQ***

# Statistika Komitəsinin sədri BMT-nin rezident əlaqələndiricisi ilə görüşüb



**Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi Vladanka Andreyeva arasında görüş keçirilib.**

Komitədən bildirilib ki, görüşdə bünövrəsi ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələyə yüksəldilmiş ölkəmizlə BMT arasındakı əməkdaşlıqdan, bu əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin, xüsusilə də “2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi”nin icrasının, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının, “Milli Dayanıqlı İnkişaf Məqsədlərinin Monitorinq Sistemləri üzrə BMT-DSK Birgə İşçi Qrupu”nun yaradılmasının, BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) və Dövlət Statistika Komitəsi arasındakı əməkdaşlıq çərçivəsində “DİM-lər üçün məlumatların dezaqreqasiyası” adlı praktiki vəsaitin hazırlanmasının statistikanın inkişafı istiqamətində mühüm addımlardan olduğu, BMT-nin Uşaq Fondunun dəstəyi ilə 2023-cü ildə keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu nəticəsində 18 DİM göstəricisi üzrə məlumatların əldə edildiyi bildirilib.

Eyni zamanda, Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında imzalanmış 2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (UNSDCF) müzakirə edilib, milli statistika sistemlərinin gücləndirilməsi, DİM-lərin monitorinqi və hesabatlılığı istiqamətində fikir mübadiləsi aparılıb.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ölkəmizdə fəaliyyəti başa çatan BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi Vladanka Andreyevaya faydalı əməkdaşlıq üçün təşəkkür edib və gələcək fəaliyyətində uğurlar arzulayıb.

***XQ***



# “Bahar” və “Qum-dəniz” yataqlarında qazma işləri sürətlənir

**Azərbaycan Dövlət Neft Şirkətinin Kompleks Qazma İşləri Tresti ilə “Bahar Energy Operating Company” arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənəd iki şirkət arasında tərəfdaşlığın yaradılmasını nəzərdə tutur.**

Memorandum çərçivəsində trestin geniş qazma və texniki təcrübəsinin Xəzərin Azərbaycan sektorunda yerləşən “Bahar” və “Qum-dəniz” yataqlarında tətbiqi imkanları araşdırılacaq. Məlumata görə, “Bahar Energy Operating Company” ilə birgə icra olunacaq layihələr hər iki şirkətin strateji hədəflərinə çatmasına əhəmiyyətli töhfə verəcək.

Xatırladaq ki, bu ilin oktyabr ayında SOCAR və ABŞ-ın SLB şirkəti “Bahar” və “Qum-dəniz” yataqlarının yenidən işlənməsi üzrə tərəfdaşlıq barədə razılığa gəliblər. Razılaşma perspektivli hasilat zonalarının müəyyənləşdirilməsini, əhatəli çən parkının modelləşdirilməsinin hazırlanmasını, eləcə də erkən hasilat sxeminin həyata keçirilməsi üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini əhatə edir.

SOCAR-ın məlumatına görə, layihə şirkətin neft hasilatının artırılması və yetkin dəniz yataqlarının istismar müddətinin uzadılması üzrə uzunmüddətli strategiyasında mühüm yer tutur. Məlum olduğu kimi, SOCAR və “Bahar Energy Limited” şirkəti 2009-cu il dekabrın 22-də “Bahar” və “Qum-dəniz” yataqlar bloku üzrə kəşfiyyat, reabilitasiya, işlənmə və hasilatın pay bölgüsü haqqında saziş imzalayıblar. Sazişə əsasən, layihədə “Bahar Energy Limited” və SOCAR müvafiq olaraq 80 faiz və 20 faiz iştirak ediblər.

25 il müddətinə nəzərdə tutulmuş sazişin daha 5 il uzadılması mümkündür. İnvestisiya proqramının həcmi ilkin olaraq 1 milyard ABŞ dolları həcmində qiymətləndirilir və bütün maliyyələşdirmə tədbirləri “Bahar Energy Limited” tərəfindən həyata keçiriləcək. Müqavilə blokunda qazın qalıq ehtiyatları 25 milyard kubmetr olaraq qiymətləndirilir.

Müqavilə sahəsinin əhatə etdiyi “Qum dəniz” və “Bahar” yataqlarına gəldikdə isə, hər iki yataq ötən əsrin ortalarında Azərbaycan neftçilərinin gərgin əməyi sayəsində istismara daxil edilib. Bakı şəhərindən 21 kilometr cənub-şərq istiqamətində yerləşən “Qum dəniz” neft yatağında dərinlik 1-2 metrdən 15-14 metr intervalında dəyişir. 1961-ci ildə kəşf olunmuş və ölkənin enerji sektorunda mühüm strateji obyektlərdən sayılan bu yataq 120 kvadratkilometr sahəni əhatə edir. Burada, təxminən, 50 milyon ton neft və 300 milyard kubmetr qaz ehtiyatı var.

İşlənmənin əvvəlindən indiyədək “Qum dəniz” yatağında 500-ə yaxın quyu qazılıb. Ötən müddətdə buradan 29 milyon tondan artıq neft və 128 milyard kubmetrə yaxın qaz çıxarılıb. Bu göstəricilər yatağın iqtisadi dəyərini və Azərbaycanın enerji ixracında əhəmiyyətini təsdiqləyir. 2025-ci ildə isə “Qum adası” yatağından, təxminən, 27 min ton xam neft hasil ediləcəyi gözlənilir ki, bu da ötən ilin göstəricisi ilə eynidir. Bununla belə, qaz hasilatında artım müşahidə olunur. Proqnoza görə, cari il yataqdan, təxminən, 190,53 milyon kubmetr qaz hasil olunması gözlənilir ki, bu da 2024-cü ilə nisbətən 6,1 faiz artım deməkdir.

“Bahar” yatağı isə Bakı şəhərindən 40 kilometr cənub-şərqə doğru dənizdə yerləşir. Qaz-kondensat ehtiyatlarının zənginliyi ilə seçilən bu yataq 1968-ci il mart ayının 21-də kəşf olunub. 1969-cu ildən sənaye işlənməsinə daxil edilmiş “Bahar” yatağında indiyədək 200-dən artıq quyu qazılıb. Ötən müddətdə buradan təqribən, 13 milyon ton kondensat, 10-15 milyard kubmetr qaz hasil olunub.

“Bahar” yatağının 2025-ci il üzrə proqnozları da ümidvericidir. Bu il yataqdan, təxminən, 27 min ton xam neft hasil ediləcəyi gözlənilir. Eyni zamanda, il ərzində buradan, təxminən, 190,53 milyon kubmetr qaz hasilatı proqnozlaşdırılır ki, bu da 2024-cü ilə nisbətən 6 faiz çoxdur.

Yeri gəlmişkən, hazırda hər iki yataqda hasilat müasir texnologiyalar və ekoloji standartlara uyğun həyata keçirilir. Bu yanaşma həm hasilatın səmərəliliyini artırır, həm də Xəzər dənizinin təbii mühitinin qorunmasına şərait yaradır. Gələcəkdə isə hasilatın artırılması və yeni texnologiyaların tətbiqi ilə bu yataqların ölkə iqtisadiyyatına töhfəsi daha da səmərəli olacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı Limanı Orta Dəhlizin ötürücü meydanına çevrilib

***“Dəniz qapısı”nda bu il 100 min konteyner yükləndi***

**Son zamanlar Bakı Beynəlxalq Dəniz Limanının ümumi yükaşırma nəticələrində davamlı artım müşahidə edilir. Təkcə onu qeyd etmək kifayətdir ki, Ələt qəsəbəsində müasir kompleksin istifadəyə verildiyi 2018-ci ildə Bakı Limanı vasitəsilə 3 milyon 787 min ton yük aşırılmışdısa, cari ilin yanvar-noyabr aylarında bu rəqəm 7 milyon 547 min tona yüksəlib. İlin sonuna qədər isə ümumi yükaşırma göstəricisinin 8 milyon tona çatacağı gözlənilir.**




Bakı Beynəlxalq Dəniz Limanının direktoru Eldar Salahovun məlumatına görə, yüklərin, təxminən, 38-40 faizi Çindən gələn idxal və tranzit yüklərdir. Xüsusən də son zamanlar Çin istehsalı olan avtomobillərin və ehtiyat hissələrinin daşınmasında yüksək artım müşahidə edilir. Bununla yanaşı, İsveçrə, Türkiyə, Qazaxıstan, Özbəkistan və Gürcüstan kimi ənənəvi ticarət tərəfdaşları ilə də yükdaşıma sahəsində əməkdaşlıq getdikcə genişlənir.

Hesabat dövründə Bakı Beynəlxalq Dəniz Limanında konteyner aşırma göstəricisi ilk dəfə olaraq 100 min TEU səviyyəsinə çatıb. Müqayisə üçün qeyd edək ki, 2020-ci ildə liman vasitəsilə 40 min 395 TEU konteyner daşınmışdısa, ötən il həmin göstərici 76 min 775-ə çatıb ki, bu da 1,9 dəfə və ya 90 faiz artım deməkdir. Cari ilin 11 ayında 100 min TEU həddinin aşılması isə limanın konteyner əməliyyatlarının səmərəliliyini göstərir və növbəti il üçün daha yüksək proqnozlara əsas yaradır. İlin yekununda bu rəqəmin 104–105 min TEU-ya çatması gözlənilir. Bu isə ötən illə müqayisədə, təxminən, 40 faiz artım deməkdir.

Bu göstəricilər isə Bakı Limanının regionun ən etibarlı logistik qovşaqlarından olduğunu bir daha təsdiq etməklə yanaşı, Azərbaycanın logistik sisteminin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Qurumdan verilən məlumata əsasən, yükaşırma göstəricilərinin artması Azərbaycanın Şərqlə Qərb arasında strateji logistik marşrut kimi mövqeyini daha da möhkəmləndirir. “Bakı Limanında “yaşıl” və rəqəmsal logistik həllərin tətbiqi və Orta Dəhliz üzrə inteqrasiyanın dərinləşməsi daha böyük yük həcmləri, daha geniş ticarət əlaqələri və ölkə iqtisadiyyatına daha irihəcmli əlavə dəyər vəd edir”, – deyə məlumatda vurğulanıb.

Heç şübhəsiz, bütün bu nailiyyətlər ölkə Prezidenti İlham Əliyevin 25 fevral 2025-ci il tarixli Fərmanı ilə Bakı Limanının “Azərbaycan Dəmir Yolları” QSC-yə birləşdirilməsi nəticəsində formalaşan vahid nəqliyyat idarəetmə sisteminin səmərəliliyinin göstəricisidir. Belə ki, dəniz limanı və dəmir yolu əməliyyatlarının inteqrasiyası yükaşırma proseslərinin sürətlənməsinə və logistik marşrutların optimallaşdırılmasına imkan yaradıb. Bakı Limanında bir sıra qurumların və ekspeditor şirkətlərinin birgə işlədiyi Vahid Keçid Mərkəzinin fəaliyyəti də limanda əməliyyatların daha çevik icrasına və yükaşırma göstəricilərinin davamlı artmasına dəstək verir. Görülən işlərin nəticəsi olaraq limanın yükaşırmalarında rekord göstərici əldə olunub.

Qeyd edək ki, Bakı Limanı regionun və Orta Dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) əsas qovşaqlarından biri kimi ticarət və logistika xəritəsində xüsusi strateji mövqe tutur. Qlobal tədarük zəncirlərinin yenidən formalaşdığı bir dövrdə Orta Dəhliz Asiyadan Avropaya və əks istiqamətə ən təhlükəsiz, rahat, çevik və qısa tranzit marşrutu kimi əhəmiyyətini daha da artırıb. Bakı Limanı infrastruktur imkanları, texniki göstəriciləri və təcrübəli mütəxəssisləri sayəsində regionun logistikasının inkişafına böyük töhfə verir, regionda “Yaşıl Liman” sertifikatına sahib ilk liman kimi əməliyyatları beynəlxalq ekoloji tələblərə uyğun təşkil edərək Orta Dəhliz üzrə daşımaların dayanıqlığını təmin edir.

Yeri gəlmişkən, son zamanlar Azərbaycanın tranzit rolunun getdikcə möhkəmlənməsi, yeni logistik əməkdaşlıqlar və modern infrastruktur nəticəsində yük əməliyyatları xeyli sürətlənib. Təkcə onu qeyd etmək kifayətdir ki, 2025-ci ilin 11 ayında “Azərbaycan Dəmir Yolları” QSC Orta Dəhliz üzrə 350 blok-qatar qəbul edib. Bu isə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 34 faiz çoxdur.

***XQ***

# Muğan torpağı bol taxıl yetişdirib

**Ölkəmizdə tarixən məhsuldarlığı ilə seçilən Sabirabad rayonunda 2025-ci ilin 9 ayı ərzində əvvəlki illərlə müqayisədə bol məhsul toplanıb. Ümumilikdə rayonda 10 min 904 hektar sahədə buğda, ümumi əkinin 46,36 faizə qədər arpa əkinləri aparılmışdır.**

**Sabirabad DAİM-in bitkiçilik sektorunun müdiri Məhəmməd Məmmədov** bildirdi ki, buğda sahəsinin hər hektarından 47,2 sentner olmaqla 51,3 min ton məhsul götürülüb. Bu da orta respublika göstəricisindən xeyli çoxdur. 9 min 385 arpa sahəsinin hər hektarından isə orta hesabla 39,4 sentner olmaqla 36 min 984,9 ton məhsul toplanıb.

Aqrar sahədə son 20 ildə aparılmış islahatlar pambıq istehsalında da müsbət dəyişiklərə səbəb olmuşdur. Əməli işlərin praktikası göstərir ki, kənd təsərrüfatı bitkilərinin istehsalı prosesinin bütün mərhələlərində təchizatdan tutmuş hazır məhsulun tədarükünə və satışına qədər heç bir ciddi problem qalmamışdır.



Qeyd olundu ki, «Aqrolizinq» ASC-nin Sabirabad Regional Nümayəndəliyinin və özəl sahədə fəaliyyət göstərən sahibkarların istifadələrində olan 220 ədəd traktor, 45 ədəd səpin texnikası, 75 ədəd ağır mala, 550 ədəd yüngül mala vasitələrindən istifadə edilmişdir.

Uzun illər əkinçiliklə məşğul olan “Miri” fermer təsərrüfatı yüksək məhsuldarlığı ilə rayonda böyük nüfuz qazanıb.



**Təsərrüfatın rəhbəri Anar Balaseyid oğlu Əhmədov** ilə həmsöhbət olduq. O, kollektivin qazandığı uğurların ilbəil yüksəldiyinə toxunaraq dedi:

–Təsərrüfatı böyük əkinçilik təcrübəsi olan atam 1999-cu ildə yaradıb. Pambıqçılıq, taxılçılıq, sonradan isə maldarlıqla məşğuluq. Bir müddət atam işlədikdən sonra 20 ilə yaxındır təsərrüfata mən rəhbərlik edirəm. Maldarlığı da əlavə etməklə işimizi xeyli genişləndirmişəm. Hər il 50 sentnerdən çox pambıq toplayaraq təhvil verirəm. 50 hektar sahədə pambıq əkirəm və təcrübəm artdığından bol məhsul toplaya bilirəm. Bu il əvvəlki illərə nisbətən məhsuldarlıq yaxşı oldu, hər hektardan 53 sentner toplamışam.

30 hektar ərazidə taxıl əkən fermer iri və xırdabuynuzlu heyvanların sayını da durmadan artırır. Zəhmətkeşliyi və işgüzarlığı ilə seçilən Anar Əhmədov “Tərəqqi” medalı ilə təltif olunmasını əməyinə dövlətin yüksək qiyməti kimi dəyərləndirir. Fermer təsərrüfatını genişləndirmək və bol məhsul toplamaq üçün əzmlə çalışır.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Bakıda əl açanlar Brüsseldə yumruq göstərirlər




**(əvvəli 1-ci səhifədə)**

Aİ-nin Azərbaycanın 5 gəmisinə qarşı sanksiya tətbiq etməsi də məhz sözügedən qərəzin nümunəsidir. Rusiyaya neft daşıyan yeganə gəmi Azərbaycan tankerləri deyil – Yunanıstan və Kipr şirkətlərinə məxsus çoxsaylı tanker gəmiləri də Rusiya neftinin dünya bazarına çatdırılmasında iştirak edir. Lakin Aİ məhz Azərbaycan gəmilərini cəzalandırır.

Rusiyaya qarşı sanksiyalar fonunda Aİ ölkələrinin özlərinin Moskvanın enerji ehtiyatlarından istifadəsi də mübahisəli mövzudur. Xüsusilə Almaniya kimi aparıcı üzv dövlət 2022-ci ilin sonundan etibarən rəsmi embarqolar qüvvədə olsa da, Rusiya neftindən, faktiki olaraq, imtina etmədi. Berlin uzun müddət Rusiya neftinin əsas alıcılarından biri olub və müharibə başlayandan sonra da böyük həcmdə Rusiya mənşəli neft almağa davam edib. Məsələn, beynəlxalq müşahidəçilər bildirirlər ki, Almaniya birbaşa olmasa da, üçüncü ölkələr vasitəsilə və ya emal edilmiş məhsullar şəklində Rusiya neftini idxal etməkdədir. Bu hal Aİ-nin sanksiya rejiminə rəğmən, bəzi üzvlərin öz iqtisadi mənafelərini üstün tutduğunu göstərir.

Bənzər paradoksal vəziyyət təbii qaz ticarətində də müşahidə olunur. Məlumdur ki, Aİ Rusiyadan boru kəməri ilə qaz alışını xeyli azaltmışdı. 2022-ci ildə Moskva Avropaya qaz axınını kəssə də, sonrakı dövrdə Avropa alternativ mənbələrə üz tutdu. Lakin eyni zamanda, Aİ ölkələri Rusiya mənşəli mayeləşdirilmiş təbii qazın (LNG) alışını əhəmiyyətli dərəcədə artırıb. Məsələn, 2024-cü ildə Aİ Rusiyadan ən azı 16,65 milyon ton LNG idxal edib ki, bu rəqəm öncəki illərin göstəricilərini də üstələyir. Bu, ümumi Avropa LNG idxalının təxminən 20 faizinin Rusiyanın payına düşməsi deməkdir və 2023 ilə müqayisədə əhəmiyyətli artımdır.

Rusiyadan LNG tədarükünün rekord səviyyəyə çatması Brüsselin Moskvadan enerji asılılığını azaltmaq cəhdlərinin effektivliyini sual altına qoyur. Halbuki Aİ rəsmiləri 2027-ci ilə qədər Rusiya yanacaqlarından tam imtina hədəfi qoyub. Reallıqda isə Avropanın enerji bazarında Rusiya qazının mövqeyi hələ də güclüdür və bəzi şirkətlər daha ucuz Rusiya qazını digər mənbələrdən üstün tuturlar. Bu da Aİ-nin sanksiyalar fonunda belə iqtisadi maraqlardan tam vaz keçə bilmədiyini göstərir.

### Sanksiyalardan yayınma maxinasiyası

Ukrayna müharibəsi başlayandan sonra Rusiyanın Qərb texnologiyaları və ikili təyinatlı məhsullarla təchizatı tam dayanmadı. Əksinə, Ermənistan kimi ölkələr üzərindən sanksiya olunmuş malların "paralel idxal" marşrutu formalaşdı. Xüsusilə Ermənistan qısa müddətdə Rusiya üçün kritik əhəmiyyətli avadanlıqların əsas tranzit qovşaqlarından birinə çevrilib. 2023-cü ilin ilk 9 ayında Rusiya müharibədə istifadə etdiyi 450 milyon avro dəyərində texnologiyanı müxtəlif yollarla Avropa İttifaqından əldə edib. Bu idxalın təxminən dörddəbiri birbaşa Aİ ölkələrindən gəlmişdisə, qalan hissə məhz Ermənistan və digər üçüncü ölkələr vasitəsilə ötürülüb.

"Bloomberg" agentliyinin hesabatında sanksiyalardan yan keçərək Rusiya ilə ticarət edən ölkələr arasında Ermənistan xüsusi qeyd olunur. Bu ölkələr Avropa mənşəli elektron komponentlər, yüksək texnoloji cihazlar, o cümlədən hərbi təyinatlı avadanlıqları idxal edib təkrar Rusiyaya göndərməklə Moskvanın sanksiyaların təsirini azaltmasına imkan yaradıblar. Nəticədə Ermənistanın idxal-ixrac dövriyyəsi son illərdə kəskin artaraq Rusiya ilə paralel ticarətin mühüm hissəsinə çevrilib.

Bütün bunlara baxmayaraq, Aİ Ermənistanın bu rolu ilə bağlı açıq tənqid və ya sanksiya qərarı verməyib. Brüsselin İrəvana münasibətdə yumşaq davranması, hətta 2023-cü ildə Ermənistana maliyyə yardım paketləri ayırması bir çox dairələrdə sual doğurur. Halbuki eyni dövrdə Aİ Ermənistanın siyasi kursunu dəstəkləməklə yanaşı, onun Rusiyaya qarşı sanksiyaları dolaylı şəkildə pozmasına göz yummuş kimi görünür. Bu vəziyyət Aİ-nin sanksiyalar məsələsində vahid və ədalətli mövqe sərgiləmədiyini göstərir.

Yuxarıdakı faktlar Aİ-nin sanksiya siyasətində ciddi ikili standartların mövcud olduğunu ortaya qoyur. Hətta Avropanın özündə belə etiraf olunur ki, sanksiyaların tətbiqi bəzən qərəzli yanaşmalarla müşayiət olunur və nəticədə bu sanksiyalar kağız üzərində qalır, real təsir göstərmir.

***Ekspert rəyi***



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Ermənistan son illər sanksiyalardan yayınma məqsədilə ən çox reeksport həyata keçirən ölkələrdən birinə çevrilib. Praktiki olaraq, 2024-cü ildə Ermənistanın ümumi ixrac həcmi 13 milyard dollar təşkil edib. Bu dövrdə Rusiyaya ixrac 24 faiz, Birləşmiş Ərəb Əmirliklərinə ixrac isə 40 faiz artıb. Diqqətçəkən əsas məqamlardan biri məhz Rusiya ilə ticarət dövriyyəsindəki kəskin artımdır. Belə ki, 2024-cü ildə Ermənistan Rusiyaya təxminən 300 milyon dollar dəyərində mal ixrac edib və bu artım əsasən reeksport əməliyyatları hesabına baş verib.

Digər tərəfdən, idxal göstəricilərində də nəzərəçarpacaq artım müşahidə olunur. Xüsusilə qeyd etmək lazımdır ki, 2022-ci ildə Ermənistanın reeksport həcmi təxminən 4 faiz artıb. Bütün bu rəqəmlər bir daha göstərir ki, sanksiyalara məruz qalmalı olan tərəflər Azərbaycan şirkətləri və ya Azərbaycan bayrağı altında üzən gəmilər deyil. Əksinə, diqqət sanksiyalardan yayınan və reeksport əməliyyatları həyata keçirən ölkələrin şirkətlərinə yönəlməlidir.

Təəssüf ki, bu məsələdə də ikili standartlar və selektiv yanaşma müşahidə olunur. Belə yanaşma isə heç bir halda region üçün və regional əməkdaşlığın inkişafı baxımından arzuolunan deyil. Bununla belə, Azərbaycan iqtisadiyyatının, xüsusilə də qeyri-neft sektorunun ardıcıl şəkildə gücləndirilməsi istiqamətində həyata keçirilən siyasət davam etdirilir. Bəzi ölkələrin ikili yanaşmalarına baxmayaraq, Azərbaycan beynəlxalq konvensiyalar və qəbul edilmiş qaydalar çərçivəsində digər dövlətlərlə iqtisadi əməkdaşlığın genişləndirilməsini bundan sonra da davam etdirəcək.

***Nurlan ABDALOV***
***XQ***

# Azərbaycandan Ermənistana neft məhsulları yola salındı

**Prezident İlham Əliyevin qərarı ilə oktyabr ayında Azərbaycandan Ermənistana yüklərin tranziti ilə bağlı işğaldan bəri mövcud olan məhdudiyyətlərin aradan qaldırılmasından sonra qonşu ölkəyə yük göndərişi davam edir.**



Dünən Azərbaycanın Dövlət Neft Şirkəti SOCAR tərəfindən ilk dəfə yerli mənşəli neft yükünün Ermənistana tədarükü həyata keçirilib. 22 vaqona yüklənmiş 1220 ton Aİ-95 markalı avtomobil yanacağı ADY-nin yük qatarı ilə Bakı Yük Stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb.

Yük oradan Gürcüstan vasitəsilə Ermənistana çatdırılacaq.

# "Yol verin, yük maşını gəlir"

## *Ağırtonnajlı avtomobillərə "yaşıl işıq" axtarışı*



**Yük avtomobillərinin iştirakı ilə baş verən aşma, toqquşma hadisələri çox ağır fəsadlara yol açır. Xüsusilə ağırtonnajlı avtomobillərin yol açdığı qəzalarda çox vaxt insan tələfatı qaçılmaz olur. Bu cür qəzalar müxtəlif səbəblərdən ola bilər.**

DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin yükdaşıma fəaliyyəti göstərən sürücülərə müraciətində adətən bu tipli qəzaların avtomobilin istirahət rejiminə əməl olunmadan yorğun, yuxusuz, eləcə də nasaz halda idarə edilməsi, yükün düzgün qablaşdırılmaması, sürət həddinin aşılması, kəskin manevr etmə, hərəkət zamanı diqqəti yayındıran hərəkətlərə aludəçilik kimi məsuliyyətsiz davranışlardan qaynaqlandığı bildirilir. Təbii ki, belə hadisələrin baş verməməsi üçün sürücülərin, eləcə də yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin məsuliyyətli davranması son dərəcə vacibdir.

Bununla belə, mövzu ilə bağlı daha bir məsələ də aktuallıq kəsb edir. Bəzi ekspertlərin fikrincə, yük avtomobilləri üçün ayrıca zolaq və marşrutların yaradılması ağır nəqliyyat vasitələrinin digər avtomobillərlə qəza törətməsini minimuma endirər. Bu yanaşma, xüsusən də pik saatlarda yol hərəkətinin daha səliqəli və təhlükəsiz şəkildə tənzimlənməsinə şərait yaradar. Eyni zamanda, yük avtomobillərinin yaşayış ərazilərindən kənara istiqamətləndirilməsi piyadalar və ictimai nəqliyyatdan istifadə edənlər üçün daha etibarlı mühit formalaşdırar.

Qeyd edək ki, hazırda ölkəmizdə bəzi nəqliyyat vasitələrinin daha rahat hərəkət etməsi məqsədilə xüsusi zolaqlar yaradılıb. Ancaq bu zolaqlar yalnız avtobus və velosipedlər üçün nəzərdə tutulub. Hazırda ölkəmizdə yük avtomobilləri üçün ayrıca hərəkət zolaqları və marşurutları tətbiq edilmir. Lakin paytaxt və bəzi iri şəhərlərdə ağır yük maşınlarının hərəkəti qismən nizama salınır. Sözügedən marşrutlar Binəqədi rayonu istiqamətindən başlayaraq "Baksol" deyilən ərazidən keçib Ziya Bünyadov prospektinə birləşir və faktiki olaraq paytaxtın geniş bir hissəsini əhatə edən alternativ yol rolunu oynayır. Hazırda yük avtomobilləri üçün xüsusi hərəkət zolaqları olmasa da, bu cür marşrutların mövcudluğu onların şəhər daxilində hərəkətini müəyyən qədər rahatlaşdırır. Bəzi magistral yollar üzrə isə yalnız gecə saatlarında və ya müəyyən istiqamətlərdə hərəkət icazəsi verilir.

Bəs dünya təcrübəsində bu məsələ necə tənzimlənir?

Dünya ölkələrində yük avtomobillərinin hərəkətini daha təhlükəsiz və nizamlı etmək üçün ayrı zolaqlar və marşrutlar tətbiq olunur. Məsələn, Almaniyada bəzi magistral yolların ağır yük avtomobilləri üçün ayrılmış xüsusi sürət zolaqları var. Həmçinin şəhərlərarası yolların girişində gecə saatlarında yük daşıyan maşınlar üçün xüsusi marşrutlar müəyyən edilir ki, pik saatlarda tıxac yaranmasın.

Amerikada isə Texas, Kaliforniya və Virciniya ştatlarında yalnız yük maşınları üçün zolaqlar yaradılıb. Məsələn, İ-95 magistral yolu boyunca ağır yük avtomobilləri üçün xüsusi hərəkət zolaqları mövcuddur.

Hollandiya isə liman şəhərlərində, xüsusilə Rotterdam və Amsterdam istiqamətində yük avtomobilləri üçün ayrı yollar inşa edib. Bu yollar yük daşımalarını şəhər mərkəzindən uzaqlaşdıraraq piyadalar və ictimai nəqliyyat üçün təhlükəsiz mühit yaradır.

***Ekspert rəyi***



**Eldəniz CƏFƏROV,**
**nəqliyyat üzrə ekspert**

Azərbaycanın regional və beynəlxalq miqyasda mühüm logistika mərkəzinə çevrilməsi nəqliyyat infrastrukturuna yanaşmada yeni və daha strateji həlləri zəruri edir. Qarşıdakı dövrdə yeni avtomobil yollarının, tranzit magistrallarının və nəqliyyat dəhlizlərinin yaradılması planlaşdırıldığı bir şəraitdə iri tonajlı yük avtomobilləri üçün ayrıca zolaqların ayrılması kompleks nəqliyyat siyasətinin məntiqi davamı kimi dəyərləndirilə bilər. Bu, ölkənin formalaşmaqda olan nəqliyyat qovşaqlarının funksional imkanlarını genişləndirməklə yanaşı, beynəlxalq daşıyıcılar üçün də Azərbaycan marşrutunun cəlbediciliyini artırar.

Belə yanaşma, ilk növbədə, yol təhlükəsizliyinin yüksəldilməsinə xidmət edər. Ağırtonajlı yük avtomobillərinin minik nəqliyyatından ayrılması qəza risklərini azaldar, nəqliyyat axınının daha nizamlı və proqnozlaşdırıla bilən şəkildə təşkilinə imkan verər. Eyni zamanda, magistral yollarda hərəkət intensivliyinin düzgün bölüşdürülməsi tıxacların azalmasına və yolun buraxılış qabiliyyətinin artmasına şərait yaradar.

Digər mühüm məqam yol infrastrukturunun qorunması ilə bağlıdır. İri tonajlı nəqliyyat vasitələrinin yaratdığı yük əsasən yol örtüyünün tez aşınmasına səbəb olur. Ayrı zolaqların tətbiqi yolun texniki istismar müddətini uzadar, təmir və bərpa xərclərinin azalmasına gətirib çıxarar.

***Musa BAĞIRLI***
***XQ***

# "Ağ qızıl" Tərtərə ağ günlər gətirir

**Respublikamız üçün ənənəvi sahələrdən olan pambıqçılığa dövlət dəstəyi bu sahənin inkişafına stimul verir. Prezident İlham Əliyevin pambıqçılığın inkişafına dair imzaladığı sərəncamların uğurlu icrası nəticəsində bu gəlirli sahə özünün əsl dirşəliş dövrünü yaşayır. Xam pambığın alış qiymətinin artırılması, eyni zamanda, verilən subsidiyalar fermerlərin bu sahəyə marağını daha da artırır.**

İqtisadiyyatının əsasını aqrar sahənin təşkil etdiyi Tərtər rayonu hər zaman olduğu kimi, yenə də ənənəvi kənd təsərrüfatı məhsullarının istehsal həcminə görə ön sıralarda qərar tutur. Rayonda pambıqçılığın inkişafı da daim diqqət mərkəzində saxlanılır. Fermerlər cari ilin məhsulu üçün 3 şirkətlə müqavilələr bağlamışlar. "Prime Cotton" MMC tərəfindən 309 istehsalçı ilə 1090 hektar, "Azərpambıq ASK" MMC ilə 270 fermer arasında 1323 hektar, "Elakoton" MMC tərəfindən 2 fermer ilə 384 hektar ərazi üçün müqavilələr imzalanmışdır. Ümumilikdə bu günədək rayon ərazisində 2794.2 hektar sahədə yığım aparılaraq 10384,8 ton məhsul əldə olunmuşdur. Orta məhsuldarlıq 37.7 sentner təşkil edir.

Rayon ərazisində fəaliyyət göstərən **"Prime Cotton" MMC şirkətinin əməliyyat direktoru Vilayət Şairov** bildirdi ki, müəssisədə 60 nəfər daimi işlə təmin olunub, 40 nəfər isə mövsümi işlərə cəlb olunur. Filial fermerlərlə bağladığı müqavilələrə əsasən torpağın şumlanmasından başlayaraq, məhsul yığımınadək bütün prosesləri həyata keçirir. Ehtiyac duyulduğu halda, fermerlərə toxum almaq və başqa işləri yerinə yetirmək üçün avans formasında vəsait də verilir. Müəssisə bütün növ kənd təsərrüfatı texnikaları ilə tam təchiz olunmuşdur.

Sevindirici haldır ki, bu təsərrüfat ilində havalar iqlim normasına uyğun keçdi. Becərilmə işləri uğurla davam edir, nəticədə məhsul yığımı optimal müddətdə aparılır. Sentyabr ayının 24-də sahələrdə defolyasiyaya başlanıb, oktyabrın 14-dən isə "ağ qızıl" yığımına start verilib. Pambıq yığımının tez və itkisiz başa çatdırılması üçün bütün qüvvələr səfərbər olunmuşdur.

Yığım əsasən kombaynlarla aparılır. Hazırda 1-ci üz yığım sona çatmış, hər hektardan ortalama 36 sentner xam pambıq əldə olunmuşdur. Artıq 2-ci üz yığıma başlanmışdır. 100 hektar sahədə pambıq yığımı baş tutacaq. Havalar əlverişli keçərsə, təxminən, 10 günə 2-ci üz yığım da başa çatdırılacaq. Mütəxəssislər 2-ci üz yığımdan da yüksək məhsuldarlıq proqnozlaşdırırlar.



Əldə olunan məhsul pambıq emalı zavodlarına təhvil verilir. Orada xam pambıq çeşidlənir, alınan mahlıc kip şəklində həm yerli, həm də bir sıra xarici ölkələrə ixrac olunur ki, bu da ölkəyə valyuta axınına səbəb olur. Məhsul yığımı başa çatmamış növbəti təsərrüfat ilinə hazırlıq işlərinə başlanılır. Səpin aparılacaq sahələr seçilir, pambığa yararlı sahələrdə işlər aparılır. Sahələrdə əsasən qardaş Türkiyədən gətirilmiş "Bəyaz Altun", "Lazer", "May" və digər lifsiz toxumların səpini aparılır.

Müsahibimiz bildirdi ki, bu toxumlar xəstəliyə davamlı, yüksək məhsuldar, tez yetişən, eyni zamanda, vegetasiya dövrü az olan məhsullar verir. Məhsul tez və itkisiz, havalar soyuyanadək yığılıb başa çatır. Vilayət Şairov bir məsələni xüsusilə vurğuladı ki, işğal dövründə Tərtərdə, eləcə də bölgədə suvarma suyu ilə bağlı həddindən artıq çətinliklər yaşanırdı. Belə ki, ermənilər strateji əhəmiyyəti olan "Sərsəng" və "Suqovuşan" su anbarlarından istədikləri kimi istifadə edirdilər, qış aylarında qəsdən suyu çaylara buraxır, isti havalarda isə suvarmaya böyük ehtiyac duyulduğu zamanlarda suyun qarşısını kəsirdilər. Torpaqlarımız, o cümlədən, adıçəkilən obyektlər işğaldan azad olunduqdan sonra suvarmada mövcud olan problemlər aradan qaldırıldı. Hazırda sudan səmərəli istifadə edilməklə əkinçilikdə yüksək məhsuldarlıq əldə olunur.

**Gənc və qabaqcıl fermer Mirsərvər Müseyibli** əldə etdiyi nailiyyətlərdən bəhs edərək bildirdi ki, 2025-ci ilin məhsulu üçün 5 hektar sahədə çiyid səpini aparılmışdır. "Prime Cotton" MMC şirkətinin həyata keçirdiyi yüksək aqrotexniki qulluq sayəsində hər hektardan 50 sentner yüksəkkeyfiyyətli xam pambıq əldə olunmuşdur. Becərmə dövründə 30-35 nəfər günəmuzd işçi çalışmışdır. Gənc fermer 2026-cı təsərrüfat ilində 8 hektar sahə üçün şirkətlə müqaviləni artıq imzalayıb.

***Vəli VƏLİYEV***
***XQ***

# Leyla Əliyeva ÜST-nin xüsusi nümayəndəsi ilə görüşüb





**Dekabrın 18-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin İqlim və Sağlamlıq üzrə xüsusi nümayəndəsi Robb Butler ilə görüşüb.**

Görüşdə Leyla Əliyevaya iqlim və sağlamlıq sahəsində göstərdiyi səmərəli xidmətlərə, COP29 çərçivəsində fəal iştirakı və maarifləndirmə fəaliyyətinə, eləcə də ÜST-nin Pan-Avropa Səhiyyə və İqlim Komissiyasının fəaliyyətinə verdiyi dəstəyə görə Ümumdünya Səhiyyə Təşkilatının xüsusi mükafatı təqdim olunub.

Söhbət zamanı IDEA İctimai Birliyi tərəfindən iqlim dəyişikliyinin mənfi təsirlərinin azaldılması istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verilib, bu sahədə ÜST ilə Azərbaycan arasında mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

Tərəflər Xəzər dənizinin səviyyəsinin enməsinin ekoloji və insan sağlamlığına potensial təsirləri barədə fikir mübadiləsi aparıb, bu istiqamətdə birgə təşəbbüslər və beynəlxalq çağırışların gücləndirilməsi imkanlarını, o cümlədən Azərbaycanın ÜST-nin "Sağlam şəhərlər" şəbəkəsinə qoşulması perspektivlərini müzakirə ediblər. Bununla yanaşı, təmiz havanın insan sağlamlığına təsiri, havanın çirklənməsinin azaldılması və bu sahədə maarifləndirmə tədbirlərinin gücləndirilməsi məsələləri müzakirə olunub.

***XQ***

# "ASAN məktub" sosial proqramının 10 yaşı tamam olub





**Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində "ASAN məktub" sosial proqramının 10 illiyinə həsr toplantı keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva məclisdə iştirak edib.**





ASAN könüllüləri, sosial qayğıya ehtiyacı olan uşaqlar və digər qonaqların da iştirak etdiyi mərasim "ASAN xidmət" və "Bilim Bakı" mərkəzləri ilə tanışlıqla başlayıb. Qonaqlara 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin fəaliyyəti, həmçinin "ASAN xidmət" mərkəzləri və dövlət xidmətlərində tətbiq olunan innovativ həllər barədə məlumat verilib, hazırda Azərbaycanın intellektual məhsulunun 30-dan çox ölkəyə ixrac edildiyi bildirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "ASAN məktub" ağacındakı məktublardan birini öhdəliyə götürüb.

Səyyar ASAN xidmət avtobusu ilə tanışlıq çərçivəsində diqqətə çatdırılıb ki, əsas məqsəd dövlət xidmətlərinin hər kəs üçün daha rahat, innovativ üsullarla və əlçatan şəkildə təqdim edilməsidir. "Bilim Bakı" mərkəzinin fəaliyyəti də maraqla qarşılanıb.

Mərasimin rəsmi hissəsi "ASAN məktub" sosial proqramının 10 illik fəaliyyətinə dair videoçarxın nümayişi ilə başlayıb. Məlumat üçün bildirilib ki, "ASAN könüllüləri" təşkilatının "ASAN məktub" sosial proqramı 3–14 yaşarası sosial qayğıya ehtiyacı olan uşaqların arzularını reallaşdırmaq, onlara sevinc, diqqət və qayğı bəxş etmək məqsədilə 2015-ci ildən həyata keçirilir.

Proqram çərçivəsində bu günədək 56 region 10 min 512 məktuba uyğun arzular gerçəkləşdirilib.

Qonaqlara "Bir qəlbi də sən isit" layihəsi haqqında da məlumat verilib.

Sonra "ASAN könüllüləri"nin "Mədəniyyət carçısı" proqramı çərçivəsində musiqi ifa edilib, rəqs nümayiş olunub. 1, 2 və 3 saylı Uşaq evi sosial xidmət müəssisələrindən və Sosial Xidmət mərkəzlərindən olan uşaqlara müxtəlif hədiyyələr təqdim edilib.

Leyla Əliyeva "ASAN məktub", "Yaşıl ASAN" və "ABAD" stendlərinə də baş çəkib.

Mərasim Dövlət Agentliyinin həyətində təşkil edilən ağacəkmə aksiyası ilə davam edib.

***XQ***

# Memarlıq və İnşaat Universitetinin yubiley mərasimi

**Dünən Azərbaycan Memarlıq və İnşaat Universitetinin yaradılmasının 50 illik yubileyi münasibətilə "Gülüstan" sarayında təntənəli yığıncaq keçirilib.**



Mərasimin əvvəlində ali məktəbin yarıməsrlik uğurlarını əks etdirən "Təhsil və irs" sərgisinə baxış keçirilib.

Yubiley məclisində məruzə ilə çıxış edən AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova bildirib ki, 50 illik yubiley universitetin keçdiyi şərəfli yola, formalaşdırdığı elmi məktəbə və ölkənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə nəzər salmaq üçün bir fürsətdir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmizin hərtərəfli inkişaf dinamikasının daha da sürətləndiyini vurğulayan rektor, son illərdə təhsil sahəsində həyata keçirilən islahatlara diqqət çəkib.



Professor Gülçöhrə Məmmədova 50 il ərzində universitetdən 70 mindən çox memar, inşaat, nəqliyyat, hidrotexniki və meliorativ tikinti mühəndisinin məzun olduğunu deyib: "Respublikanın, demək olar ki, bütün iri tikinti layihələrində, şəhərsalma planlaşdırılmasında, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasında AzMİU məzunlarının imzası var. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərinin əsas icraçıları, layihə rəhbərləri, sahə mühəndisləri də məhz bizim məzunlardır. Bu fakt bir daha sübut edir ki, AzMİU yalnız təhsil müəssisəsi deyil, ölkənin inkişaf strategiyasının həyata keçirilməsində rolu olan milli intellekt mərkəzidir".

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında Azərbaycan Memarlıq və İnşaat Universitetinin ölkənin mühəndislik və memarlıq potensialının formalaşmasında aparıcı ali təhsil ocaqlarından biri kimi mühüm rol oynadığını vurğulayıb. Nazir qeyd edib ki, universitetin çoxillik elmi-pedaqoji ənənələri, müasir əmək bazarının tələblərinə uyğun kadr hazırlığı və innovativ yanaşmaları AzMİU-nu ölkənin strateji təhsil mərkəzlərindən birinə çevirib.

Nazir AzMİU-nun mühüm sosial və strateji layihələrdə fəal iştirakını xüsusi qeyd edib. Bildirib ki, Kəlbəcər şəhərində orta məktəbin tikintisi, eyni zamanda, Qarabağ Universitetinin inşası zamanı AzMİU-nun mühəndislərinin göstərdiyi fəallıq bu gün 50 illiyini qeyd edən ali təhsil ocağının işğaldan azad olunmuş ərazilərin bərpasına verdiyi töhfənin bariz nümunəsidir.

Yubiley münasibətilə universiteti təbrik edən qonaqlar çıxış edib, AzMİU-nun ötən illər ərzində qazandığı zəngin təcrübə və formalaşdırdığı güclü elmi-tədris mühiti barədə ətraflı söz açıblar.

Mərasimdə AzMİU-nun 50 illik inkişaf yolunu, elmi-pedaqoji nailiyyətlərini və gələcək strateji hədəflərini əks etdirən təqdimat filmi nümayiş etdirilib.

***XQ***

***Xuntaçıların məhkəməsi***

# Vardanyana təqsirləndirildiyi əməllərə görə ittiham elan olunub

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 18-də davam etdirilib.**




Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasının əvvəlində təqsirləndirilən şəxs Ruben Vardanyan müdafiəçisi ilə məhkəmə zalında danışmaq istədiyini deyib.

Sədrlik edən onun vəsatətini təmin edib. Təqsirləndirilən şəxs müdafiəçisi Emil Babışov ilə danışdıqdan sonra ittiham tərəfi çıxış edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışında xatırladıb ki, Vardanyan Ruben Karlenoviçin təqsirləndirilməsinə dair cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb. Bir ilə yaxın müddət ərzində çoxsaylı məhkəmə iclasları keçirilib, sənədlər və sübutlar tədqiq edilib, zərərçəkmiş şəxslər və şahidlər dindirilib. İttiham tərəfi hesab edir ki, hazırkı proses üzrə təqsirləndirilən şəxsin törədilmiş çoxsaylı cinayət əməlləri üzrə təqsiri təqdim edilmiş sübutlar əsasında öz təsdiqini tapıb.

İttiham tərəfi bildirib ki, Ermənistan işğal etdiyi Azərbaycan Respublikasının suveren ərazilərində formalaşdırdığı cinayətkar birliyə R.Vardanyanın qoşulana qədər və həmin mərhələdən sonrakı müddətlərdə törədilmiş cinayətlərdən bəhs ediləcək. V.Əliyev deyib: "Bütün bunlar ona görə vacibdir ki, Ruben Vardanyan qeyd edilən cinayətkar birliyə qoşularkən əməlinin ictimai təhlükəliliyini başa düşür, bu cinayətkar təşkilat tərəfindən Azərbaycan dövlətinə və xalqına qarşı hansı cinayətlərin törədildiyini bilir, həmin cinayətlərin törədilməsinə növbəti mərhələlərdə davam edirdi".

Prokuror çıxışının davamında R.Vardanyanın Xankəndi şəhərində yerləşmiş ofisinə baxış keçirilməsi barədə 26.10.2023-cü il tarixli baxış protokolu, əməliyyat məlumatları və digər sənədlərə istinad edərək bildirib: "Həmin sənədlərlə təsdiq edilib ki, təqsirləndirilən şəxs 2020-ci ilin dekabr ayının əvvəllərində cinayətkar birliyə qoşulub".

Keçirilmiş əməliyyat tədbirləri zamanı V.Vartanovun mütəmadi əlaqə saxladığı R.Vardanyanla "VoMa" terror təşkilatında döyüşçülərin və təlimatçıların hazırlanması, təlimlərin təşkili və bununla da Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələrinin Azərbaycan Silahlı Qüvvələrinə qarşı terror aktlarını törətmələri və döyüşlərdə iştirak etmələrinə dair müzakirələr apardıqları, eləcə də bu terrorçu təşkilatın və onların üzvlərinin maliyyələşdirilməsini R.Vardanyanın öz üzərinə götürdüyü müəyyən edilib.

Prokuror bildirib ki, R.Vardanyana elan edilmiş növbəti ittiham Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçməsi ilə bağlıdır. R.Vardanyan Xankəndiyə gəldikdən sonra onun maliyyələşdirməsi nəticəsində Vətən müharibəsində Azərbaycan Respublikasının Ermənistanın işğalından azad etdiyi suveren ərazilərinin hüdudlarında minalanma işləri aparılmağa başlanıb. Onun maliyyələşdirməsi ilə Xankəndi ətrafında hərbi anbarlar təşkil edilib. Həmin anbarlarda onun muzdla saxladığı Ermənistandan gələn hərbçilər, Qarabağdan seçdiyi hərbçilər fəaliyyət göstərib. Anbarlara R.Vardanyan tərəfindən gətirilmiş xeyli sayda silah və döyüş sursatları, habelə pilotsuz kvadrakopterlər və digər pilotsuz uçuş aparatları yerləşdirilib.

Qeyd edilib ki, R.Vardanyana elan edilmiş və məhkəmə iclasında tədqiq edilmiş sübutlarla öz təsdiqini tapmış növbəti ittiham "Nemezis-2" terror əməliyyatının başlanılması təşəbbüsünü irəli sürməsi ilə bağlı olub.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışının davamında təqsirləndirilən şəxsə ittiham olunduğu hər bir cinayət əməlinə görə təyin edilməli cəzaya dair dövlət ittihamını müdafiə edən prokurorların təkliflərini səsləndirib.



V.Əliyev təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndlərin çıxarılmasını, irəli sürülmüş bəzi ittihamlarla müqayisədə təqsirləndirilən şəxsin əməllərinin daha yüngül məsuliyyət nəzərdə tutan cinayət qanununun norması ilə tövsif edilməsini məhkəməyə təklif edib.

Təklif olunub ki, Vardanyan Ruben Karlenoviç Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə hücum etmə, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə cinayətlərinə görə az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə qəti olaraq ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilsin. Cəzasını həbsxanada çəksin.

Cəzaçəkmə müddətinin başlanğıcı tutulduğu vaxtdan – 2023-cü il sentyabrın 27-dən hesablansın. Onun barəsində seçilmiş həbs qətimkan tədbiri hökm qanuni qüvvəyə minənədək dəyişdirilməsin.

Məhkəmənin növbəti iclası dekabrın 26-na təyin olunub.

***XQ***

*Azərbaycanda Özbəkistan Mədəniyyət Günləri*

# Qardaşlığın mədəni təntənəsi

**Xəbər verdiyimiz kimi, ölkəmizdə dekabrın 14-də Heydər Əliyev Mərkəzindən start götürən Özbəkistan Mədəniyyət Günləri davam edir.**

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Özbəkistan Respublikasının Mədəniyyət Günləri çərçivəsində təşkil edilən konsert proqramı öz parlaq və yaddaqalan məzmunu ilə seçilib.

Bu mədəni layihə Azərbaycanla Özbəkistan arasında mövcud olan yaradıcılıq əlaqələrinin inkişafı və qarşılıqlı mədəni əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşımaqla Özbəkistan Dövlət Simfonik Orkestrinin ifasında təqdim olunub. Orkestrin bədii rəhbəri və baş dirijoru, Azərbaycanın "Dostluq" ordeninə layiq görülmüş, Özbəkistanın Xalq artisti Kamoliddin Urinbayev konserti yüksək peşəkarlıq və zövqlə idarə edib. Konsert proqramı orkestrin ifasında M.Hacıyevin "Bayram uvertürası" ilə açılıb. Əsərin enerjili ritmi və bayram ovqatı ilk andan zalda xüsusi əhvali-ruhiyyə yaradaraq dinləyiciləri öz təsiri altına salıb.








Proqramın davamında Əməkdar artist Sahib Paşazadənin (tar) iştirakı ilə Hacı Xanməmmədovun tar və orkestr üçün 2 nömrəli konsertinin II və III hissələri səsləndirilib. Solistlə orkestrin vəhdətdə nümayiş etdirdiyi texniki dəqiqlik və emosional dərinlik ifanı dinləyicilər üçün daha təsirli edib və təqdimat alqışlarla qarşılanıb.

Sonrakı nömrədə Xalq artisti Yeganə Axundovanın (piano) solist kimi iştirakı ilə Fikrət Əmirov və E.Nəzirovanın piano və orkestr üçün yazdığı "Ərəb mövzularına konsert" əsərinin final hissəsi ifa olunub. Əsərin melodik zənginliyi, milli çalarları və virtuoz piano partiyası konsertə xüsusi bədii rəng qatıb.

Proqram dünya simfonik musiqisinin şah əsərlərindən biri – Rimski-Korsakovun "Şəhrizad" simfonik süitası ilə yekunlaşıb. Bu əsər Şərq nağıllarının poetik ruhunu əks etdirərək orkestrin şəffaf, dəqiq və yüksək peşəkarlıqla səsləndirdiyi ifada tamaşaçılara unudulmaz musiqi təəssüratı bəxş edib.

***

**Dekabrın 18-də isə Azərbaycanda keçirilən Özbəkistan Mədəniyyət Günləri ilə bağlı ölkəmizdə səfərdə olan qonaqlar Şuşa şəhərinə səfər ediblər.**

Şuşanın tarixi, Azərbaycanın mədəniyyət və ədəbiyyatına bəxş etdiyi şəxsiyyətlər, Ermənistanın işğalı altında olduğu müddətdə şəhərin tarixi-mədəni irsinə qarşı həyata keçirilən vandalizm barədə qonaqlara ətraflı məlumat verilib. Bildirilib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun misli görünməmiş qəhrəmanlığı nəticəsində şəhər 28 illik işğaldan azad edilib. Qısa müddət ərzində şəhərdə sürətli bərpa-quruculuq işləri aparılıb, tarixi və dini abidələr yenidən qurulub, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma yurda qayıdışı təmin olunur.

Şuşa şəhərinin 2023-cü ildə Türk dünyasının, 2024-cü ildə isə İslam dünyasının "mədəniyyət paytaxtı" missiyasını uğurla yerinə yetirdiyi də nümayəndə heyətinin diqqətinə çatdırılıb.

Səfər çərçivəsində şəhərdə Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri, Natəvanın evi, Natəvan bulağı, Şuşa qalası, Yuxarı Gövhər Ağa məscidi və Bülbülün ev-muzeyi ilə tanışlıq olub. Şuşanın tarixi-mədəni və dini məkanları, təbii zənginlikləri özbək qonaqlarda unudulmaz təəssürat yaradıb.

Belə səfərlər qardaş xalqlar arasında mədəni bağların və dostluğun daha da möhkəmlənməsinə töhfə verir.

***

**Azərbaycanda keçirilən Özbəkistan Mədəniyyət Günlərinə dekabrın 18-də Füzuli şəhər Mirzə Uluqbəy adına məktəbdə yekun vurulub.**

Özbəkistan Mədəniyyət Günləri ilə bağlı qardaş ölkənin Mədəniyyət Nazirliyinin rəhbər heyəti, tanınmış incəsənət nümayəndələri və aparıcı bədii kollektivləri Füzuliyə gəliblər. Qonaqlar şəhəri ziyarət ediblər.

Sonra Özbəkistan Mədəniyyət Günlərinin bağlanış mərasimi keçirilib. Bildirilib ki, mədəniyyət günlərinin məqsədi Özbəkistanla Azərbaycan arasında dostluq əlaqələrini daha da möhkəmləndirmək, humanitar əməkdaşlığı inkişaf etdirmək və iki ölkə arasında mədəni dialoqu genişləndirməkdir.

Mirzə Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəbdə təşkil olunan mədəniyyət günlərinin bağlanış mərasimində geniş bədii proqram təqdim edilib. Konserti Özbəkistan mədəniyyət nazirinin birinci müavini Bahadur Əhmədov, Azərbaycan mədəniyyət nazirinin müavini Murad Hüseynov və Füzuli şəhər sakinləri izləyiblər.

Xatırladaq ki, daha əvvəl 2023-cü ildə Bakıda Özbəkistan Mədəniyyət Günləri, 2024-cü ildə isə Daşkənddə Azərbaycan Mədəniyyət Günləri keçirilib.

***Ləman TƏHMƏZ***
***XQ***

*Türk dünyası vahid ailədir*

# 2 min 500 yaşlı Babur şəhəri

## *Əndican 2026-cı ildə Türk dünyasının mədəniyyət paytaxtı olacaq*






**Türk xalqları arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələr genişlənir. Budəfəki söhbətimiz qardaş toplumları bir-birinə bağlayan "mədəniyyət körpüsü" – TÜRKSOY-un təşəbbüsü ilə uğurla həyata keçirilən "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi barədədir.**

TÜRKSOY-un Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım qurumun bu günlərdə Aktauda keçirilən 42-ci məclisində vurğulayıb ki, bu gün türk xalqlarının yaşadığı böyük bir coğrafi məkanda inşa edilən yollar, körpülər, limanlar gözlə görünən maddi əsərlərdir, amma mədəniyyətlər hər bir xalqın, millətin həm dünənini, həm də sabahını özündə ehtiva edir.

Görkəmli ziyalımız Xudu Məmmədov hesab edirdi ki, yeniyetmə və gəncləri yeri gəldi–gəlmədi türkçü, vətənpərvər olmağa səsləməyə ehtiyac yoxdur: "Biz Vətəni gənclərimizə yaxından tanıtsaq, özləri bu torpağa, milli dəyərlərə sahib çıxacaqlar". Xoşbəxtlikdən, TÜRKSOY və digər bu qəbildən olan qurumlar son illər türk xalqlarının birlik və həmrəyliyini gücləndirmək naminə bir çox dəyərli layihələr icra edirlər.

Qazaxıstanın Aktau şəhəri 2025-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını başa çatdırmaq üzrədir. Bununla bağlı bu günlərdə "Aktau Xalq Sarayı"nda keçirilən bağlanış toplantısında çıxış edən Qazaxıstanın mədəniyyət və informasiya naziri Aida Balayeva bildirib ki, bu layihə çərçivəsində ilboyu türk dünyasının teatr və opera tamaşaları, yeni kinofilmləri uğurla nümayiş olunub, türkdilli xalqların tətbiqi sənət və folklor nümunələri və s. sərgilənib.

Yeri gəlmişkən, Türk Dövlətləri Təşkilatının (TDT) mədəniyyət nazirləri Aktauda Özbəkistanın Əndican şəhərini 2026-cı il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan ediblər. Beləliklə, türkçülüyün 2025-ci ildə Aktauda alovlanan məşəli 2026-cı ildə Əndicanda gur şölə saçmaqda davam edəcək! Bəli, biz birlikdə daha güclüyük!

Aktauda təntənəli bağlanış mərasimində TÜRKSOY-un "Mədəniyyət paytaxtı bayrağı" tamaşaçıların gurultulu alqışları altında Əndican şəhərinin bələdiyyə başqanı Elyorbek Karimova təqdim edilib. Elyorbek bəy, öz növbəsində, fəxrlə bəyan edib ki, təkcə Əndican sakinləri deyil, bütün 37 milyonluq Özbəkistan bu yüksək etimaddan sonsuz qürur duyurlar və qardaş türk xalqlarının dostluq və həmrəylik əlaqələrinin güclənməsinə öz layiqli töhfələrini verməyə hazırdırlar.

Xatırladaq ki, Əndican şəhəri Özbəkistanın ən qədim şəhərlərindəndir. Qədim İpək Yolunun üzərində yerləşən şəhərin 2 min 500 yaşı olduğu ehtimal edilir. Əndican erkən və orta əsrlərdə regionun ən inkişaf etmiş şəhərlərindən olub. Buradan bir çox görkəmli elm və mədəniyyət xadimləri, irfan sahibləri çıxıb. Əndican Böyük Moğol İmperiyasının qurucusu Baburun doğulduğu şəhərdir. Özbəklər bu gün də bu faktı xüsusi vurğu ilə qeyd edirlər.

Təəssüf ki, Əndican ağır sınaqlarla da üzləşməli olub. 1902-ci ildə şəhərdə XX əsrin ən böyük zəlzələlərindən biri baş verib. O dövrün sənədlərində qeyd olunur ki, zəlzələ o qədər güclü olub ki, torpaq, sanki, insanların ayaqları altından qaçırmış. 40 mindən çox bina dağılıb, minlərlə insan həlak olub. Amma XIII əsrdə inşa edilmiş 32 metr hündürlüyündə minarəli cümə məscidi salamat qalıb. Yerli sakinlər bunu uca Yaradanın şəhərin inanclı sakinlərinə mərhəməti və lütfü sayıblar.

Özbəkistan hökuməti hazırda Əndicanın abadlaşması və turizm mərkəzlərindən birinə çevrilməsi üçün çalışır. Şəhər, həqiqətən, inkişafının yeni mərhələsini yaşayır. Bu gün şəhərin çox sayda park və xiyabanlarını tər, təzə güllər, əlvan çiçəklər bəzəyir. Burada becərilən subtropik ağaclar və ekzotik bitkilər, hətta qış aylarında belə öz yaşıl libaslarını "soyunmur". Əhalinin sayının isə artıq yarım milyona çatdığı bildirilir.

Qeyd edək ki, bu vaxta qədər "Türk dünyasının mədəniyyət paytaxtı" adını TDT-yə üzv ölkələrin 13 şəhəri daşıyıb. 2023-cü ildə milli mədəniyyətimizin tacı olan, gözəl və bənzərsiz Şuşa şəhəri "Türk mədəniyyəti paytaxtı" olub. Yadımdadır, həmin il bir yaz səhəri Şuşanı ziyarət edəndən sonra Bakıya qayıdan qazaxıstanlı şairə-publisist Nasiha Gumarqızı "Xalq qəzeti"nə verdiyi eksklüziv müsahibədə fəxrlə qeyd etdi ki, "Şuşanı həyatında bir dəfə görmək kifayət edər ki, onu ömrün boyu heç vaxt unutmayasan!".

Şuşada böyük Üzeyirin, Natəvanın, Bülbülün ruhu yaşayır. Burada 5 il əvvəl igid Azərbaycan əsgər və zabitləri türkün "Çanaqqala" zəfərinə bənzər böyük bir qəhrəmanlıq dastanı yazıblar. Şuşa indi bütün türk dünyasının qürur mənbəyidir. Müstəqil türk dövlətləri öz istiqlal və suverenliklərini göz bəbəyi kimi qorumağa hazırdırlar. Azərbaycanın parlaq örnəyi hamını açıq və gizli bütün xarici təhdidləri dəf etməyə ruhlandırır.

Qarabağdan söz düşmüşkən, xatırladaq ki, bu il dekabrın 14-də Heydər Əliyev Mərkəzində açılışı olan Özbəkistan Mədəniyyəti Günlərinin bağlanış mərasimi özbək qardaşlarımız tərəfindən 2023-cü ildə Füzuli şəhərində tikilib istifadəyə verilən Mirzə Uluqbəy adına tam orta məktəbdə keçiriləcək. Bu günün reallığı budur: azad Qarabağın dirçəlib bərpa edilməsi üçün bütün türk xalqları öz səylərini əsirgəmirlər!

Böyük xalqlar böyük mədəniyyətlər, sivilizasiyalar yaradırlar. Bu, bir həqiqətdir ki, türk xalqları özlərinin mədəni inkişafının yeni intibah dövrünə qədəm basıblar. Türklərin heç bir ölkənin torpağında gözü yoxdur, əksinə, regiondakı bütün xalqlara dost kimi qucaq açmağa hazırdırlar.

Biz türklər deyirik: "Həyat ən müxtəlif dillərdə danışan, yaşayıb-yaratmaq haqqı olan bütün xalqların dostluğu, fərqli mədəniyyətlərin inteqrasiyası ilə gözəldir! Qoy, Yer kürəsinin hər bir guşəsində ölüm və fəlakətlər saçan silahlar birdəfəlik sussun, əbədi sülh və dostluq bərqərar olsun! Böyük Turandan boy verən yeni türk sivilizasiyasının bəşəriyyətə mesajı məhz budur!

***Məsaim ABDULLAYEV***
***XQ***

### *Ekspert rəyi*



**Şahbaz ŞAMIOĞLU,**
**siyasi icmalçı,**
**Bakı Slavyan Universitetinin professoru**

– Qeyd edək ki, Azərbaycan, qazax, qırğız, özbək, türkmən, tatar, başqırd, bir sözlə, bütün türk xalqlarını ümumtürk kimliyi, ortaq mədəni dəyərlər, əsrlərdir davam edən ədəbiyyat və sənət mübadiləsi birləşdirir. Təqdirəlayiq haldır ki, bu gün türk xalqları mədəniyyətlərinin yaxınlaşmasına xidmət edən TÜRKSOY çərçivəsində münasibətlər dövlət başçılarımızın uzaqgörən siyasəti və şəxsi dostluqları sayəsində strateji müttəfiqlik zirvəsinə yüksəlib.

Əndican şəhərinin 2026-cı il üçün "Türk dünyası mədəniyyət paytaxtı" seçilməsi, əlbəttə, müsbət haldır. Türk xalqları tarix boyu 26 böyük dövlət və nəhəng imperiyalar qurublar. Türklər dünya siviliza-Asiyasına böyük töhfələr veriblər. Bu xalqların bir-birinə yaxınlaşaraq vahid bir güc mərkəzi yaratmaları bu təlatümlü dönəmdə hava, su kimi vacibdir.

Qeyd etmək lazımdır ki, Özbəkistan qədim və zəngin mədəniyyətə malikdir. Əhalisinin sayına görə, türk dövlətləri içərisində Türkiyədən sonra ikinci yerdədir. Özbəkistan TDT-nin aparıcı üzvüdür. Qurumun işində fəal iştirak edir. Prezident Şavkat Mirziyoyevin liderliyi ilə Özbəkistanın türk dövlətləri və xalqları ilə siyasi, iqtisadi, mədəni əlaqələri sürətlə genişlənir.

Xüsusi qeyd etmək istəyirəm ki, özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvai dahi Nizami Gəncəvinin əsərlərindən ilham almış, Nizamini "şairlərin şahı" adlandırmışdır. O, Nizamiyə tamamilə layiq olduğu belə yüksək qiymət verirdi. Bu gün ədəbi, mədəni əlaqələrimiz də güclənir. Bu cəhət də alqışa layiqdir!

*Təqvim yada salır*

# Şən gülüşlərin Gülşəni

**İnanmaq çətindir ki, artıq onun 75 yaşı tamam olur. İşıqlı dünyanı nisbətən erkən tərk etdiyi üçündür ki, Gülşən Qurbanova yaddaşlarda cavan qalıb. AzTV-də çalışdığım vaxtlarda onu studiyalarımızda tez-tez görürdüm. Daim şən səs-küyü, zarafatları, bir sözlə, gənclik ruhu ilə hər kəsi özünün nikbin aurasına sala bilirdi. Oynaq improvizələri isə yaratdığı obrazların "dadını-duzunu" daha da artırırdı.**



Gülşən Qurbanova 19 dekabr 1950-ci ildə Bakıda dünyaya göz açıb. Atası məşhur aktyor, Xalq artisti Ağadadaş Qurbanov, bacısı kino rəssamı, Əməkdar incəsənət xadimi Firəngiz Qurbanova, atabir qardaşı Əməkdar artist Hamlet Qurbanov olub. Bu mühit onu da yaradıcı sənətə – teatr və kinoya ömürlük bağlayıb.

İncəsənət İnstitutunu bitirəndən sonra aktrisa uzun illər Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərib. Həmkarı – aktyor Mübariz Əlixanoğlu ilə ailə qurub. Görünən budur ki, həyatda da, sənətdə də daim teatr və kino aləmində olub. Xarakteri adına uyğun gələn nikbin, həyatsevər Gülşən xanımın bu məziyyətləri oynadığı bir sıra rollarda özünü göstərib. Onun həyat balladası nikbin notların harmoniyasından ibarət idi.

Ümumi götürdükdə isə Gülşən Qurbanova həm yumoristik, həm də ciddi rolların öhdəsindən eyni ustalıqla gələn sənətkarlardan olub. Yaratdığı obrazlar – Mərcan ("Mənim nəğməkar bibim", Ə.Əylisli), Eyzəngül ("Şirinbala bal yığır", S.Qədirzadə), Çiçək ("Ana laylası", İ.Coşqun), Nabat ("Tamahkar", S.S.Axundov), Şahnaz ("Şəhərli oğlan", Q.Rəsulov), Almagül ("Fudzi dağında qonaqlıq", Ç.Aytmatov), Gülarə ("Məhəbbət novellası", Ş.Xurşud və Ə.Hacıyev), Nera ("Zəncirlənmiş Prometey", C.Məmmədov), Gülnaz ("Pul dəlisi", Ə.Orucoğlu), ana ("Bala bəla sözündəndir", Ə.Əmirli) və s. bunu təsdiqləyir.



Kinoda və televiziya tamaşalarındakı parlaq çıxışları da Gülşən Qurbanovanın performansına özəl rənglər qatıb. Onun 21 filmdən ibarət zəngin filmoqrafiyası var. Bunlardan "Ad günü" (Sevda), "Mən mahnı qoşuram" (Sədrin arvadı), "Anlamaq istəyirəm" (Rəfiqə), "Cin mikrorayonda" (Dəmirovun arvadı), "Evləri köndələn yar" (Tahirin arvadı), "Ordan-burdan" (Pəri) adlı ekran əsərlərini göstərmək olar. İstedadlı sənətkar 1989-cu ildə Əməkdar artist, 9 il sonra isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Kinoda debüt etdiyi "Ad günü" filmindəki Sevda rolu kiçikplanlı olsa da, personajın inandırıcı davranış və dialoqu hadisələrin axıcılığını, inandırıcılığını təmin edib. Buna görə də aktrisa ard-arda bir çox kinoya dəvət alıb və rejissorların etimadını doğruldub.

Sənətçi dostlarının dediyinə görə, bayram şənliklərində iştirak siyahıları tutulanda aktrisalar arasında Gülşən Qurbanovanın adı Nəsibə Zeynalovadan sonra 2-ci yazılar və onun üçün xüsusi səhnəciklər hazırlanardı. Bir dəfə Xalq artisti Yaşar Nuri ilə "Arşın mal alan"ı müasir dövrə uyğunlaşdırıb parodiya edəndə özündən o qədər sözlər əlavə edib ki, rejissorlar mat qalıblar.

Teatrdan ayrılandan sonra Gülşən Qurbanova telekanallara dəvət alır və uzun müddət AzTV-nin "Gəlin, birlikdə güləк" adlı layihəsində çıxış edir. Bu verilişdə Azərbycanın ilk qadın şou aparıcısının tərəf müqabilləri Xalq artisti Yasin Qarayev və Əməkdar artist Azər Mirzəyev olurlar. Həmin layihə bitəndən çox sonralar aktrisa ANS-də və "Lider"də müvafiq olaraq "Qaynar qazan" və "Mikser" verilişlərində aparıcılıq edib.

Azərbaycanın tanınmış televiziya rejissoru, Əməkdar incəsənət xadimi Məhərrəm Bədirzadə həmişə deyirdi ki, Gülşən xanım "Gəlin, birlikdə gülək" proqramının əsl tapıntısı idi. Onun iştirak etdiyi buraxılışlarda nisbətən zəif ssenarilər belə cana gəlir, cəlbedici olurdu.

Xalq artisti Gülşən Qurbanova 2006-cı ilin payızında, 56 yaşında televiziyadan evə qayıdarkən növbəti dəfə infarkt keçirib və gözlərini əbədi yumub. Bacısı Firəngiz xanımın bu barədə dedikləri:

– O, evdə tapılmırdı, ancaq iş arxasınca qaçırdı. Bir sözlə, onu iş saxlayırdı. Gülşəni məndən soruşanda deyirdim ki, siz məndən çox bilirsiniz onun haqqında. Ürəyi nə istəyirdisə, onu da edirdi. O səhnəni çox sevirdi, rollarına ürəyini verirdi. Gülşən 2 dəfə infarkt keçirmişdi. Heç birində də yaxşı müalicə almamışdı, 10 gündən çox xəstəxanada qala bilmirdi. Halbuki, ona müalicə lazım idi. Nə qədər dedik, qulaq asmadı. Təsəvvür edin ki, o vəziyyətdə canlı efirə çıxırdı. Gülşən özünü qurban verdi, hamıya qurban verdi. Və 3-cü infarktla həyatını itirdi...

O, indi xatirələrdə yaşayır və yada düşən kimi çöhrələrə təbəssüm qonur. Qeyd edək ki, Sabunçu rayonu Kürdəxanı qəsəbəsindəki küçələrdən biri Gülşən Qurbanovanın adını daşıyır.

***Ə.DOSTƏLİ***
***XQ***

# Mətbuat Şurasının İdarə Heyəti 2025-ci ilə yekun vurdu



**Dünən Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin 2025-ci ildəki son iclası keçirilib. Toplantını giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid gündəliyi elan edib.**

## Hesabat

İclasda əvvəlcə MŞ sədrinin İH-in oktyabrda keçirilmiş son iclasından indiyədək görülmüş işlərə dair məlumatı dinlənilib. R.Məcid bildirib ki, Mətbuat Şurasında ömrünü–gününü jurnalist peşəsinə həsr etmiş 3 jurnalistlə bağlı yubiley toplantısı keçirilib. Şura 3 media qurumunun və 1 jurnalistin yubileyi ilə bağlı təbrik, 2 jurnalistin vəfatı ilə bağlı başsağlığı mətni yayıb. Bundan başqa, qurum Azərbaycan jurnalistləri adından 8 Noyabr Zəfər Gününün 5-ci ildönümü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Noyabrın 7-də Mətbuat Şurası Medianın İnkişafı Agentliyi ilə birgə "Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi" mövzusunda konfrans keçirib.

Noyabrın 8-də Türkiyənin Alanya şəhərində Azərbaycan Mətbuat Şurası ilə Türkiyə Qlobal Jurnalistlər Şurası (Küresel Gazeteciler Konseyi – KGK) arasında əməkdaşlıq protokolu imzalanıb. Bu sənədlə tərəflər media təhsili və peşəkar inkişaf proqramlarının təşkilini, jurnalist mübadiləsini və ortaq təlimlərin keçirilməsini, media etikası və ictimaiyyətlə əlaqələr sahəsində birgə layihələrin gerçəkləşdirilməsini planlaşdırıblar. Həmçinin qarşılıqlı səfərlərin, forum və konfransların reallaşdırılması, ortaq nəşrlərin hazırlanması və informasiya mübadiləsinin genişləndirilməsi də protokolun əsas iş istiqamətləri sırasındadır. Ümumən, bu sənəd media əməkdaşlığının institusional əsasda inkişafını, regional və beynəlxalq informasiya mübadiləsinin yeni səviyyəyə yüksəldilməsini hədəf seçir.

R.Məcid onu da bildirib ki, Mətbuat Şurası İdarə Heyətinin üzvləri ölkəmizdə təşkil olunmuş Türk Dövlətləri Təşkilatının Media Forumunda və "İctimai etimadın formalaşdırılmasında medianın rolu və informasiya təhlükəsizliyi" mövzusunda Azərbaycan–Gürcüstan Media Forumunda, "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunda fəal iştirak ediblər.

## Şikayətlərin araşdırılması

İclasda müzakirəyə çıxarılan ikinci məsələ Mətbuat Şurasına şikayətlərlə bağlı olub. MŞ sədrinin müavini, Şikayətlər üzrə Komissiyanın sədri Səadət Məmmədova bildirib ki, rəhbərlik etdiyi komissiya İH-in iclasından əvvəl öz iclasını keçirib. O, həmin toplantıda 6 şikayətin nəzərdən keçirildiyini bildirib və deyib ki, şikayətlərdən biri bilavasitə Mətbuat Şurasının səlahiyyət dairəsinə aid olmasa da, Şuranın Katibliyi tərəfindən orada adları çəkilən jurnalistlərlə söhbət aparılıb və problem yoluna qoyulub, bununla bağlı müvafiq məlumatlandırma işi aparılıb.

Mətbuat Şurasının səyləri ilə şikayətə səbəb olmuş iki məsələ həllini tapıb ki, bu zaman cavabdeh media orqanı narazılıq doğurmuş materialı öz veb-saytından silməyi təklif edib və belə mövqe şikayətçi tərəfindən məqbul qarşılanıb.

S.Məmmədovanın məlumatına görə, Şikayətlər üzrə Komissiyada müzakirə edilən daha bir məsələ üzrə cavabdeh kimi göstərilən media orqanı "Milli TV" "Youtube" kanalının rəhbərinin jurnalist kimi davranmadığını, aşkar tərəf tutduğunu, təqdim etdiyi materialda faktlarla deyil, ümumi ifadələrlə ittiham tonuna üstünlük verdiyini müəyyənləşdirib. Eyni zamanda, "Milli TV" tərəfindən Şuranın Katibliyinin problemin həllinə dair çağırışına zəruri reaksiya göstərilməyib. Buna görə bu media orqanı ilə bağlı Mətbuat Şurasının qərarının qəbulu vacibdir. Daha bir məsələ üzrə isə cavabdeh media orqanının şikayətçi tərəfin mövqeyinin işıqlandırılmasına razı olduğu tərəflər arasındakı mübahisənin aradan qaldırılması baxımından vacib sayılıb.

## Dil komissiyasının yeni tərkibi

Mətbuat Şurası İdarə Heyətinin iclasında Şuranın Dil Komissiyasının fəaliyyətinin gücləndirilməsi məsələsi müzakirə olunub. Sədr Rəşad Məcid bildirib ki, Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yığıncaqdakı çıxışında ana dilimizlə bağlı həssas məqamlara toxunub. Dilimizə yad təsirlərin artmasından narahatlığını ifadə edən dövlətimizin başçısı onun saflığını qorumağın hər bir vətəndaşın işi olduğunu vurğuladı. Prezident, eyni zamanda, həm televiziya, həm də yazılı media məkanındakı mənfi tendensiyalara diqqət çəkərək, dilimizin lazımınca qorunmamasının milli kimliyimizə təhlükə yaratmasından da söz açdı, bu istiqamətdəki durumu izləyəcəyini, lazımi tədbirlər görəcəyini bildirdi.

Şura sədri qeyd edib ki, Prezident İlham Əliyevin tələbləri Mətbuat Şurası qarşısında da məsuliyyət müəyyənləşdirir və Şuranın İdarə Heyəti üzvlərinin təklifləri qurumun bununla bağlı fəaliyyətinin konkret konturlarının müəyyənləşdirilməsində mühüm rol oynayacaq. Müzakirələrdən sonra sədr Vüsalə Mahirqızı olmaqla, MŞ-nin Dil Komissiyasının yeni tərkibi müəyyənləşib. Qərara alınıb ki, tərkibdə İH üzvlərindən "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, Milli Məclisin deputatı Elçin Mirzəbəyli, Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli, Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı ilə yanaşı, Şuranın Nəzarət-Təftiş Komissiyasının üzvü, "Vətən səsi" qəzetinin baş redaktoru Elşən Əliyev və "525-ci qəzet"in baş redaktor müavini Seyfəddin Hüseynli təmsil olunsunlar, dilçi alimlərin də komissiyanın işinə cəlb edilmələri istiqamətində tədbirlər görülsün. Qurumun fəaliyyətinə gəlincə, konkret iş planı hazırlanacaq və görüləcək işlər dəqiqləşdiriləcək.

## Jurnalist Təşkilatlarının Koordinasiya Mərkəzi

İclasda bildirilib ki, ölkədə fəaliyyət göstərən jurnalist təşkilatlarının daha çox beynəlxalq miqyasda söz və ifadə azadlığı ilə bağlı qlobal trendlərə qoşulmalarına, onların ayrı-ayrı beynəlxalq konfranslarda daha institusional şəkildə iştiraklarına ehtiyac var. Çünki söz və ifadə azadlığı ilə əlaqəli məsələlər ölkələrin beynəlxalq nüfuzu baxımından qiymətləndirilir. Belə durumlarda jurnalist təşkilatlarının fəallığı mütləqdir. Onların işlərinin sistemləşdirilməsi lazımdır. Bu baxımdan Mətbuat Şurasının nəzdində Jurnalist Təşkilatlarının Koordinasiya Mərkəzi yaradılmasına ehtiyac var. İclasda məsələ ilə bağlı "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İB-nin sədri Ayaz Mirzəyevin təqdimatı dinlənilib və təkliflər irəli sürülüb. Qərara alınıb ki, A.Mirzəyevin rəhbərliyi ilə fəaliyyət göstərəcək koordinasiya mərkəzi gələn il konkret iş strategiyasını və mərkəzdə təmsil olunacaq jurnalist birliklərini müəyyənləşdirsin.

## "Azərbaycan milli mətbuatının 150 illiyi" medalının təqdimatı

Mətbuat Şurası İdarə Heyətinin son iclasında Prezident İlham Əliyevin 20 fevral 2025-ci il tarixli fərmanı ilə təsis edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı Şuranın təmsilçilərinə təqdim olunub. Şura sədri R.Məcid yubiley medalını Azərbaycan dövlətinin həm jurnalist əməyinə, həm də milli mətbuatımızın keçdiyi şərəfli yola dəyərinin növbəti bariz nümunəsi kimi qiymətləndirib və medalı təltif etmək səlahiyyətinə malik Medianın İnkişafı Agentliyinin rəhbərliyinə təşəkkürünü bildirib.

***XQ***

# Görkəmli fizioloqun 100 illik yubileyi



**Dekabrın 18-də Azərbaycan Tibb Universitetində tanınmış alim, tibb elmləri doktoru, professor Qəhrəman Qəhrəmanovun anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib.**

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxışında Qəhrəman Qəhrəmanovun həyat və fəaliyyətinə nəzər salaraq onu Azərbaycan tibb elminin korifeylərindən biri kimi səciyyələndirib. Alimin çoxsaylı elmi məqalələrin, monoqrafiyaların və dərsliklərin müəllifi olduğunu xatırladan rektor, xüsusilə, onun 2001-ci ildə nəşr edilən "Beynin və ürəyin sirlərinə pəncərələr" kitabının bu gün də fiziologiya sahəsində dəyərli mənbə kimi istifadə olunduğunu diqqətə çatdırıb.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov professorun böyük elmi məktəb yaratdığını vurğulayaraq qeyd edib ki, Qəhrəman Qəhrəmanov ömrünün sonuna qədər fiziologiya sahəsində çalışıb, fəaliyyət göstərib, elmi-tədqiqat işləri aparıb, kitablar çap etdirib.



Səhiyyə nazirinin müavini Nadir Zeynalov isə Qəhrəman Qəhrəmanovun tələbəsi kimi xatirələrini bölüşərək, onun mürəkkəb fiziologiya elmini sadə və anlaşılan dildə izah etmək bacarığını xüsusi qeyd edib.

AMEA-nın müxbir üzvü, ATU-nun Normal fiziologiya kafedrasının müdiri, professor Arif Məmmədov görkəmli alimin həyat və elmi irsinə həsr olunmuş geniş məruzə ilə çıxış edib. Professorlar İbadulla Ağayev və Paşa Qəlbinur xatirə çıxışlarında Qəhrəman Qəhrəmanovun Azərbaycan tibb elminə verdiyi əvəzsiz töhfələrdən danışıblar.

Elmi-praktik konfransın işi sessiyalarla davam edib.

***XQ***

# Sosial media: Gözəgörünməz savaşın uğultuları

**Dünyada artıq silahların səsi deyil, informasiya dalğalarının uğultusu eşidilir. Tanklar və toplar cəbhələrdən çəkilib, onların yerini insanların zehnində aparılan görünməz savaşlar tutur. Hər klik, hər paylaşım, hər trend indi yeni döyüş silahına çevrilib. Sosial media isə bu sahibsiz, sərhədsiz cəbhənin əsas meydanına çevrilib. Burada döyüşənlər ordular deyil − informasiyalar, narrativlər, alqoritmlər və emosiyalardır. Bu yeni dövrün adı isə koqnitiv müharibələrdir.**

Koqnitiv müharibə insan şüurunu hədəfə alır; bu savaşda əsas məqsəd torpaq, sərvət və ya resurs deyil, insanın düşüncə məkanıdır. Hər bir insanın qərar vermə sistemi, hadisələri dərketmə tərzi, emosional reaksiyaları gizli şəkildə yenidən formatlanır. Bu gün sosial media saniyələr içində yüz minlərin fikrini dəyişdirə bilir. İnsanlara nə düşünməli olduğunu diktə etmək bu müharibənin məqsədi deyil − onların niyə belə düşündüyünü dəyişdirmək, hətta düşünmə mexanizminə müdaxilə etmək hədəflənir.

Dünya bir vaxtlar "informasiya müharibəsi" deyə adlandırılan prosesin çoxdan arxada qaldığını qəbul etməkdə çətinlik çəksə də, gerçəklik artıq dəyişib. Sosial media platformaları informasiya ötürməkdən daha çox, insan psixologiyasını manipulyasiya edən texnoloji laboratoriyalara çevrilib. Hər paylaşılan şəkil, hər video, hər şərh əslində alqoritmlərin sınaq materialıdır. Onlar hansı mövzunun kimdə qəzəb oyatdığını, kimin nəyi sevdiyini, nədən qorxduğunu, hansı xəbərə daha tez reaksiya verdiyini, maraq dairəsini, vərdişlərini və digər fəaliyyət istiqamətlərini ölçür, gələcək planların həyata keçirilməsində vacib olan statistikasının hazırlanmasını təmin edir. Bu ölçmələr sonra sosial emosiyaları idarə etmək üçün silaha çevrilir.

Koqnitiv müharibənin ən təhlükəli tərəfi onun anonimliyidir. Sənə hücum olunan anı hiss edə bilmirsən. Çünki hücum silahı güllə deyil, məlumatdır; düşmən isə hər hansı ölkənin ordusu yox, sosial şəbəkədəki adi profil təsiri bağışlayan alqoritmik sistemlərdir. Bir saxta hesab yüzlərlə real hesabı yönləndirə, kütlə psixologiyasına təsir edə, hətta seçkilərin nəticələrinin dəyişdirilməsinə təsir edə bilər. Bəzən bir "mem", bəzən bir "trend" bütöv ictimai rəyə təsir gücünə malik olur.

Dezinformasiya artıq fərdi təşəbbüs deyil; o, dövlətlərin, kəşfiyyat qurumlarının, hətta kommersiya şirkətlərinin texnoloji gücü ilə hazırlanmış böyük bir sənayedir. Bot şəbəkələri saniyələr içində minlərlə paylaşımla yanlış narrativləri "ictimai fikir" kimi göstərir. Troll fabrikləri emosional mühit yaradır, mübahisələr şişirdilir, panika toxumları səpilir. Deepfake texnologiyaları ilə yaradılmış saxta videolar isə insanları real olmayan hadisələrə inandırmaq üçün kifayət edir. Artıq gördüyümüzə inanmaq belə təhlükəlidir.

Bu müharibənin ən qorxulu tərəfi isə cəmiyyətdə "həqiqət böhranı" yaratmasıdır. İnsanlar hansı məlumatın doğru, hansının manipulyasiya olduğunu müəyyənləşdirməkdə aciz qalır. Həqiqət dumanlı anlayışa çevrilir və belə şərait koqnitiv hücumlar üçün ideal zəmin yaradır. Qorxu, qəzəb və çaşqınlıq - koqnitiv müharibənin mühərriki də məhz bunlardır.

Sosial media insanların qorxu, qəzəb və çaşqınlıq kimi emosiyalarını ən sürətlə istehlak edir; məhz bu emosiyalar koqnitiv müharibənin mühərriki və görünməz silahıdır.

Bu proses dövlətlərin milli təhlükəsizlik sistemləri üçün artıq ciddi təhdidə çevrilib. Bir ölkənin sabitliyini pozmaq, iqtidara və iqtisadi layihələrə, həyata keçirilən islahatlara etimadı sarsıtmaq, sosial qarşıdurma yaratmaq üçün fiziki hücumlara ehtiyac yoxdur. Bəzən bir tweet, video, süni gündəm kifayət edir. Cəmiyyətin parçalanması, insanların bir-birinə inamsızlığı, kütləvi emosional manipulyasiya bu görünməz müharibənin nəticələridir.

Əlbəttə, bu təhlükənin qarşısını almağın yolları da var. Lakin onlar yalnız texnoloji vasitələrlə məhdudlaşa bilməz. Əsas müdafiə insanın özündə − onun tənqidi düşünmə qabiliyyətində, media savadlılığında və emosional müqavimətindədir. Cəmiyyət informasiyanı gözüaçıq qəbul etməli, hər xəbəri emosional reaksiya ilə yox, analitik düşüncə ilə dəyərləndirməlidir. Dövlətlər isə koqnitiv təhlükəsizliyi milli təhlükəsizlik doktrinasının ayrılmaz hissəsinə çevirməlidir.

Bu gün sosial media yalnız ünsiyyət platforması deyil − o, dünyanın ən böyük və ən mürəkkəb savaş meydanıdır. Koqnitiv müharibələrin mahiyyəti təkcə ictimai fikri idarə etmək deyil, həm də cəmiyyətin özünüdərk mexanizmini dəyişdirmək hədəflənir. İnsanlar informasiya burulğanında yönsüzləşdikcə, onların sosial instinkt və qərarvermə qabiliyyəti zəifləyir. Nəticədə toplumlar emosional dalğaların əsirinə çevrilir: bir gün panika, ertəsi gün ümid, daha sonra aqressiya. Bu dalğalanma təsadüfi deyil − bu, planlı şəkildə yaradılan psixoloji ritmdir.

Sosial media platformaları isə bu ritmi idarə edən mexanizmlərdir. Alqoritmlər insan beynində dopamin dövriyyəsini belə ölçür; hansı videonun insanı istiqamətləndirdiyini, hansı xəbərin onu əsəbiləşdirdiyini, hansı emosiyanın ən çox paylaşım gətirdiyini analiz edir. Bu təhlillər insanın özündən daha yaxşı onun zəif nöqtəsini müəyyən edir. Əsl təhlükə də elə budur: insan öz emosiyalarının sahibi olmur, onların "idarəçisi" sosial media olur.




Görünməz müdaxilə təkcə fərdlərə deyil, eyni zamanda, dövlətlərin siyasi arxitekturasına yönəlir. Seçkilərin nəticəsinə təsir göstərən koqnitiv hücumlar artıq dünyada bir neçə ölkədə real nümunəyə çevrilib. İctimai etimad piramidasının təməli sayılan informasiya şəffaflığı pozulduqca, siyasi institutlara inam azalır, cəmiyyət rəhbərliyə yox, trendlərə qulaq asmağa başlayır. Belə bir vəziyyətdə sosial media siyasi legitimliklə yarışan paralel güc mərkəzinə çevrilir. "Biz" və "onlar" təfəkkürü güclənir. Alqoritmlər isə bu ayrılığı daha da kəskinləşdirir: sən bir dəfə hansısa mövzuda fikir bildirdinsə, platforma səni həmin fikir məcrasında sıxışdırır. Sən yalnız eyni düşüncəli insanların fikirlərini görürsən, yəni ətrafında virtual "eko-kamera" yaranır. Bu kamera səni doğrunu yox, öz versiyanı əsas həqiqət kimi qəbul etməyə vadar edir. Beləcə cəmiyyətin daxilində görünməz sədlər çəkilir.

Ən incə məqam isə ondan ibarətdir ki, koqnitiv hücumlar təkcə yanlış informasiya yaymır – onlar həqiqəti şübhə altına alır. Məqsəd insanları yalanlara inandırmaq deyil, onları heç nəyə inanmayan vəziyyətə gətirməkdir. Şübhə və inamsızlıq cəmiyyəti təklikdə qoyur. Heç nəyi təsdiqləyə, heç nəyə güvənə bilməyən toplum öz-özünə də rəhbərlik edə bilmir. Bu isə hər bir ölkənin strateji zəifliyidir.

İctimai şüurda belə boşluq yarandıqda informasiya manipulyatorları "alternativ həqiqətlər" təklif etməyə başlayır. Bu alternativlər bəzən siyasi məqsədlərə xidmət edir, bəzən iqtisadi maraqlara, bəzən sadəcə xaos yaratmağa. Son illərin qlobal trendləri göstərir ki, informasiyanın çoxluğu həqiqətin güclənməsi demək deyil. Əksinə, həddindən artıq informasiya həqiqəti görünməz edir.

Bu mənzərədə ən vacib sual ortaya çıxır: bəs cəmiyyət və fərd özünü necə qoruya bilər?

Burada müdafiə mexanizmi hərbi xarakter daşımır. Bu, intellektual və psixoloji müdafiədir. İnsan informasiyanı tənqidi şəkildə süzməyi öyrənməlidir. Çünki koqnitiv müharibənin ballistik trayektoriyası yoxdur; onun qurbanları açıq səngərdə deyil, öz telefon ekranı arxasında dayanır.

Müdafiə həm də müstəqil düşüncə vərdişinin inkişafından keçir. Sosial media insanlara hazır fikir paketləri təqdim edir − sənin üçün düşünülmüş təkliflər. İnsan isə bu paketlərin cazibəsinə yox, öz düşünmə qabiliyyətinə güvənməlidir. Cəmiyyət yalnız bu yolla koqnitiv təzyiqlərə qarşı immunitet qazana bilər. Çünki özünüdərk güclü olanda manipulyasiya zəif olur.

Bu gün sosial media platformaları iqtisadi və siyasi gücə bərabər təsir gücü qazanıb. Onların əlində olan məlumatlar, istifadəçilərin psixoloji xəritələri və davranış modelləri planetin ən güclü ordusundan daha çox təhlükə yarada bilər. Məlumatın gücünün bu dərəcədə silaha çevrilməsi insanlıq üçün yeni tarixi dönəmdir.

Koqnitiv müharibələrin gələcək mərhələsi daha dərin, daha nəzərə çarpmayan olacaq. Süni intellektin bu prosesə tam daxil olması isə təhlükənin miqyasını bir neçə qat artıracaq. Artıq manipulyasiya edəcək mesajları insan yaratmayacaq − insanın öz psixoloji profilinə görə hazırlanmış alqoritmik manipulyasiya sistemləri yaradacaq.

Bu reallığın fonunda informasiyanın etibarlılığı, şüurun sağlamlığı və düşüncənin müstəqilliyi bəlkə də XXI əsrin ən vacib strateji resursu olacaq. Üstünlük insan şüurunun qorunmasında, cəmiyyətin birlikdə düşünə bilməsində, informasiya qarşısında ayıq qalmasında olacaq.

Koqnitiv müharibənin sonu yoxdur və o heç vaxt sülh ilə başa çatmayacaq, çünki onun məqsədi qələbə çalmaq deyil, məqsədi − reallığın yerini tutan mənaların davamlı istehsalıdır. Bu prosesdə hər bir insan ya subyekt, ya da alət olur. Əgər biz düşünən, hiss edən və şübhə edə bilən insanı qorumaq istəyiriksə, ona ayırdetmə bacarığını qaytarmalıyıq, insanı müstəqil düşüncə tərzinə və analiz qabiliyyətinin yüksək olduğuna inandırmalıyıq. Çünki ayırdetmə bacarığı varsa, reallıq hələ də mümkündür.

***Nadiyə QAFAROVA,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 267 (30961) 19 dekabr 2025-ci il, cümə

## İDMAN

### Boksçularımızın Avropa fəthi

**Almaniyanın Keinbaum şəhərində keçirilən boks üzrə U-17 Avropa çempionatına yekun vurulub. Azərbaycan millisi 29 ölkədən 382 idmançının qatıldığı yarışı 2 qızıl və 2 gümüş medalla başa vurub.**



Finalda Gülər Hüseynova (48 kq) Asmin Cabasla (Türkiyə) qarşılaşıb. MDB Oyunlarının qalibi Avropa çempionatını da titulla yekunlaşdırıb. O, rəqibini 5:0 (29:26, 29:26, 30:25, 30:25, 28:27) hesabı ilə məğlub edərək çempion olub və Almaniyada Azərbaycan himnini səsləndirib.

Qardaş Rəhimov (46 kq) da komanda yoldaşının uğurunu təkrarlayıb. O, MDB Oyunlarının ardınca Avropa çempionatında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Boksçumuz həlledici görüşdə Birham-Pasa İuseima (Rumıniya) 3:2 (29:28, 30:27, 30:27, 27:30, 28:29) hesabı ilə qalib gələrək qızıl medal qazanıb.

Millimizin digər üzvlərindən Şahin Aslanov (60 kq) və Şükar Əliyev (75 kq) isə Avropa çempionatını 2-ci pillədə başa vurublar.

### "Sabah" "Qarabağ"ı məğlub edib

**Dünən Misli Premyer Liqasında I turdan təxirə salınmış oyun keçirilib. "Bank Respublika Arena"da təşkil olunan qarşılaşmada paytaxt təmsilçisi "Sabah" Ağdamın "Qarabağ" komandasını qəbul edib. FİFA referisi Elçin Məsiyevin idarə etdiyi oyun 2:1 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb.**



Beləliklə, "Sabah" 15 oyundan sonra 34 xalla turnir cədvəlinə başçılıq edir. Ağdam təmsilçisi isə 33 xalla ikinci pillədə yer alıb.

### Milli antidopinq hesabatı

**Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) Müşahidə Şurasının 2025-ci ildə son iclası keçirilib. Agentlikdən verilən məlumata görə, Milli Məclisin deputatı Nigar Arpadarainin sədrliyi ilə keçən mərasimdə AMADA-nın icraçı direktoru Təhminə Tağı-zadə cari ilin 9 ayında görülən işlər barədə təqdimatla çıxış edib.**



Sonra agentliyin 2025-ci il üzrə hesabatlılıq məsələləri nəzərdən keçirilib, görülən işlər və əldə olunan nəticələr ətrafında geniş müzakirələr aparılıb.

Bundan əlavə, AMADA-nın 2026–2030-cu illəri əhatə edən strateji inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparılıb, qarşıdakı dövr üçün əsas prioritetlər və hədəflər müəyyənləşdirilib.

İclasda, həmçinin 2025-ci il üzrə büdcənin icrası məsələsinə baxılıb, maliyyə vəsaitlərindən səmərəli və şəffaf istifadə ilə bağlı müzakirələr aparılıb.

Müşahidə Şurası tərəfindən təqdim olunan məsələlər üzrə müvafiq tövsiyə və qərarlar qəbul edilib.

*Qabil YUSİFOĞLU*
*XQ*

*İnanc ünvanlarımız*

# Mirsultan ağa ocağı

**Mirsultan ağa, elə bil bu, dünyaya xeyirxahlıq üçün gəlmişdi. Sanki, taleyinə insanlara dayaq olmaq, sınmış könüllərə ruh vermək missiyası yazılmışdı. Onu tanıyan hər kəs üçün Mirsultan ağa, sadəcə, bir insan deyil, mərhəmətin, səbrin və ilahi işığın canlı təcəssümü idi.**



Biləsuvarın Əsgərabad kəndində yerləşən ziyarətgah bu gün də həmin işığın ünvanıdır. Buraya üz tutanların sayı-hesabı yoxdur. Hər gün yüzlərlə insan bu ocağa gələrək könül rahatlığı tapır, ürəyindəki dərdi bir anlıq da olsa unudur. Çünki bu məkan təkcə daş-divardan ibarət deyil - burada bir ömrün xeyirxahlıqla yoğrulmuş izi yaşayır.

Hacı Mirsultan ağa seyid, peyğəmbər nəslinin daşıyıcısı idi. Onun adını eşitmək belə insanların içində qəribə bir istilik oyadırdı. Üzündəki nur, baxışlarındakı sakitlik, sözlərindəki hikmət uşaqdan–böyüyə hamını cəlb edirdi. İnsanlar onu görəndə anlayırdılar ki, bu dünyada yaxşılıq hələ də yaşayır.

1933-cü ildə Yardımlı rayonunun Perimbel kəndində dünyaya gələn Mirsultan ağa Seyid Məhəmməd oğlu Mirsultanovun yolu sonradan Biləsuvarın Əsgərabad kəndinə düşmüşdü. Elə o gündən də onun məskunlaşdığı ev tədricən mənəvi ocağa, köməksizlərin pənah yerinə çevrildi. Qapısı heç vaxt bağlı olmadı; dərdi olan da, sevinci olan da bu qapını döydü.

Onu yaxından tanıyanlar yaxşı bilirdilər: Mirsultan ağa yalnız xeyirxahlıq üçün yaşayırdı. Kimsəsizlərin əlindən tutmaq, yolunu azmışa doğru yol göstərmək, ümidsizə ümid olmaq onun həyat fəlsəfəsi idi. Ömrünün son anına qədər də əqidəsindən dönmədi. İnsanlar çətinliyə düşəndə ona sığınar, sözündən təsəlli, baxışından güc alardılar.

Ağanın övladlarına verdiyi ata nəsihətləri bu gün də bir həyat dərsidir: "Dostunuz çox olsun. Qapınıza pənah gətirəni, sizdən kömək istəyəni heç vaxt naümid qaytarmayın".

Mirsultan ağa müqəddəsliyin səssiz nişanəsi idi. Bəlkə də elə buna görə insanlar onu bu qədər sevirdilər. Onu bir dəfə görən, bir neçə dəqiqə söhbət edən insan bu görüşü ömrü boyu unutmurdu.

Bu yaxşılıqlardan biri illər sonra belə dillər əzbəri olan bir hadisədə öz əksini tapır. Bir gün bazarda pulunu itirib çıxılmaz vəziyyətə düşən bir qadına səssizcə əl uzatmışdı. Heç kimin görmədiyi, heç kimin anlamadığı anda…

Mirsultan ağa ilə bağlı belə xatirələr yüzlərlədir. Onun üçün hər səhər yalnız yaxşılıq etmək üçün açılırdı. Oğlu Miralim bu gün də atasından qalan əşyaları qoruyub saxlayır. Avtomobilləri, geyimləri, pul qabısı, imzalı əskinaslar və ən əsası – bir saat yarımlıq səs yazısı. Bu səs, sadəcə bir xatirə deyil, hikmətin, ruhun və ata nəfəsinin yaşadığı mirasdır.

Uca Yaradan bu xeyirxah insanı böyük bir ailə ilə mükafatlandırmışdı - 7 oğul, 5 qız. Hər biri bu ocağın adını öz əməlləri ilə uca tutur, ağanın yolunu davam etdirir. Onların həyatına işıq salan məhz bu nəsihətlərdir.

Mirsultan ağa ömrünü şərəflə yaşadı. Hər gününü insanlara sevinc bəxş etməklə, könüllərə toxunmaqla keçirdi. Axırıncı həcc ziyarəti isə sanki onun taleyinin son səhifəsi idi. 1993-cü ilin iyun ayının 4-də Səudiyyə Ərəbistanının Mina səhrasında bütün ayinlərini yerinə yetirdikdən sonra haqq dünyasına qovuşdu.

Mirsultan ağa cismani olaraq aramızda olmasa da, onun ruhu bu ocaqda, bu dualarda, bu xatirələrdə yaşayır. Çünki insanı yaşadan ömrünün uzunluğu deyil – qoyduğu izdir.

*Müşfiq MİRZƏ*
*XQ*

# Kəklikotu – təbiətin ətri

**Ağız yaraları, diş əti həssaslığı, pis qoxu və ya iltihab... Çoxları bu problemləri təbii yolla aradan qaldırmağa çalışır. Bu zaman tez-tez tövsiyə olunan üsullardan biri kəklikotu suyu ilə qarqaradır.**



Güclü antiseptik xüsusiyyətləri ilə tanınan kəklikotudan həm ağız gigiyenası, həm də ümumi sağlamlıq üçün istifadə edir.

Tərkibindəki timol və karvakrol kimi güclü antiseptik komponentlər sayəsində kəklikotu suyu ağızdakı zərərli bakteriyaların çoxalmasının qarşısını alır, ağız qoxusunu aradan qaldırır və diş əti iltihabına sakitləşdirici təsir göstərir. Şişkinlik, qızartı və həssaslıq kimi simptomlarını yüngülləşdirir. Ağız xoralarının daha sürətli sağalmasına kömək edir, yanma hissini və ağrını azaldır. Bundan əlavə, kəklikotu suyu antimikrob və göbələk əleyhinə xüsusiyyətlərə malikdir.

Kəklikotu təravətləndirici təsiri ilə pis qoxunu aradan qaldırır və tüpürcəyi artıraraq ağız quruluğuna kömək edir.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

*Sağlamlıq*

# Nə acı olsun, nə də isti...

**Rusiyalı onkoloq Maqomed Suleymanov isti çay içməyin zərərlərindən danışaraq jurnalistlərə açıqlamasında bildirib ki, onun yaratdığı mədə və qida borusu xərçəngi dəhşətli onkoloji xəstəliklər sırasındadır. Həkim deyib:**



– Bir tərəfdən, onkologiyanın hazırkı inkişaf mərhələsində bəzi hallarda xəstəliklərlə kifayət qədər mübarizə apara bilirik, digər tərəfdən isə onlar xeyli sayda xəstənin ölümünə səbəb olur.

Reflüks və ya mədə xərçənginin inkişafının risk faktorları bu orqanların isti içkilərin, şorbaların, ədviyyatlı və ya duzlu qidaların istehlakı səbəbindən selikli qişasının xroniki zədələnməsidir. Selikli qişa toxumaları bərpa olunmağa çalışır, aktiv şəkildə yeni toxuma yetişdirir ki, bu da intensiv hüceyrə bölünməsi deməkdir. Və bir anda hüceyrələrin qeyri-adi şəkildə bölünməyə başlaması şişin inkişafına səbəb olur.



Bu ehtimalı aradan qaldırmaq üçün şorba, qəhvə və ya çayın soyumasını bir neçə dəqiqə gözləmək, salatlarda və əsas yeməklərdə duz və istiotu azaltmaq lazımdır.

*Z.HÜSEYNLİ*
*XQ*

# Ağcaqanad xortumu mikroskop imiş...

*Alimlər bu canlı teldən ultranazik xətləri çəkmək üçün istifadə ediblər*

**Tədqiqatçılar laboratoriyada yetişdirilmiş ölü dişi ağcaqanadın xortumunu bioprinter üçün təbii "3D-nekrobaşlıq" kimi uyğunlaşdırıblar. Alimlərin adlandırdığı bu bioloji alət süni mikroiynələrdən həm daha dəqiq işləyib, həm də bahalı mikroskopik iynələrin hazırlanmasına xərcləri azaldıb.**

Yüksək dəqiqlikli üçölçülü çap insan saçından daha nazik detallar hazırlamağı tələb edir. Belə texnologiya tibbdə hüceyrə məhlullarından canlı toxumaların yetişdirilməsi və mikroelektronika kimi sahələrdə vacibdir. Lakin əsas problem - çap başlıqlarının baha və mürəkkəb konstruksiyaya malik olmasıdır. Diametri 50 mikrometr olan metal və ya plastik iynələr həm çox bahalıdır, həm də cüzi tıxanma zamanı yararsız hala düşür.

Təbiətdə isə mayeləri vurmaq və ya sorub çıxarmaq üçün hazır "alətlərə" malik saysız-hesabsız orqanizmlər var: əqrəblərin sancaq orqanı, ilanların zəhər dişləri, müxtəlif həşəratların sorucu strukturları. Biomühəndis yanaşması bu təbii mexanizmlərin texnologiyada istifadəsini təklif edir. Bu yanaşma həm istehsal dəyərini aşağı salır, həm də plastik tullantıların utilizasiyası problemini aradan qaldırır. Biomühəndislər müxtəlif canlıların quruluşunu təhlil edərək seçimlərini "Aedes aegypti" ağcaqanadının dişi fərdlərinə yönəldiblər.

Araşdırmanın müəllifləri laboratoriyada yetişdirilən dişi ağcaqanadların xortumunu diqqətlə çıxararaq onu standart şprisin plastik ucluğuna yapışqan vasitəsilə bərkidiblər. Daha sonra bu hibrid qurğunu xüsusi hazırlanmış platformaya yerləşdiriblər və ona "nekroprintr" adı verilib. Ağcaqanadın xortumu mayeləri ötürmək üçün son dərəcə davamlı təbii strukturdur. Onun daxili kanalı cəmi 20 mikrometr diametrə malikdir - bu, ən incə kommersiya mikroiynələrindən iki dəfə nazik və insan saçından dəfələrlə zərifdir. Bununla belə, təbii "iynə" çap zamanı düz formasını qoruyub saxlayır və altlığa toxunduqda əyilmir. Xortum, təxminən, 60 kilopaskal daxili təzyiqə tab gətirir.

Hazır konstruksiyalarda xətt qalınlığı 18-28 mikrometr arasında dəyişib. Araşdırma göstərib ki, sadə ağcaqanad xortumu mürəkkəb mühəndis detallarını əvəz edə biləcək səmərəli və ucuz alətdir. Texnologiya mikroskopik strukturların minimal xərc ilə hazırlanmasına imkan verir, çünki laboratoriya şəraitində ağcaqanadların yetişdirilməsi çox ucuz başa gəlir. Gələcəkdə bu tip yenilənə bilən bioiynələrin klinik analizlərdə, mikrotexnologiyada və hüceyrə karkaslarının yaradılmasında geniş tətbiq olunacağı gözlənilir.

*Hazırladı:*
*S.ELAY*
*XQ*

## HAVA

# Payızın yağmursuz son cüməsi



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-6, gündüz 7-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 774 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz olacaq.**

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 7-10 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlamaq ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

***✓ 2022-ci ildə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Şəmkir sərhəd dəstəsi tərəfindən Quliyev Məhəmməd Hamlet oğlunun adına verilmiş DSX seriyalı, 0010879 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ Balabəyov Balabəy Abdi oğlunun adına verilmiş Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

***✓ 21 iyun 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi tərəfindən Nərimanlı Şamxal İlqar oğlunun adına verilmiş AA seriyalı 147250 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.***

***✓ Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhərinin Kəpəz rayon şöbəsi (keçmiş Kirovabad şəhəri Kəpəz rayon hərbi komissarlığı ) tərəfindən Quba şəhər sakini 1965-ci il təvəllüdlü baş çavuş Allahverdiyev Allahverdi Azay oğlunun adına verilmiş 19 noyabr 1986-cı ildə Əfqanıstan Demokratik Respublikasına göstərilən beynəlmiləl köməyin iştirakçısı olması barədə A seriyalı 459427 nömrəli "Güzəşt və imtiyazlar haqqında" şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2332
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00